RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 119 (9574) 7 iyun 2024-cü il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

## Şuşada Türk Dövlətləri Təşkilatının Zirvə görüşü keçiriləcək

Prezident İlham Əliyev TÜRKPA-nın nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Eri, Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşu, Qazaxıstan Parlamenti Məclisinin Sədri Yerlan Koşanovu, Qırğızıstan Joqorku Keneşinin Sədri Nurlanbek Şakiyevi, Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayevanı, Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri Zorlu Töreni və Macarıstan Milli Assambleyasının Sədrinin müavini Marta Matraini qəbul edib.

→ 2-3

## Dostluğun və qardaşlığın nümunəsi

Prezident İlham Əliyev Qırğızıstanın Joqorku Keneşinin Sədrini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Qırğız Respublikasının Joqorku Keneşinin Sədri Nurlanbek Şakiyevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, Nurlanbek Şakiyev Qırğızıstan Prezidentinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Sadır Japarova çatdırmağı xahiş etdi.

Dövlətimizin başçısı ötən ilin oktyabrında Qırğızıstana səfərini məmnunluqla xatırlatdı.

→ 4

## Ümumdünya Ticarət Təşkilatı Azərbaycanın iqtisadi nailiyyətlərini yüksək qiymətləndirir

Prezident İlham Əliyev təşkilatın baş direktorunu qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 6-da Ümumdünya Ticarət Təşkilatının baş direktoru Nqozi Okonyo-İvealanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına daxilolma prosesi ilə bağlı fikir mübadiləsi aparıldı.

→ 4

## TÜRKPA-ya sədrlik Azərbaycana keçdi

**İyunun 6-da Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) Şurasının 13-cü iclası keçirilib.**



Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş TÜRKPA-da sədrliyi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya təhvil verib. O, qarşıdakı dövrdə təşkilata sədrlik edəcək Azərbaycan tərəfinə uğurlar arzulayıb.

TÜRKPA-nın fəaliyyətdə olan sədrliyini qürur hissi ilə təhvil aldığını deyən Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikasının Milli Məclisinin qarşıdakı dövrdə təşkilatın məqsədlərinə nail olunması, əməkdaşlığın daha da inkişafı üçün lazımi tədbirlərin həyata keçirilməsi səy göstərəcəyini bildirib.

→ 6



# Azərbaycanı dünyaya tanıdan əməkdaşlıq platforması

## Bakı Enerji Həftəsi enerji sektorunda yeni əlaqələrin inkişafına xidmət edən tədbirlərlə əlamətdar oldu

**Bu həftə paytaxtımız növbəti mötəbər beynəlxalq tədbirə - Bakı Enerji Həftəsinə evsahibliyi etdi. 4-6 iyunda keçirilən, həmişə olduğu kimi, enerji sahəsində mühüm hadisəyə çevrilən Bakı Enerji Həftəsi bir daha Azərbaycanın enerji diplomatiyasının təntənəsinə çevrildi.**

37 ölkədən 300-dək şirkətin iştirakı Bakı Enerji Həftəsinin qlobal miqyasda qəbul edilən, enerji sahəsində yeni əməkdaşlıqlara yol açan bir tədbir olduğunu göstərdi.

### Diqqət Azərbaycanın uğurlarına yönəldi

Bakı Enerji Həftəsinin qlobal miqyasda aktuallığını artıran əsas məqamlardan biri özündə bir neçə tədbiri birləşdirməsidir. Belə ki, bu tədbir çərçivəsində Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin, Xəzər Beynəlxalq Energetika və "Yaşıl Enerji" Sərgisinin və Bakı Enerji Forumunun keçirilməsi Bakı Enerji Həftəsinə olan qlobal marağı daha da artırırdı.

→ 10

BAKU ENERGY WEEK

Bakı Enerji Həftəsi mövqelərimizi daha da gücləndirəcək → 10

Azərbaycan enerji üzrə müzakirə mərkəzidir → 10

Ənənəvi enerjidən "yaşıl enerji"yə → 11

Enerji ilə bağlı gələcək çağırışlar Bakıda müəyyən edilir → 11

Beynəlxalq əlaqələri genişləndirmək üçün əlverişli platforma → 11

"Qara qızıl" diyarı "yaşıl enerji" ölkəsinə çevriləcək → 14

## *Əminə ƏRDOĞAN:* "Mehriban Əliyeva ilə birgə səylərə hazırıq"



Əminə Ərdoğanın sözlərinə görə, Azərbaycan qədim mədəniyyətə və ətraf mühitə hörmət prinsiplərinə əsaslanan zəngin ənənələrə malikdir. "Əminəm ki, COP29-un Bakıda keçiriləcək sessiyası mühüm sammit olacaq və onun nəticələri yaddaşlarda qalacaq", - deyə Türkiyə liderinin xanımı vurğulayıb.

Əminə Ərdoğan deyib: "Həmçinin vurğulamaq istərdim ki, dostum, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə birlikdə türk dünyasında ekoloji təşəbbüslərin əhatə dairəsini genişləndirmək üçün birgə səylərə hazırıq".

→ 5

## İnkişafa xidmət edən təşəbbüs

Birlik, həmrəylik, siyasi dialoq, qarşılıqlı əməkdaşlıq bu əməllərin, tədbirlərin tərkib hissəsidir və bu meyarlara önəm verilməsi Azərbaycanın gələcək inkişafına, ictimai - siyasi sabitliyin bərpasına, vətəndaşların rahatlığına, sərbəstliyinə, yüksək rifahına hesablanmışdır ki, bu da qürurvericidir.

→ 12

## Avropa Parlamentinə seçkilərə start verildi

→ 13

## Revanşistlərin keşiş planı iflasa uğrayır

→ 13

## 35 pillə yüksəliş

Bu günlər Dünya Bankının ölkəmizlə bağlı daha bir reytinqi məlum olub. Bankın açıqlamasında Azərbaycan Qadın, Biznes və Hüquq reytinqinə görə, son bir ildə 35 pillə irəliləyərək 190 ölkə arasında ötənildəki 104-cü pillədən 69-cu pilləyə yüksəlib.

→ 14

# Şuşada Türk Dövlətləri Təşkilatının Zirvə görüşü keçiriləcək

## Prezident İlham Əliyev TÜRKPA-nın nümayəndə heyətini qəbul edib

*Əvvəli 1-ci səh.*

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Azərbaycan Prezidenti **İlham Əliyev** dedi:

- İlk növbədə xoş gəlmisiniz. Sizin hamınızı səmimiyyətlə salamlayıram. Əminəm ki, TÜRKPA-nın növbəti plenar iclası yaxşı nəticələr verəcək. Belə toplantılar bir qayda olaraq türk dünyasının birliyinin təzahürü olur, əminəm ki, Bakı toplantısı da istisna olmayacaq. Türk dünyasının birləşməsi istiqamətində ölkələrimiz böyük səylər göstərirlər. Bildiyiniz kimi, Azərbaycanın xarici siyasətinin prioritetlərinin müəyyən edilməsi zamanı türk dünyasının gücləndirilməsi, türk dövlətləri ilə əlaqələrimiz prioritet istiqamət kimi müəyyən olunub. Builki prezident seçkilərindən sonra andiçmə mərasimindəki çıxışımda bildirmişdim ki, bizim ailəmiz türk dünyasıdır, bizim başqa ailəmiz yoxdur. Əslində, bu, ölkəmizin bu istiqamətdəki siyasətini açıq şəkildə büruzə verir. Şadam ki, son illər ərzində Türk Dövlətləri Təşkilatı xətti ilə aparılan işlər birliyimizi daha da gücləndirir.

Bildiyiniz kimi, mənim təşəbbüsümlə bir aydan sonra Şuşada Türk Dövlətləri Təşkilatının qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. Mən hesab etdim ki, ildə bir dəfə Zirvə görüşünün keçirilməsi kifayət etməz. Çünki həm sürətli, yəni davamlı təmaslara ehtiyac var, eyni zamanda hər bir Zirvə görüşü birliyimizin gücləndirilməsinə istiqamətlənmiş növbəti addım olur. Çox şadam və həmkarlarıma minnətdaram ki, onlar bu təşəbbüsü dəstəkləyiblər və düz bir aydan sonra Şuşa şəhərində qeyri-rəsmi Zirvə görüşü keçiriləcək. O görüşün əsas mövzuları nəqliyyat və iqlimlə bağlı olacaq. Bu da təbiidir. Çünki bu gün nəqliyyat əlaqələrinin qurulması və genişləndirilməsi türk dünyasının birləşməsi ilə sıx bağlı olan prosesdir. Orta dəhlizin fəaliyyətə başlaması və yükdaşımaların artırılması göz önündə olan məsələlərdir. Burada Türk Dövlətləri Təşkilatına üzv olan bütün ölkələr birgə fəaliyyət göstərir. Mən hesab etdim ki, indiki zəmanədə Orta dəhlizin potensialına dünyada daha böyük ehtiyac var. Biz bu mövzu ilə bağlı, gələcək addımlarımızla bağlı geniş fikir mübadiləsi aparmalıyıq.

İqlim məsələləri isə bu gün Azərbaycanın gündəliyində duran əsas vəzifələrdən biridir. Bildiyiniz kimi, Azərbaycan bu il COP29 konfransına evsahibliyi edəcək. Bu, bizim üçün həm böyük məsuliyyətdir, həm də böyük şərəfdir. Bu qlobal tədbirə hazırlıq ərəfəsində, əlbəttə ki, qardaş ölkələrlə bu məsələləri də müzakirə etmək böyük fayda verəcəkdir.

Zirvə görüşünün Şuşada keçirilməsi, təbii ki, böyük rəmzi məna daşıyır. Şuşa 4 ilə yaxındır ki, işğaldan azad edilib və orada sürətlə quruculuq-bərpa işləri aparılır. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin liderləri Şuşaya səfərlər etmişlər. Türkiyə Prezidenti, Özbəkistan Prezidenti, Qazaxıstan Prezidenti, Qırğızıstan Prezidenti Ağdama və Füzuliyə səfər etmişdir. Yəni bu, işğal edilmiş torpaqların bərpası üçün, əlbəttə, böyük məna daşıyır. Biz bir daha qardaş dəstəyini hiss edirik, bütün Azərbaycan xalqı bunu hiss edir. Onu da bildirməliyəm ki, azad edilmiş torpaqlarda qardaş ölkələrin təşəbbüsü və maliyyə dəstəyi ilə artıq bir məktəb və bir incəsənət mərkəzi fəaliyyətə başlamışdır. Bunlar Özbəkistan və Qazaxıstan tərəfindən inşa edilib. Bir məktəbin təməlini isə bu yaxınlarda Qırğızıstan Prezidenti ilə bərabər Ağdam rayonunda qoyduq. Cəbrayıl rayonundakı bir məntəqədə isə Macarıstanın maliyyə dəstəyi ilə bir məktəb inşa ediləcək. Yəni bütün bunlar bir daha birliyimizi göstərir. Bu fürsətdən istifadə edərək mən qardaş ölkələrə bir daha təşəkkürümü bildirmək istəyirəm.

Onu da qeyd etməliyəm ki, azad edilmiş ərazilərdə bu gün geniş yol-nəqliyyat infrastrukturu yaradılır və bu nəhəng layihələrin icrasında Türkiyədən olan şirkətlər fəal iştirak edirlər. İndi Şuşaya gedən hər bir insan yeni çəkilən avtomagistraldan keçərək öz gözü ilə görür ki, orada 7 tunel, 9 viaduk, bir çox körpülər inşa edilir və podratçıların əksəriyyəti Türkiyədən olan şirkətlərdir. Eyni zamanda dəmir yolunun bərpası prosesi də sürətlə gedir. Horadiz-Ağbənd dəmir yolunun podratçısı da Türkiyə şirkətləridir. Yəni biz azad edilmiş torpaqlarda türk dünyasının birliyini əyani şəkildə görürük. Təbii ki, bu, həm bizi sevindirir, həm də bütün türk dünyası ölkələrinin bir-birinə nə qədər bağlı olmasından xəbər verir.

Azad edilmiş torpaqlarda həyat bərpa olunur. Artıq 4 şəhər və 4 kənd bərpa edilib və keçmiş köçkünlər oraya qayıtmışlar. Yeddi mindən çox keçmiş köçkün artıq öz dədə-baba torpaqlarında yaşayır və bu ilin sonuna qədər bu rəqəm ən azı 20 minə çatacaq. Geniş quruculuq, abadlıq işləri aparılır və Qarabağ, Şərqi Zəngəzur dünyanın ən inkişaf etmiş bölgələrindən birinə çevriləcəkdir.

Mən bir daha qeyd etmək istəyirəm ki, TÜRKPA-nın bugünkü toplantısı böyük əhəmiyyət daşıyır. Əminəm ki, müzakirə ediləcək məsələlər bizim birliyimizi daha da gücləndirəcək. Eyni zamanda hər dəfə qardaş ölkələrdən yüksəkvəzifəli şəxslər ölkəmizə gələndə, bu, bizi sevindirir. Türk dünyası böyük bir ailədir, böyük potensiala malikdir, böyük coğrafiyanı əhatə edir. Nəqliyyat yolları, enerji resursları, insan kapitalı, artan əhali, demoqrafik vəziyyətin müsbət olması - bunlar, böyük bir güc potensialıdır. Bizim vəzifəmizdir ki, bu potensialı dünya miqyasında böyük bir gücə çevirək, əminəm ki, bu olacaq, biz bunu görürük. Hər bir toplantı, hər bir Zirvə görüşü bizim məqsədlərimizə doğru atılan növbəti addım olur.

Bir daha sizi salamlayıram, xoş gəlmisiniz. Sizə xoş səfər arzulayıram.

❖ ❖ ❖

Özbəkistan Ali Məclisi Senatının Sədri xanım **Tənzilə Narbayeva** çıxış edərək dedi:

- Əvvəlcə, bütün həmkarlarım adından və şəxsən öz adımdan dəvətə görə böyük minnətdarlığımı ifadə etmək istəyirəm. Bizi fəxri qonaq qismində dəvət ediblər, amma, hər halda, türk xalqlarının parlament hərəkatının fəal iştirakçısıyıq.

Cənab Prezident, Sizə öz Prezidentimizin, Sizin dostunuzun, qardaşınızın salamlarını və Qarabağın bərpası üzrə böyük quruculuq işlərinizdə, yaradıcı fəaliyyətinizdə ən xoş arzularını çatdırmaq istəyirəm. Sizin yaradıcı əməyiniz sayəsində bu gün Azərbaycanın dünya səviyyəsində nüfuzu artır. Sosial-iqtisadi potensial, beynəlxalq nüfuz artır. Demək istərdim ki, TÜRKPA-nın yaradılması ideyanız öz müsbət nəticələrini verir. Biz onun işində həmişə fəal iştirak edirik. Xüsusilə bu il Cenevrədə Parlamentlərarası İttifaqın 148-ci sessiyasında iştirak etdik və orada hörmətli Sahibə xanım Sizin göstərişinizlə TÜRKPA-nın xüsusi iclasını təşkil etdi. Bütün parlamentarilər oraya toplaşdı və biz məsələləri fəal şəkildə müzakirə etdik. Mən Özbəkistan parlamentariləri adından ideyanıza görə Sizə təşəkkür etmək istəyirəm.

Demək istəyirəm ki, parlament meyarının, parlamentin bu proseslərə təsirinin gücləndirilməsi ilə bağlı Sizin ideyalarınızı hər zaman dəstəkləyəcəyik, təbii ki, ikitərəfli formatda da. Biz ilk yol xəritəsini böyük uğurla həyata keçirdik. Bizim çox yaxşı münasibətlərimiz var, bu gün ikinci yol xəritəsini imzalayırıq və bütün səylərimiz, möhtərəm cənab Prezident, mənim Prezidentimlə birgə əldə etdiyiniz razılaşmaların həyata keçirilməsinə yönəldiləcəkdir.

Sizə bir daha təşəkkür etmək və böyük uğurlar arzulamaq istəyirəm. Siz böyük tarixi işlər görmüsünüz və uzaqgörənliyiniz, yüksək peşəkarlığınız və təşkilatçılıq bacarığınızla bütün dünyanı heyran qoymaqda davam edirsiniz. Çox sağ olun.



**Prezident İlham Əliyev:** Sağ olun. Əziz qardaşım Şavkat Miromonoviçə ən xoş arzularımı çatdırın, onunla tezliklə görüşməyə ümid edirəm. Bilirsiniz, ilin sonuna qədər bizim görüşlərimiz olacaq - həm mənim səfərim, həm də bilirəm ki, Şavkat Miromonoviç bu ilin noyabrında keçiriləcək iqlim konfransında iştirak etməyi planlaşdırır. Bizim hələ beynəlxalq platformalarda da əlaqələrimiz olacaq. Siz də yaxşı bilirsiniz ki, ölkələrimiz arasında qardaşlıq münasibətləri necə uğurla, deyərdim ki, inanılmaz sürətlə inkişaf edir. Yəqin 7-8 il əvvəl kimsə desəydi ki, biz belə bir əməkdaşlıq səviyyəsinə çatacağıq, buna inananlar az olardı. Bu, əlbəttə ki, böyük nailiyyətdir. Mən də hamını dəvət etmək istərdim - COP29 çərçivəsində burada Parlamentlərarası İttifaqın iclası keçiriləcək və biz qardaş ölkələrin bütün parlament rəhbərlərini dəvət edirik. Bu da mühüm hadisə olacaq. Ümumiyyətlə, iqlim konfransı çərçivəsində çoxlu tədbirlər keçiriləcək. Amma ən əlamətdarlarından biri Parlamentlərarası İttifaqın toplantısı olacaq. Beləliklə, ilin sonuna qədər hələ daha çox görüşəcəyik.

**Tənzilə Narbayeva:** Çox sağ olun. Buraya gəlişimiz həmişə xoşdur.

❖ ❖ ❖

Türkiyə Böyük Millət Məclisinin Sədri **Numan Kurtulmuş** çıxış edərək dedi:

- Çox hörmətli Əliyev cənabları, hörmətli Prezident.

Mən də Türkiyə Respublikası adından cənab Prezidentimizin və türk xalqının salamlarını, sevgilərini Sizə çatdırmaq istəyirəm.

İlk növbədə, həqiqətən də, Azərbaycan tarixinin fövqəladə önəmli dönüş nöqtələrindən biri olan Qarabağın işğaldan azad edilməsindəki Zəfəriniz münasibətilə Sizi bir daha təbrik edirik. Tarixi bir uğur əldə edilmişdir. Otuz il işğal altında qalan Qarabağ torpaqları azad edilmişdir.

İndi sevinirik, görürük ki, azad edilən Qarabağ torpaqları abadlaşdırılır, yenidən dirçəldilir. Köçkünlərin oraya qayıtmaları da olduqca sevindirici bir xəbərdir. Qarabağın ən qısa müddətdə qeyri-adi dərəcədə böyük bir cazibə mərkəzi olacağını bilirik, görürük. Allah işinizi avand eləsin. Türkiyə Cümhuriyyəti olaraq, türk xalqı olaraq bütün gücümüzlə hər zaman hər yerdə sizin yanınızda olduğumuzu bir daha ifadə etmək istəyirəm.

Təbii ki, Zati-alinizin də ifadə etdiyi kimi, qarşımızda, əslində, dünya tarixi baxımından yeni bir dövrün qapıları açılıb. Sovet İttifaqının dağılması ilə ikiqütblü dünya sistemi geridə qaldı. Amerikanın Əfqanıstandan çıxması ilə də Amerikanın birqütblü dünya sistemi geridə qaldı. İndi qarşımızda çoxqütblü bir dövrün başlanğıcı var. Orta Asiya dediyimiz Özbəkistandan, Qazaxıstandan başlayan, Qafqazdan Anadoluya, oradan da Avropaya - ta Macarıstana qədər uzanan coğrafiyada təxminən 300 milyon türk yaşayır. Bu, böyük bir potensialdır. Həm insan gücü baxımından, həm də yeraltı, yerüstü sərvətlər baxımından qeyri-adi böyük bir potensialdır. İnşallah, türk dövlətləri bunu öz aralarında ən doğru şəkildə istifadə edərək yeni dünyada böyük bir güc mərkəzinə çevriləcək. Türk dünyasının önəmli bir güc balansı olması dünyada sülhə əsla təhdid deyil, tam əksinə, dünyada sülhün təmin edilməsi üçün bir imkan, bir fürsətdir. Qarşıdakı dövr hər halda biz Türk Dövlətləri Təşkilatının üzv ölkələri və digər qardaşlarımızla birlikdə türk dünyasının böyük bir güc mərkəzi olması üçün bütün imkanlarımızı səfərbər edəcəyik, birliyimizi, bərabərliyimizi, qardaşlığımızı gücləndirəcəyik, ortaq layihələrlə "Qazan-qazan" prinsipi çərçivəsində dünyanın bu bölgəsində haqqın, ədalətin yenidən hakim olacağı bir strukturun formalaşması üçün səy göstərəcəyik. Bu çərçivədə son dərəcə ümidvar olduğumuz bir dövrün tam başlanğıcındayıq. Yetər ki, üzərimizə düşən vəzifələri yerinə yetirək və bundan sonrakı nəsillərə daha güclü bir türk dünyasını ötürə bilək.

Dediyiniz kimi, bizim ailəmiz türk dünyasıdır. Bu ailənin çox güclü kökləri olduğunu hər münasibətimizdə daha yaxından görür, müşahidə edirik. Bu əlaqələrimizin xalqlarımız tərəfindən də qəbul edildiyi və gücləndirildiyi fəaliyyəti həyata keçirməyimiz, Qaspıralının dediyi kimi, "dildə, fikirdə və işdə birliyi" təmin etməyimiz şərtdir. Bu istiqamətdə atılacaq addımlarda da Türkiyə olaraq bütün gücümüzlə bu işlərdə birlikdəyik.

Ev sahibliyinə görə bir daha təşəkkür edir, ehtiramımızı bildiririk.

❖ ❖ ❖

**Prezident İlham Əliyev** dedi:

- Çox təşəkkür edirəm. Xahiş edirəm ki, mənim səmimi salamlarımı, xoş arzularımı qardaşım, cənab Prezident Rəcəb Tayyib Ərdoğana çatdırasınız. Türkiyə hər zaman Azərbaycanın yanında olub və İkinci Qarabağ müharibəsi başlayarkən cənab Prezident Rəcəb Tayyib Ərdoğanın çox açıq və dəqiq sözləri, - "Türkiyə Azərbaycanın yanındadır", - bizə əlavə güc verdi. Bu siyasi və mənəvi dəstək bütün dünyaya göstərdi ki, Azərbaycan tək deyil və Türkiyə 44 gün ərzində bizim yanımızda oldu. Hər gün həm Prezident, həm digər vəzifəli şəxslər açıqlamalar verərkən imkan yaratdı ki, biz bu haqlı davamızı Zəfərlə başa vuraq. Çünki siz də yaxşı bilirsiniz ki, 44 gün ərzində Azərbaycana müxtəlif güc mərkəzlərindən çox böyük təzyiqlər olmuşdu. Hətta bəzi ölkələr bizi hədələyirdilər və belə bir çətin durumda Türkiyənin birmənalı dəstəyi, yenə də deyirəm, bizə əlavə güc verdi, inam verdi və bu dəstəyə görə biz minnətdarıq. Bütün Azərbaycan xalqı bunu bilir və qiymətləndirir.

Qeyd etdiyiniz kimi, - mən çox şadam ki, bu, artıq ümumi bir yanaşmadır, ümumi bir fikirdir, - türk dünyasının gücləndirilməsi, birləşməsi türk dünyasını, Türk Dövlətləri Təşkilatını dünya miqyasında böyük bir güc mərkəzinə çevirəcək. Çünki siz də qeyd etdiyiniz kimi, mövcud olan güc mərkəzləri böhran içindədir. Hərəsinin öz böhran çərçivələri var. Bizim isə əksinə, potensialımız gündən-günə çiçəklənir. Qeyd etdiyim kimi, böyük coğrafiyadır, xəritəyə baxsaq görərik ki, türk dünyasının ucu-bucağı yoxdur, böyük coğrafiyanı əhatə edir. Artan əhali, gənc əhali, təbii sərvətlər, nəqliyyat yolları, aramızdakı birlik. Bu birlik təbiidir, bu birliyin təməlində ortaq köklər var. Ona görə bu birlik bütün başqa birliklərdən daha qüvvətli, daha güclüdür. Yəni bizim birləşməyimiz etnik, mədəni köklər üzərindədir və biz təbii ki, praktiki addımlarla bu birliyi gücləndirməliyik.

Bu gün nəqliyyat, energetika, ticarət, mədəniyyət sahələrində və digər sahələrdə çox geniş əlaqələr var. Bu gün təhlükəsizliklə, hərbi, hərbi-texniki sahə və təhlükəsizliklə bağlı olan digər sahələr də mütləq diqqət mərkəzində olmalıdır. Çünki dünyanın müxtəlif yerlərində gedən proseslər göstərir ki, beynəlxalq hüquq normaları inkar edilir, işləmir. Biz bunu Azərbaycanın timsalında 28 il görmüşük. Minsk qrupu 28 il guya Qarabağ problemini həll etməyə çalışırdı. Əslində isə, bunu dondurmağa çalışırdı və BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi kağız parçasından başqa bir şey deyildi. Biz isə ona görə bu gün öz haqqımızı, ərazi bütövlüyümüzü döyüş meydanında, güc yolu ilə və beynəlxalq hüquq çərçivəsində həll etdik. Ancaq o da həqiqətdir, sənin gücün olmalıdır ki, öz haqqını müdafiə edə biləsən.

Ermənistan-Azərbaycan prosesi ilə bağlı onu deyə bilərəm ki, biz hesab edirik, bir neçə açıq olan məsələ hələ də qalmaqdadır. Onlardan biri Ermənistanın Konstitusiyasıdır ki, orada Azərbaycana qarşı ərazi iddiaları var. İkincisi, Ermənistanın Azərbaycana və Türkiyəyə qarşı əsassız ərazi iddialarına son qoyulmalıdır. Təbii ki, biz artıq bunu Ermənistan tərəfinə təklif etmişik ki, Azərbaycan və Ermənistan ATƏT-ə birgə müraciət etsin ki, Minsk qrupu ləğv edilsin. Minsk qrupuna heç bir ehtiyac yoxdur, o, indi fəaliyyət göstərmir. Biz onun fəaliyyət göstərməsinə de-fakto imkan verməyəcəyik. Qaldı ki de-yure - hüquqi cəhətdən bu, ləğv edilsin və bu, Ermənistanın nə qədər səmimi olmasından xəbər verəcək. Əgər Ermənistan Minsk qrupunun saxlanmasına üstünlük versə, deməli, onların bizə qarşı ərazi iddiaları davam edir.

Bildiyiniz kimi, bu yaxınlarda sərhədlərin müəyyən edilməsi istiqamətində önəmli hadisələr baş vermişdir. Azərbaycan 1990-cı və 1992-ci illərdə itirdiyi dörd kəndi - Qazax bölgəsində yerləşən dörd kəndi bir güllə atılmadan geri qaytardı. Bu, onu göstərir ki, məsələlər sülh yolu ilə həll oluna bilər. Əgər Ermənistan 2020-ci ildə bizim sözümüzə qulaq assaydı və sülh yolu ilə bizim torpaqlarımızı qaytarsaydı, İkinci Qarabağ müharibəsinə və antiterror əməliyyatına ehtiyac qalmazdı. Yəni o, onlar üçün dərs olmalıdır və mən görürəm ki, o dərsdən onlar, necə deyərlər, nəticə çıxarırlar. Çünki dörd kəndin sülh yolu ilə, danışıqlar yolu ilə bizə qaytarılması və o bölgədə sərhədlərin müəyyən edilməsi göstərir ki, biz məsələləri danışıqlar yolu ilə həll edə bilərik. Əlbəttə, növbəti mərhələdə, - əminəm ki, Şuşa Zirvə görüşü bu istiqamətdə önəmli addım olacaq, orada həm birliyimiz nümayiş etdiriləcək, həm də konkret məsələlər müzakirə olunacaq, - dövlət başçıları, parlament sədrləri, vətəndaş cəmiyyəti, cəmiyyətin bütün təbəqələri birgə səylərlə bir nöqtəyə vurmalıdırlar ki, türk dünyası güclənsin. Mən əminəm gün gələcək ki, dünyanın bütün məsələlərini Türk Dövlətləri Təşkilatı ilə məsləhətləşmə yolu ilə həll edəcəklər. Yəni biz ancaq xoş niyyət göstəririk və hörmətli Sədr Numan Kurtulmuşun dediyi kimi, bizim istəyimiz işbirliyidir, əməkdaşlıqdır, dostluqdur. Biz heç kimə qarşı heç bir hərəkət etmirik. Biz heç kim üçün təhdid mənbəyi deyilik və heç vaxt olmayacağıq. Öz haqqımızı tələb edirik, qoruyuruq, bir-birimizi dəstəkləyirik,

Bir-birimizi qoruyuruq. Baxın, Türkiyə və Azərbaycan 2021-ci ildə Şuşa Bəyannaməsini imzalamışlar və rəsmi müttəfiq olmuşlar. Yəni bu müttəfiqlik ən yüksək əməkdaşlıq formatıdır. Hər zaman bütün məsələlərdə bir-birimizin yanındayıq. Bir məsələ çıxan kimi, necə deyərlər, avtomatik rejimdə, gözüyumulu bir-birimizin yanındayıq. Bu birlik bütün türk dünyasında olmalıdır və ondan sonra heç kim bizim işimizə müdaxilə edə bilməz.

❖ ❖ ❖

Qazaxıstan Parlamenti Məclisinin Sədri **Yerlan Koşanov** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident, səmimi qəbula görə çox sağ olun. Mən də Sizə Prezidentimiz Kasım-Jomart Kemeleviç Tokayevin salamlarını və səmimi arzularını çatdırmaq, həmçinin Sizi bu yaxınlarda qeyd olunan Azərbaycanın Müstəqillik Günü münasibətilə təbrik etmək istərdim.

Həqiqətən, Azərbaycan müstəqillik illərində çox böyük uğurlar qazanıb. Biz buna sevinirik, bunu görürük və qazax qardaşlarınız olaraq buna həqiqətən də şadıq. Bu gün Azərbaycan gələcəyə inamla baxan dinamik dövlətə çevrilib. Bakı bunun bariz nümunəsidir. Biz buraya səfər etməyi sevirik, qazaxlar Bakıya gəlməyi xoşlayırlar. Bilirsiniz, bir çox soydaşımız buraya tez-tez gəlir, onlar təkcə dincəlmək üçün gəlmirlər, burada əsl dost və qardaşlarla görüşürlər. Buna görə də qazaxıstanlılar bura gəlməyi sevirlər, bunu mən də sevirəm, ailəm də buraya gəlir. Bu səbəbdən də bu gün Bakıya səfər etməyimə çox şadam. Bakı bu gün, həqiqətən də, Azərbaycanın qüdrətini, firavanlığını göstərir və təcəssüm etdirir.

Sizin düşünülmüş strategiyanızın əsas nailiyyəti ölkənizin ərazi bütövlüyünün tam bərpası olub. Bu gün bu barədə danışıldı, Prezidentimiz burada olanda da bu barədə danışdı. Biz də Qazaxıstanda bu hadisəyə ürəkdən sevinirik.

Bu gün həm Qazaxıstan, həm də Azərbaycan arasında qarşılıqlı əlaqələr, deyə bilərəm ki, nümunəvidir. Uğurumuzun açarı Sizinlə Prezidentimiz Kasım-Jomart Kemeleviç Tokayev arasında etimada əsaslanan dialoqdur. Siz artıq iki dəfə Qazaxıstanda olmusunuz, bu il Prezidentimiz dövlət səfərində olub. Nümayəndə heyətimiz çox xoş təəssüratla qayıtdı. Həqiqətən də, Azərbaycan-Qazaxıstan Ali Dövlətlərarası Şuranın iclasının keçirilməsi tarixi hadisə oldu. Bu, doğrudan da, böyük hadisə idi.

Sizi tezliklə Şanxay Əməkdaşlıq Təşkilatının toplantısında gözləyirik və Mərkəzi Asiya liderlərinin məşvərət görüşü də olacaq. Sizin həmkarlarınız da orada olacaq. Prezidentimiz Türk Dövlətləri Təşkilatının iclasında, eləcə də bu gün müzakirə edilən COP29 sammitində iştirak etməyi planlaşdırır. Qazaxıstan və Azərbaycan parlamentləri də bütün həmkarlarımızla olduğu kimi çox sıx əməkdaşlıq edirlər. Sahibə Əli qızı ilə həmişə əlaqə saxlayırıq və bütün dövlətlərarası çoxtərəfli görüşlərdə, tədbirlərdə, demək olar ki, eyni mövqedən çıxış edirik. Həqiqətən də, Sahibə Əli qızı ilə çox sıx əməkdaşlıq edirik.

Bu il Azərbaycan TÜRKPA-ya sədrlik edir. Sizə uğurlar, nailiyyətlər, səmərəli sədrlik və qarşıya qoyduğunuz məqsədlərə çatmağınızı arzulayıram.

Ölkələrimiz də ardıcıl, sülhsevər siyasət yürüdürlər. Bu yaxınlarda Almatıda Azərbaycanla Ermənistan arasında birbaşa danışıqlar aparılıb. Qazaxıstan belə bir platforma təqdim etməkdən məmnun idi. Biz gələcəkdə bütün bu məsələlərdə əlavə yardım göstərməyə hazırıq. Biz də sizin kimi regionda sülhün və sabitliyin bərqərar olmasında maraqlıyıq.

Bir daha Sizə minnətdarlığımı bildirmək və qardaş Azərbaycanın möhkəmlənməsinə və tərəqqisinə yönəlmiş yüksək missiyanızda uğurlar arzulamaq istərdim. Çox sağ olun.

❖ ❖ ❖

**Prezident İlham Əliyev** dedi:

- Sağ olun. Hörmətli Kasım-Jomart Tokayevə mənim ən xoş arzularımı çatdırın.

Sizin də qeyd etdiyiniz kimi, onun Azərbaycana dövlət səfəri çox uğurla, yaxşı nəticələrlə keçdi. Biz həmçinin, bildiyiniz kimi, səfər çərçivəsində Füzulidə Kurmanqazı adına Uşaq Yaradıcılıq Mərkəzini açdıq. Bu, artıq qardaş ölkələrin Füzuli şəhərinə ikinci hədiyyəsidir. Birincisi - ötən ilin avqustunda biz Şavkat Miromonoviçlə Uluqbəy adına məktəbin açılışını etmişdik. Ona görə də indi Füzulidə uşaqlar Uluqbəy adına məktəbə, dərsdən sonra isə Kurmanqazı adına Yaradıcılıq Mərkəzinə gedirlər. Bilirsiniz, bunlar məhz bizim danışdıqlarımız və istədiklərimizdir: qoy xalqlarımız daim bir-birinin dəstəyini hiss etsinlər. Heç də az olmayan vəsaitə başa gələn bu iki çox böyük təhsil ocağı qardaşlarımızın hədiyyəsidir, həmişəlik orada qalacaq. Kim orada təhsil alacaqsa, orada yaradıcılıq hazırlığı keçəcəksə, qardaş ölkələrlə bu əlaqələr onları əbədi olaraq bağlayacaq. Bax bu, bizim birlikdə qoyduğumuz mirasdır.

Əlbəttə, mən Qazaxıstan Prezidenti ilə yeni görüşləri səbirsizliklə gözləyirəm. Qeyd etdiyiniz kimi, bu il Qazaxıstanda iki tədbir var, mən də onlara dəvət almışam. Çox minnətdaram. Kasım-Jomart Kemeleviçin iştirak edəcəyi iki tədbir də var - Şuşada və Bakıda. Ancaq bununla yanaşı, başqa platformalarda da əlaqələrimiz olacaq. Biz razılaşdıq ki, mütəmadi səfərlər edək. Əlbəttə ki, dövlət səfəri xüsusi statusdur, amma həm də işgüzar səfərlər çərçivəsində əlaqələri daim davam etdirməliyik.

Mən həmçinin Qazaxıstan tərəfinin Azərbaycan ilə Ermənistan arasında danışıqlara imkan yaratmaq təşəbbüsünə görə minnətdarlığımı bildirirəm. Biz bunu dərhal böyük minnətdarlıqla qarşıladıq. Bildiyiniz kimi, danışıqlar prosesi müəyyən nəticələrlə davam edir. Demək olmaz ki, biz bütün məsələlərdə razılığa gəldik. Amma yəqin ki, belə qısa müddətdə bunu gözləmək çətin olardı. Çünki 28 ildir ki, ATƏT-in Minsk qrupu bir santimetr belə irəli getməyib, 28 il ərzində bir məsələ də razılaşdırılmayıb.

*Ardı 3-cü səh.*

# Şuşada Türk Dövlətləri Təşkilatının Zirvə görüşü keçiriləcək

## Prezident İlham Əliyev TÜRKPA-nın nümayəndə heyətini qəbul edib

*Əvvəli 2-ci səh.*

Ona görə də indi, il yarımdan sonra bütün məsələlərin razılaşdırılacağını gözləmək, təbii ki, bir qədər sadəlövhlük olardı. Ancaq vacibdir ki, proses olsun, onun dinamikası olsun və bir çox məsələlər razılaşdırılsın. Amma yenə də deməliyəm ki, bizim mövqeyimiz beynəlxalq hüquq normalarına əsaslanır. Bizim heç vaxt heç bir ölkəyə, o cümlədən Ermənistana qarşı ərazi iddiamız olmayıb və yoxdur. Onların bizə qarşı ərazi iddiaları var idi. Məhz onların konstitusiyasına sonradan daxil olan müstəqillik bəyannaməsində Azərbaycana qarşı ərazi iddiaları var. Məhz onların ideologiyasında, siyasətində və ictimai diskursunda Türkiyəyə qarşı ərazi iddiaları davamlı olaraq eşidilir. Azərbaycanlılar və türklər məhz onların cəmiyyətində kiçik yaşlarından düşmən obrazında təqdim edilirlər. Millətçilər və hərbi cinayətkarlar tərəfindən zəhərlənən onların cəmiyyətidir. Ona görə də onlar bu məsələlərlə məşğul olmalıdırlar. Təbii ki, Ermənistanın hazırkı konstitusiyası dəyişməz qaldığı halda Ermənistanla Azərbaycan arasında sülh sazişinin bağlanması, sadəcə, mümkün deyil. Biz bu sualı qaldıranda mən dedim və yenə də demək istəyirəm, ona görə yox ki, biz onların daxili işlərinə qarışırıq, qətiyyən yox, amma bu, bizə aiddir. Onların bizə qarşı ərazi iddiaları olduğu bir vaxtda biz Ermənistanla sülh sazişi bağlaya bilmərik. Həm də, bilirsiniz, daha sonra deməliyəm ki, sırf praktiki baxımdan, hətta xəritəyə baxın, Ermənistan orada hansı yeri tutur, Türkiyə hansı yeri tutur. Sadəcə olaraq, iki ölkənin hərbi potensialını, demoqrafik potensialını, iqtisadi potensialını müqayisə edib sonra Türkiyəyə qarşı ərazi iddiası irəli sürmək intihar etmək deməkdir. Yaxud 2020-ci və 2023-cü illərin hadisələrindən sonra Azərbaycana qarşı ərazi iddiaları irəli sürmək də, ümumiyyətlə, intihara yaxındır. Ona görə də onlar öz ideologiyalarını, cəmiyyətdəki əhvali-ruhiyyəni dəyişməlidirlər. Bu, zaman tələb edir. Onlar revanşizm ideyalarından tamamilə imtina etməlidirlər və biz görürük ki, belə ideyalar təkcə müxalifətdə deyil, iqtidarda da var. Bütün bu məsələlər, təbii ki, aydınlaşdırılmalı və tənzimlənməlidir. Ancaq yenə də demək istəyirəm ki, biz sülh sazişinin bütün bəndlərinin BMT Nizamnaməsinə və beynəlxalq hüquqa uyğun olaraq razılaşdırılması istiqamətində konstruktiv işə sadiqik.

Bu prosesi dəstəklədiyinə və belə görüşlərin keçirilməsinə gözəl şərait yaratdığına görə Qazaxıstan tərəfinə bir daha təşəkkürümü bildirirəm.

**Yerlan Koşayev:** Dövlət başçısına çatdıracağam.

**Prezident İlham Əliyev:** Zəhmət olmasa, çatdırın.

**Yerlan Koşayev:** Çox sağ olun.

❖ ❖ ❖

Macarıstan Milli Assambleyası Sədrinin müavini xanım **Marta Matrai** çıxış edərək dedi:

- Hörmətli cənab Prezident.

Mən də Sizi salamlamaq istərdim. Sizə parlamentin spikeri Laslo Köverin salamlarını çatdırmaq istərdim. Təəssüflər olsun ki, o, gələ bilmədi. Çünki Macarıstanda Avropa Parlamentinə seçkilər keçirilir və əhalinin 98 faizi sülhün tərəfdarıdır. Ona görə də parlamentin spikeri, təəssüflər olsun ki, gələ bilmədi, bu görüşdə iştirak edə bilmədi. Eyni zamanda bizim Baş nazirimiz cənab Viktor Orbanın salamlarını çatdırıram. O da Şuşa şəhərindəki Zirvə görüşündə iştirak edəcək.

Mən onu qeyd edim ki, biz TÜRKPA ölkələri ilə qardaşlıq əlaqələri qururuq. Bizim köklərimiz, soyumuz birdir. Bundan sonra da biz bütün səyləri göstərəcəyik ki, bu təşkilatın üzvü olan dövlətlərlə qardaşlıq əlaqələrimizi təmin edək, onu möhkəmləndirək.

Biz eyni zamanda gələcək nəsillər üçün mirasın yaradılmasında iştirak edirik. Biz həmçinin Qarabağda da bərpa işlərində iştirak edirik. Azərbaycan Macarıstan üçün strateji tərəfdaşdır. 2023-cü ildə Siz Macarıstanda səfərdə oldunuz və o zaman strateji tərəfdaşlıq haqqında da sənəd imzalandı. Bu da o deməkdir ki, biz Azərbaycan ilə Macarıstan arasında təkcə iqtisadiyyat sahəsində deyil, mədəniyyət və humanitar sahələrdə də ən yüksək səviyyədə əməkdaşlıq qura bilmişik. Bizim müxtəlif layihələrimiz ən yüksək səviyyəyə qaldırılır. Biz müxtəlif istiqamətlərdə - sənaye, energetika, informasiya texnologiyaları sahələrində təcrübə mübadiləsi aparırıq. Biz çox sevinirik ki, gənclərimiz də təmaslara can atırlar. Mən çox şadam ki, Sizin də tələbələriniz Macarıstana gəlir. İki yüzə yaxın azərbaycanlı tələbə hər il Macarıstanda təhsil alır. Bizim üçün çox sevindiricidir ki, Azərbaycandan olan tələbələr orada təhsil alırlar.

Gələn aydan etibarən Macarıstan altı ay ərzində Avropa İttifaqında sədrlik edəcəkdir. Ona görə də türk dövlətləri ilə əlaqələrimizi qurmaqda, gücləndirməkdə davam etmək bizim üçün çox vacibdir. Biz bu əlaqələrə xüsusi olaraq diqqət yetirəcəyik. Biz Azərbaycanı ərazi bütövlüyünü və suverenliyini tam şəkildə bərpa etməsi ilə bağlı təbrik edirik və Sizi əmin edirəm ki, bundan sonra da bizim dəstəyimizə arxalana bilərsiniz. Ölkələrimiz arasında birbaşa uçuşlar var. Bu uçuşlar "Wizz Air" şirkəti tərəfindən həyata keçirilir. Ümidvarıq ki, gələcəkdə də belə müxtəlif fürsətlərdən istifadə edəcəyik.

Cənab Prezident, Sizə işlərinizdə uğurlar arzulayıram. Ümid edirəm ki, biz tezliklə yenə də görüşəcəyik. Müşahidəçi qismində biz burada olmağımızdan çox böyük məmnunluq duyuruq.

❖ ❖ ❖

**Prezident İlham Əliyev** dedi:

- Çox təşəkkür edirəm. Xahiş edirəm ki, mənim səmimi salamlarımı həm Baş nazirə, həm parlament Sədrinə çatdırasınız. Macarıstanın Türk Dövlətləri Təşkilatına müşahidəçi olması bizi çox sevindirdi. Bu gün Macarıstan bu təşkilatda çox fəaldır. Bilirəm ki, Macarıstanın həm Azərbaycanla, həm də digər türk dövlətləri ilə çox genişmiqyaslı əməkdaşlığı var. Bir çox investisiya layihələri icra edilir, ticarət dövriyyəsi artır, yəni biz Macarıstanın bu istiqamətdəki fəaliyyətini yüksək qiymətləndiririk.

Dediyiniz kimi, Azərbaycan ilə Macarıstan strateji tərəfdaşlardır, müvafiq sənədlər də imzalanıb. Eyni zamanda biz bir çox sahələrdə fəal işləyirik. Macarıstan bizim Avropa İttifaqındakı bir nömrəli tərəfdaşımızdır və bəzi hallarda Azərbaycana qarşı əsassız ittihamlar irəli sürüləndə birinci bizim müdafiəmizə Macarıstan qalxır. Bilirəm ki, buna görə Macarıstan da bəzi Avropa ölkələri tərəfindən təzyiqlərlə üzləşir. Ancaq Macarıstanın prinsipial mövqeyi, haqqın, ədalətin yanında olması, beynəlxalq hüquqa hörmətlə yanaşması onun beynəlxalq nüfuzunu böyük dərəcədə artırır.

Düzdür, bizim Avropa İttifaqı ilə münasibətlərimiz müsbət xarakterizə oluna bilər. Ancaq İkinci Qarabağ müharibəsindən və xüsusilə keçən ilin antiterror əməliyyatından sonra bəzi Avropa ölkələri bizə qarşı əsassız və vicdansız hücumlara başlayıb. Azərbaycanı ləkələmək, bizim işimizə kölgə salmaq, ağa qara, qaraya ağ demək, işğalçını dəstəkləmək, işğala məruz qalanları isə ləkələmək Avropa İttifaqının bəzi üzv ölkələri üçün həyat tərzinə çevrilib. Bunun təməlində heç də beynəlxalq hüququn normaları deyil, şəxsi xəstə ambisiyalar dayanır. Əfsuslar olsun ki, Avropada xüsusi yerə malik olmaq üçün can atan bəzi ölkələr anti-Azərbaycan qruplaşmanı da yarada bilmişlər. Avropa İttifaqına üzv olan ən azı üç ölkə bu gün Azərbaycana qarşı soyuq müharibə elan edib. Onların adları bəllidir. Macarıstan burada təkcə öz dostunu müdafiə etmir, haqqı, ədaləti müdafiə edir. Mən Avropadan gələn qonaqlara dəfələrlə demişəm ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edib, o ərazi bütövlüyünü ki, siz də onu tanımısınız, bütün dünya da tanıyıb. O ərazi bütövlüyünü ki, BMT Təhlükəsizlik Şurası işğala son qoyulması üçün 4 qətnamə qəbul edib. Ancaq BMT bir şey edə bilmədi, Avropa İttifaqı bir şey etmək istəmədi, ATƏT və onun Minsk qrupu faktiki olaraq işğalçı Ermənistanın əlində bir anti-Azərbaycan alətinə çevrilmişdi. Biz 28 il gözlədik. Biz sülh yolu ilə bunu həll etmək istədik. Amma biz gördük ki, bizə qarşı çıxanlar bu işğalı əbədi etmək istəyirlər. Onlar Ermənistandan Cənubi Qafqazda bir alət kimi istifadə etmək istəyirdilər ki, Ermənistan bütün qonşularına qarşı hücumlara keçsin. Biz haqqı bərpa etdik, öz ərazi bütövlüyümüzü müdafiə etdik, suverenliyimizi bərpa etdik. Yəni Macarıstan buna görə bizi müdafiə edir. Azərbaycan olmasın, istənilən başqa ölkə olsun, əgər o, haqq yolundadırsa, əminəm ki, bugünkü Macarıstan Hökuməti onun yanında olacaq.



Bilirəm ki, Avropa İttifaqında siz böyük təzyiqlərə məruz qalırsınız. Bu da Avropa məkanındakı elan edilmiş demokratik prinsiplərin tamamilə pozulmasıdır. Macarıstana qarşı sanksiyalar tətbiq edildi? Edildi. Macarıstana çatacaq vəsaitdən Macarıstan məhrum edildi? Edildi. Nə üçün? Çünki Macarıstan ənənəvi dəyərləri müdafiə edir. Öz əhalisini müdafiə edir. Zərərli təsirdən öz gənclərini qoruyur. Ailə dəyərlərini ən yüksək dəyər kimi bəyan edir. Buna görə bu ənənəvi dəyərlərə qarşı olanlar və dünyanı uçuruma aparanlar Macarıstana qarşı sanksiyalar tətbiq edirlər. Bu, ağlasığmaz bir məsələdir. NATO-nun üzvü olasan, Avropa İttifaqının üzvü olasan, Avropanın mərkəzində yerləşəsən, öz siyasətini aparmaq istəyən bir ölkəyə sanksiya tətbiq edilir. Bəs, demokratiya haradadır? Hamı eyni fikirdəmi olmalıdır? Hamı orada bəzi Qərb ölkələrində oturanların sözü iləmi oturub-durmalıdır? Kim onlara bu haqqı qazandırır? Onların keçmişi heç də onlara şərəf gətirmir. Onların keçmişi qanla doludur. Onların keçmişi müstəmləkəçilikdir. Onların keçmişi xalqlara əzab verməkdir, qanunsuz işğaldır. Bu gün də müstəmləkəçilik siyasəti Avropa İttifaqında davam edir. Amma kimsə onlara irad tutur? Yox. Ona görə Macarıstan mübarizənin ön cəbhəsindədir və mən dəfələrlə dostum Viktor Orbana demişəm ki, sizə daha çətindir. Biz burada yerləşmişik, biz Avropa deyilik, necə deyərlər, Avropa ailəsinə girmək də istəmirik, istəsəydik də heç kim bizi oraya buraxmazdı. Ona görə biz burada yaşayırıq, heç kimin, necə deyərlər, sözü ilə oturub-durmuruq, heç kimə imkan vermirik ki, gəlsin buraya bizim işimizə müdaxilə etsin. Mənə dəymə, mən də sənə dəymərəm. Sən mənə dəyəcəksənsə, onda gözlə, sənin də başın ağrıyacaq. Amma Macarıstan orada yerləşir və hər gün təzyiqlərə məruz qalmaq nə qədər çətindir, bunu mən bilirəm. İndi Macarıstan Avropa İttifaqına sədrlik edəcək. İndidən artıq Macarıstana qarşı plan cızılır ki, bu sədrlik, necə deyərlər, sarsılsın və bu sədrlikdən Macarıstan necə məhrum edilsin.

Biz bütün bunları görürük, bilirik və sizin hökumətinizə, ölkənizə bilin ki, nəinki türk dünyasında, dünyada hörmət daha da artır. Sizə iradə, - o da var, qüvvət, - o da var, yaxşı dostlar, - o da var, - arzulayıram ki, siz necə varsınız, həmişə elə də qalasınız.

❖ ❖ ❖

**Marta Matrai:** Çox sağ olun, cənab Prezident. İcazənizlə, sonda bir məqamı diqqətə çatdırım. Siz çox gözəl qeyd etdiniz ki, Macarıstan çətin vəziyyətdədir. Ancaq Allah bizim tərəfimizdədir. Biz sona qədər mübarizə aparacağıq. Bizim Viktor Orbanımız və hökumətimiz əlindən gələni son məqama qədər müdafiə edəcək. Sizin dostluğunuza ümid edirik.

❖ ❖ ❖

Şimali Kipr Türk Cümhuriyyəti Məclisinin Sədri **Zorlu Töre** çıxış edərək dedi:

- Hörmətli cənab Prezidentim İlham Əliyev.

İlk növbədə Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti cənab Ersin Tatardan və Kipr türk xalqından Sizə və digər Türk Dövlətləri Təşkilatında yer alan TÜRKPA üzvlərinə sevgilərimizi və salamlarımızı çatdırırıq.

Təbii ki, Kipr türk xalqı da türk millətinin bir hissəsidir. Biz hamımız türkük və türk millətiyik. Birik, bərabərik və hamımız qardaşıq. Ayrımızqeyrimiz yoxdur, kədərdə, sevincdə, qayğıda bir və bərabər olmalıyıq.

Təbii ki, Türkiyə bizimlə kədərdə, sevincdə, qayğıda bir və bərabər olmasaydı, 20 iyulda, yəni 50 il əvvəl Mutlu Sülh Hərəkatı reallaşmazdı və bu gün Kiprdə bir türk dövləti qurulmazdı.

Mən Kiprin Larnaka şəhərində doğulmuşam və yunanlar Larnakada bir abidə inşa etdilər, bu, erməni abidəsidir. Onlar bu erməni abidəsini qəbul edirlər, soyqırımı olaraq qəbul edirlər və soyqırımını inkar edənləri suçlu elan edirlər və həbs edilmələri üçün qanun qəbul etdilər.

Təbii ki, 20 iyul Mutlu Sülh Hərəkatı həyata keçiriləndə, daha sonra Şimali Kipr Türk Cümhuriyyətinin müstəqilliyini elan etdikdə Türkiyəmiz çox təzyiqlərə məruz qaldı. Amma Türkiyə həmişə Şimali Kipr türk xalqının yanında yer aldı. Ruhdan düşmədik, davam edirik, azadlığımız davam edir.

İndi Şimali Kipr Türk Cümhuriyyəti Türk Dövlətləri Təşkilatına müşahidəçi üzv oldu. Ümid edirəm, Şimali Kipr Türk Cümhuriyyəti ən yaxın zamanda əsl üzvlüyə də keçər. Çünki biz əsl üzvlüyə keçsək, bəlkə o zaman Avropa İttifaqı, Birləşmiş Millətlər Təşkilatı, Amerika təzyiqdən vaz keçər və artıq Şimali Kipr Türk Cümhuriyyəti davamlı hala gələr. Belə olduqca onlar təzyiq göstərməkdə davam edirlər və Kiprdə bir federasiya formalaşmasını, birləşmiş Kipr olmasını, amma unitar bir Kipr olmasını istəyirlər ki, özləri hegemon ola bilsinlər, Kipr adasının hamısına nəzarət edə bilsinlər.

Bizə embarqolar tətbiq edirlər. Yəni bu gün iqtisadiyyatda embarqo var, idman sahəsində embarqo var. Bizim gənclərimiz idman edə bilmirlər. UEFA-nın, FIFA-nın təzyiqi altındayıq və Türkiyə burada gəlib futbol matçı da keçirə bilmir, məşq də edə bilmir. Bu utanc, əslində, beynəlxalq təşkilatlara, UEFA-ya, FIFA-ya aiddir. Beləliklə, ümid edirəm, inşallah, Türk Dövlətləri Təşkilatı arasında idman fəaliyyətləri olar və Şimali Kipr Türk Cümhuriyyəti də buna qatılar.

Mədəni sahədə əməkdaşlığımız artıq indi başlayıb. Amma bunu genişləndirmək, böyütmək lazımdır. İqtisadiyyat, enerji, təhsil sahələrində türk dövlətləri ilə birlikdə daha dərin əlaqələr içərisində olarıq və Şimali Kipr Türk Cümhuriyyəti də dayanıqlı şəkildə, sağ-salamat yoluna davam edər.

Təbii ki, biz Azərbaycana xüsusilə təşəkkür edirik. Çünki Şimali Kipr Türk Cümhuriyyəti parlamenti ilə dostluq qrupu yaradıldı. Bu dostluq qrupu bizə - Şimali Kipr Türk Cümhuriyyətinə səfər etdi, Türkiyə Cümhuriyyəti dostluq qrupu ilə birlikdə səfər etdilər.

Düşünürəm ki, bizim irəliyə yolumuz açıqdır. Qarabağda şəhidlər verdik, amma nəticədə oranı yenidən Vətən etdik. Sevincimiz çox böyükdür, xoşbəxtliyimiz çox yüksəkdir. İnşallah, gələcəyimiz daim birlikdə parlaq olacaqdır.

Türk Dövlətləri Təşkilatı birlik yaratdığı zaman bunu niyə pozmaq istəyirlər? Biz bu oyuna aldanmamalıyıq. Bizim aramıza təfriqə, ayrılıqqeyrilik salmasınlar. Bir olaq, iri olaq, diri olaq və güclü olaq. Düşmənlərimiz bizdən çəkinsinlər. Nüfuzlu olaq. Biz güclü olsaq, bir olsaq, nüfuzlu olarıq və bizə hücum edə bilməzlər, təzyiq göstərə bilməzlər, təzyiqdən vaz keçərlər. Hamınıza çox dərin sevgilərimi, ehtiramımı bildirirəm. Bu günləri gördüyümüz üçün Allaha şükür edirəm. Sağ olun, var olun.

❖ ❖ ❖

**Prezident İlham Əliyev** dedi:

- Sağ olun, təşəkkür edirəm. Mənim salamlarımı hörmətli Ersin Tatara çatdırın, lütfən. Onunla mən dəfələrlə görüşmüşəm, o cümlədən Bakıda. Siz bilirsiniz ki, burada Şimali Kipr Türk Cümhuriyyətinin mədəniyyət günləri keçirilmişdir və hörmətli Ersin Tatar gəlmişdi və görüşmüşdük. Onu mən Zirvə görüşünə də dəvət etdim və gələn ay bizim qonağımız olacaq. Bilirsiniz ki, Şimali Kipr Türk Cümhuriyyətinin Türk Dövlətləri Təşkilatında müşahidəçi olması ilə əlaqədar Azərbaycan çox fəal çalışırdı, fəal diplomatik səylər göstərmişdir və çox şadam ki, artıq birinci addım atıldı. O ki qaldı Şimali Kipr Türk Cümhuriyyətinin tamhüquqlu üzvə çevrilməsinə, Azərbaycan olaraq biz bunu dəstəkləyirik. Bu, təbii olar. Şimali Kipr Türk Cümhuriyyəti tarix nöqteyi-nəzərindən türk dünyasının bir parçasıdır. Orada yaşayan türklər bizim qardaşlarımızdır. Azərbaycanın bu sahədəki siyasəti hər zaman birmənalı olub. Əminəm ki, Şuşadakı Zirvə görüşünə Ersin bəylə bərabər böyük heyət gələcək və orada müzakirə ediləcək məsələlər birliyimizi daha da gücləndirəcək.

Bilirsiniz, bugünkü Türk Dövlətləri Təşkilatının tarixçəsinə baxsaq görərik ki, bu, böyük yol keçmiş bir təşkilatdır. Sovet İttifaqı dağılanda Türkiyənin təşəbbüsü ilə belə bir əməkdaşlıq, işbirliyi çərçivəsi yaradıldı. Mən 20 ildir ki, ölkə Prezidenti kimi bu prosesdə fəal iştirak edirəm. Bu 20 il ərzində mən bizim təşkilatımızın müxtəlif mərhələlərini nəinki görmüşəm, bunu yaşamışam. Müxtəlif dövrlər var idi. Vaxt var idi ki, Zirvə görüşləri bir neçə il keçirilmirdi. Vaxt var idi müxtəlif səbəblərə görə ölkələrin bəziləri bu quruma o qədər də böyük maraq göstərmirdi. Ancaq mən bildirməliyəm, bunu indi hər kəs bilir, Azərbaycan olaraq bütün bu 20 il və ondan əvvəl rəhmətlik atamın dövründə Azərbaycan bu qurumun möhkəmləndirilməsi, birləşməsi və təşkilata çevrilməsi işində çox fəal idi. Təsadüfi deyil ki, bugünkü Türk Dövlətləri Təşkilatının təşkilata çevrilməsi prosesi də Naxçıvanda başladı. Mənim təşəbbüsümlə Zirvə görüşünün qədim türk dünyası olan Naxçıvanda keçirilməsi böyük məna daşıyırdı. Orada əldə edilmiş qərarlar əsasında biz inkişaf edirik və ondan sonra bu şuranın təşkilata çevrilməsi müəyyən zaman tələb etmişdir. Amma bu gün Allaha şükürlər olsun ki, bu təşkilat var.

Bu təşkilatın gələcək fəaliyyəti üçün birinci təşəbbüsü yenə də Azərbaycan göstərdi. Biz bu yaxınlarda bəyan etmişdik ki, Türk Dövlətləri Təşkilatının fəaliyyətini gücləndirmək üçün mövcud büdcə yetərli deyil və Azərbaycan birtərəfli qaydada 2 milyon Amerika dolları əlavə töhfə, yəni ianə verib. Zirvə görüşünə, yəni gələn aya qədər bu vəsait Türk Dövlətləri Təşkilatının hesabına oturacaq. Bu, nəyi göstərir? Çünki biz bu təşkilatı gücləndirməliyik. Zirvə görüşləri, təbii ki, ən yüksək səviyyəli tədbirdir, TÜRKPA önəmli tədbirdir. Bizim TÜRKSOY-umuz var. Bizim Türk Mədəniyyəti və İrsi Fondumuz var, digər təsisatlar var, akademiyamız var, ona görə təşkilat daha da böyüməlidir. Həm orada hər ölkədən daha çox insan çalışmalıdır, həm də bu təşkilatın beynəlxalq əlaqələri gücləndirilməlidir. Biz bütün beynəlxalq tədbirlərdə iştirak etməliyik. Yəni bizim yolumuz budur. Əminəm ki, gün gələcək Şimali Kipr Türk Cümhuriyyəti də təşkilatın tamhüquqlu üzvünə çevriləcək. Yenə də deyirəm, Azərbaycan bu gün buna ikiəlli səs verir və bu, birliyimizin nə qədər səmimi olmasını bir daha göstərəcək.

Bir çox ittifaqlar var, birliklər var. Bu, doğrudan da, belədir. Onların tarixi bizimkindən daha böyükdür. Biz indi yeni addımlar atmağa başlamışıq. Ancaq bəlkə də tarixdə bu qədər sürətlə inkişaf edən ikinci bir təşkilat olmayıb. Ona görə bu gün biz birinci mərhələdəyik. Amma bütün səylərimiz, bu gün danışdığımız mövzular - bütün bunlar cəmiyyətlərə ciddi bir mesaj olacaq. Bax, bizim yolumuz budur və müstəqil ölkələr kimi rahat yaşamaq üçün birlik daha güclü olmalıdır. Sizi də salamlayıram, lütfən, Ersin bəyə də səmimi salamlarımı çatdırın.

❖ ❖ ❖

Qırğızıstan Joqorku Keneşinin Sədri **Nurlanbek Şakiyev** çıxış edərək dedi:

- Sağ olun, cənab Prezident. Qırğızısan parlamentinin nümayəndə heyəti artıq üç gündür ki, Bakıdadır. Səmimi qəbula və qonaqpərvərliyə görə hörmətli azərbaycanlı həmkarlarımıza dərin minnətdarlığımızı bildiririk.

Sahibə xanımla bizim parlamentlərarası əməkdaşlıq məsələlərinə dair çox geniş söhbətimiz oldu.

Dünən Qarabağda, Şuşa şəhərində olduq. Çox şad idik, bura çox gözəl, dünyanın ən gözəl torpaqlarıdır.

Bütün həmkarlarıma deyirəm ki, mütləq Şuşa şəhərində olun və hər şeyi öz gözlərinizlə görün. Bizdə belə bir atalar sözü var, "Min dəfə eşitməkdənsə, bir dəfə görmək yaxşıdır".

Sizin qəhrəmanlığınızı yüksək qiymətləndirir və onunla fəxr edir, eyni zamanda dəstəkləyirik.

Bu torpaq Ulu Tanrının köməyi ilə 30 il ərzində bütün Azərbaycan xalqının və rəhbərlərinin böyük dözümlülük nümayiş etdirməsindən sonra həqiqi, əsl sahiblərinə və qanunla ona məxsus olanlara qayıtdı.

Bu gün biz Azərbaycanda TÜRKPA-nın toplantısında iştirak etməyimizə görə çox şadıq və bu, Sizin böyük xidmətləriniz, töhfənizdir.

Təşkilatın fəaliyyətinin nəticələrinə əsasən, biz Sizin gördüyünüz böyük işlərin şahidi olur və onları yüksək qiymətləndiririk.

Hörmətli Prezidentimiz Sadır Japarov Sizə salamlarını göndərib, iki ay əvvəl onun çox səmərəli dövlət səfəri baş tutub.

O, burada imzalanmış sənədlərdən, Sizinlə əldə olunan razılaşmalardan danışdı, biz bu məlumatları məmnuniyyətlə qəbul etdik.

Bu gün Qırğızıstan-Azərbaycan əlaqələri çox yüksək səviyyədədir. Biz münasibətlərimizin inkişafı üçün qarşılıqlı səy göstərməliyik və inanıram ki, gələcəkdə əlaqələrimiz daha da yüksək və yaxın olacaq.

❖ ❖ ❖

**Prezident İlham Əliyev:** Mənim də salamlarımı hörmətli Sadır Nurqojoyeviçə çatdırın. Qeyd etdiyiniz kimi, Azərbaycanda dövlət səfərində idi və onunla bərabər Füzuli və Ağdam şəhərlərinə getmişdik. Bir aydan sonra yenə də bizim qonağımız olacaq, o da Şuşanı görəcək. Bilirəm ki, siz dünən Şuşada idiniz və qeyd etdiyiniz kimi, o görüntülər sizdə çox gözəl təəssürat yaradıb. Şuşa, doğrudan da, gözəl şəhərdir və indi də dirçəlir. İşğal dövründə - 28 il ərzində Şuşada bir daş daş üstə qoyulmadı. Orada gördüyünüz bütün o köhnə binalar sovet vaxtında inşa edilən binalardır və yeni binalar isə son üç ilin əsərləridir.

Qırğızıstanla bizim əlaqələrimiz qardaşlıq əsasındadır. Mənim Qırğızıstana dövlət səfərim çərçivəsində çox önəmli qərarlar qəbul edildi. Biz indi çox genişmiqyaslı əməkdaşlıq edirik. Bilirsiniz ki, Azərbaycan-Qırğızıstan İnvestisiya Fondu yaradıldı. Söz düşmüşkən onu da bildirməliyəm ki, bizim Özbəkistanla və Qazaxıstanla da buna oxşar investisiya fondlarımız var. Qırğızıstan Prezidenti öz təşəbbüsü ilə Ağdam rayonunda bir məktəbin tikintisinə də dəstək göstərdi və onun təməlini biz birlikdə qoymuşuq. Bütün bunlar qardaşlıq təzahürləridir.

Bu gün Qırğızıstanda aparılan islahatlar həm siyasi sahədə, həm də iqtisadi sahədə nəticə verir. Biz bunu görürük. Qırğızıstanda olarkən hörmətli Prezidentlə biz bəzi məktəblərdə də olmuşduq. Sonra o məktəblərin müəllimləri, şagirdləri Azərbaycana dəvət edildi. Yəni gənclər arasındakı mütləq təmaslar olmalıdır. Mən qeyd etmişdim ki, məsələn, Uluqbəy adına məktəb, Kurmanqazı adına İncəsənət Mərkəzi, indi qırğız məktəbi olacaq, macar məktəbi olacaq - bütün bunlar gənclər üçün bir yol göstəricisidir ki, bu birlik əməli işlərdə özünü göstərir.

Təbii ki, siyasi əlaqələr, bir-birimizə dəstəyin verilməsi, beynəlxalq təşkilatlarda bir-birimizə dəstək həddindən artıq önəmlidir, amma eyni zamanda digər layihələr də vacibdir. Əminəm ki, gələn ay bütün dövlət başçıları Şuşada birliyimizin yeni bir səhifəsini, inşallah, bərabər açacaqlar. Sizi bir daha salamlayıram. Bir daha xoş gəlmisiniz, sizə xoş səfər arzulayıram.

❖ ❖ ❖

Sonda birgə foto çəkdirildi.

# Dostluğun və qardaşlığın nümunəsi

## Prezident İlham Əliyev Qırğızıstanın Joqorku Keneşinin Sədrini qəbul edib



*Əvvəli 1-ci səh.*

Söhbət zamanı Azərbaycan ilə Qırğızıstan arasında İnvestisiya Fondunun yaradıldığı və onun büdcəsinin hazırda daha da artırıldığı qeyd edildi.

Görüşdə Qırğızıstan Prezidentinin Azərbaycana səfəri və səfər çərçivəsində aparılmış müzakirələrin və imzalanmış sənədlərin əhəmiyyəti vurğulandı. Azərbaycanın işğaldan azad olunmuş Ağdam rayonunda Qırğızıstan tərəfindən məktəbin inşasının həyata keçirilməsi ölkələrimiz arasında dostluğun və qardaşlığın nümunəsi kimi qiymətləndirildi.

Nurlanbek Şakiyev Azərbaycanın işğaldan azad olunmuş rayonlarına, xüsusən də Şuşa şəhərinə səfər etdiyini və həmin ərazilərin dünyanın ən gözəl guşələrindən biri olduğunu dedi. O, Azərbaycan xalqının səbirlə otuz ilə yaxın bir müddətdə torpaqlarımızın işğaldan azad edildiyi günü gözləməsinin və buna nail olmasının önəmini vurğuladı. Qonaq torpaqlarımızın işğaldan azad olunması və ölkəmizin inkişafında Prezident İlham Əliyevin liderliyinin yüksək qiymətləndirildiyini qeyd etdi.

Söhbət zamanı Türk Dövlətləri Təşkilatının inkişafı, beynəlxalq təşkilatlarda və təsisatlarda Azərbaycan-Qırğızıstan əməkdaşlığının və ölkələrimizin parlamentləri arasında əlaqələrin vacibliyi vurğulandı.

# Ümumdünya Ticarət Təşkilatı Azərbaycanın iqtisadi nailiyyətlərini yüksək qiymətləndirir

## Prezident İlham Əliyev təşkilatın baş direktorunu qəbul edib



*Əvvəli 1-ci səh.*

Qonaq Azərbaycanın əldə etdiyi iqtisadi nailiyyətləri vurğuladı. COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdıran Ümumdünya Ticarət Təşkilatının baş direktoru bu tədbir çərçivəsində Ticarət və Sərmayə Gününün təşkil edilməsi ilə bağlı təşəbbüsü dəstəklədiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi.

Söhbət zamanı ölkəmizlə təşkilat arasında əməkdaşlıq imkanları müzakirə olundu.

# "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2517 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 22 fevral tarixli 2517 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 2, maddə 182 (Cild I) birinci hissəsi ilə təsdiq edilmiş "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Müşahidə Şurasının tərkibi aşağıdakı redaksiyada verilsin:

**"Müşahidə Şurasının sədri**

Rəhman Hümmətov - Azərbaycan Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini

**Müşahidə Şurasının üzvləri**

Ədalət Əliyev - Azərbaycan Respublikasının Maliyyə Nazirliyi Aparatının İnvestisiya layihələrinin və infrastrukturun maliyyəsi şöbəsinin müdiri

Xəyyam Məmmədov - Azərbaycan İnvestisiya Holdinqinin Baş icraçı direktorunun müavini.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2024-cü il*

# Yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında əmək fəaliyyətinə cəlb edilməsi ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, müasir tələblərə cavab verən yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında işləməsinin təşviqi, onların bilik və bacarıqlarının ölkənin sosial-iqtisadi inkişafına istiqamətləndirilməsi, habelə bu sahədə çevik idarəetmə və əlaqələndirmə mexanizminin formalaşdırılması məqsədilə **qərara alıram:**

1. Yüksəkixtisaslı əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyətinə cəlb edilməsi imkanlarının genişləndirilməsi məqsədilə Yüksəkixtisaslı Miqrant Proqramı (bundan sonra - Proqram) təsis edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Proqram çərçivəsində müraciətləri müsbət cavablandırılmış yüksəkixtisaslı əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə (bundan sonra - yüksəkixtisaslı miqrant) və onların ailə üzvlərinə münasibətdə tətbiq ediləcək güzəştləri (ölkədə olmaq, yaşamaq və ya haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olmaq hüququnun əldə edilməsi üçün tələb olunan sənədlər və onların sayı, icazələrin müddəti, iş icazəsi tələbindən azad olunma, müraciətlərə baxılma müddəti və s.) müəyyən edən normativ hüquqi aktların layihələrini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. şəxsin yüksəkixtisaslı miqrant hesab olunmasının qiymətləndirilməsi meyarlarını və qaydasını üç ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla təsdiq etsin;

2.3. bu Sərəncamın 3.1-ci bəndində nəzərdə tutulan portal haqqında əsasnaməni və həmin portala inteqrasiya olunacaq informasiya sistemlərinin siyahısını üç ay müddətində təsdiq edib bu barədə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.4. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti:

3.1. Proqram iştirakçılarının müraciətlərinin qəbulunu və cavablandırılmasını "bir pəncərə" prinsipi əsasında təmin edən portalın (bundan sonra - portal) yaradılmasını iki ay müddətində təmin etsin;

3.2. portala daxil olan müraciətlərə baxılmanı Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin vahid miqrasiya məlumat sistemində yaradılan "Yüksəkixtisaslı miqrantlar" altsistemi vasitəsilə həyata keçirsin;

3.3. portalda olan fərdi məlumatların və portal vasitəsilə aparılan əməliyyatların təhlükəsizliyinin təmin edilməsi ilə bağlı Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti ilə birlikdə tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 sentyabr tarixli 263 nömrəli Fərmanına uyğun olaraq, portalın aidiyyəti dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini Elektron Hökumət İnformasiya Sistemi vasitəsilə təmin etsin.

5. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəlikləri və konsulluqları vasitəsilə Proqramın təbliğ və təşviq olunmasını təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2024-cü il*

# Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Vergi Məcəlləsinə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (I kitab), maddə 583 (Cild I); 2024, № 2, maddə 138; Azərbaycan Respublikasının 2024-cü il 5 mart tarixli 1108-VIQD nömrəli və 23 aprel tarixli 1141-VIQD nömrəli qanunları) aşağıdakı məzmunda 102.1.33-1-ci, 106.1.28-1-ci, 106.1.28-2-ci və 164.1.49-1-ci maddələr əlavə edilsin:

"102.1.33-1. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar malların təqdim edilməsinə, işlərin görülməsinə və xidmətlərin göstərilməsinə cəlb olunmuş qeyri-rezident fiziki şəxslərin bu fəaliyyət çərçivəsində əldə etdiyi gəlirlər - 2024-cü il martın 1-dən 9 ay müddətinə;";

"106.1.28-1. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar qeyri-maddi aktivlər üzərində müəllif hüquqlarından istifadə olunmasına, yaxud istifadə hüquqlarının verilməsinə görə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) bağlanılmış müqavilə əsasında onun tərəfindən qeyri-rezident hüquqi şəxsə ödənilən royalti gəlirləri - 2024-cü il martın 1-dən 9 ay müddətinə;

106.1.28-2. müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar qeyri-rezident hüquqi şəxslər tərəfindən işlərin görülməsindən və xidmətlərin göstərilməsindən əldə edilən gəlirlər - 2024-cü il martın 1-dən 9 ay müddətinə;";

"164.1.49-1. Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycan Respublikasında keçirilməsi ilə əlaqədar müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) bağlanılmış müqavilə əsasında qeyri-rezident şəxslər tərəfindən işlərin görülməsi və xidmətlərin göstərilməsi, habelə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) təsdiqedici sənədi əsasında malların idxalı - 2024-cü il martın 1-dən 9 ay müddətinə;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2024-cü il*

# "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1157-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1157-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Vergi Məcəlləsinin 102.1.33-1-ci, 106.1.28-1-ci, 106.1.28-2-ci və 164.1.49-1-ci (hər iki halda) maddələrində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 102.1.33-1-ci, 106.1.28-1-ci, 106.1.28-2-ci və 164.1.49-1-ci (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1157-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikası Vergi Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun və bu Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Vergi Məcəlləsinin tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 30 avqust tarixli 393 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 616 (Cild I); Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 may tarixli 61 nömrəli Fərmanı) 1-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.1-ci bəndə "102.1.33-cü," sözlərindən sonra "102.1.33-1-ci," sözləri, "106.1.28-ci," sözlərindən sonra "106.1.28-1-ci, 106.1.28-2-ci," sözləri, "164.1.49-cu," sözlərindən sonra "164.1.49-1-ci (hər iki halda)," sözləri əlavə edilsin;

3.2. aşağıdakı məzmunda 1.43-2-ci bənd əlavə edilsin:

"1.43-2. həmin Məcəllənin 102.1.33-1-ci, 106.1.28-1-ci, 106.1.28-2-ci və 164.1.49-1-ci (hər iki halda) maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi nəzərdə tutulur;".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2024-cü il*

# Əminə ƏRDOĞAN: "Mehriban Əliyeva ilə birgə səylərə hazırıq"

**Türkiyədə çox şadıq ki, dünyanın hər yerindən liderlər bu il türk dünyasının incisi olan qardaş Azərbaycanda toplaşaraq iqlim dəyişikliyi mövzusunu müzakirə edəcəklər.**



AZƏRTAC xəbər verir ki, bu sözləri Türkiyə Prezidentinin xanımı Əminə Ərdoğan BMT-nin "Sıfır tullantı" üzrə Yüksək Səviyyəli Məşvərət Şurasının ikinci iclasının iştirakçıları qarşısında videokonfrans vasitəsilə çıxışı zamanı deyib.

Əminə Ərdoğan BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyası Tərəflərinin 29-cu sessiyasına (COP29) hazırlıqla bağlı tədbir iştirakçılarına məlumat verdiyinə görə Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayevə təşəkkürünü bildirib.

Onun sözlərinə görə, Azərbaycan qədim mədəniyyətə və ətraf mühitə hörmət prinsiplərinə əsaslanan zəngin ənənələrə malikdir. "Əminəm ki, COP29-un Bakıda keçiriləcək sessiyası mühüm sammit olacaq və onun nəticələri yaddaşlarda qalacaq", - deyə Türkiyə liderinin xanımı vurğulayıb.

Əminə Ərdoğan deyib: "Həmçinin vurğulamaq istərdim ki, dostum, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva ilə birlikdə türk dünyasında ekoloji təşəbbüslərin əhatə dairəsini genişləndirmək üçün birgə səylərə hazırıq".

O, gündəliyinə "Sıfır tullantı" proqramının icrası ilə bağlı məsələnin daxil ediləcəyi Məşvərət Şurasının növbəti, üçüncü iclasının Bakıda keçirilməsini təklif edib.

Türkiyənin birinci xanımının sözlərinə görə, ekoloji sahədə, o cümlədən "Sıfır tullantı" proqramının həyata keçirilməsində Türkiyənin təcrübəsini öyrənməyə hazır olan dövlətlərin sayı artır və bununla bağlı müvafiq təqdimatlar hazırlanır.

# Baş nazir Əli Əsədov Almaniyanın "Knauf" Şirkətlər Qrupunun nümayəndə heyəti ilə görüşüb

**İyunun 6-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Almaniyanın "Knauf" Şirkətlər Qrupunun nümayəndə heyəti ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə "Knauf" şirkətinin Azərbaycanda uzunmüddətli uğurlu fəaliyyəti barədə məlumat verilib. Həmçinin əməkdaşlığın genişləndirilməsi ilə bağlı bir sıra məsələlər müzakirə olunub.



# Yeni Azərbaycan Partiyasının İdarə Heyətinin iclası keçirilib






**İyunun 6-da Yeni Azərbaycan Partiyasının (YAP) İdarə Heyətinin növbəti iclası keçirilib.**

YAP Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov iclasın gündəliyi haqqında məlumat verib.

İclasda ilk olaraq YAP Saatlı rayon təşkilatının sədri Lütvəli İbrəhim oğlu Şıxəliyevin öz ərizəsi ilə tutduğu vəzifədən azad olunması məsələsinə baxılıb.

Tahir Budaqov 1993-cü ildən YAP-ın üzvü olan L.Şıxəliyevin 1999-cu ildən bu günədək partiyanın Saatlı rayon təşkilatının sədri vəzifəsində uğurla fəaliyyət göstərdiyini bildirib, onun bundan sonra da öz peşəkarlığı və təcrübəsi ilə rayon təşkilatının işinə yaxından dəstək verəcəyinə əminliyini ifadə edib.

YAP İdarə Heyətinin üzvü Eldar İbrahimov çıxış edərək L.Şıxəliyevin partiya işində nümunəvi fəaliyyət göstərdiyini qeyd edib.

Ünvanına deyilən xoş sözlərə görə təşəkkürünü bildirən L.Şıxəliyev ictimai-siyasi proseslərdə, partiyanın həyatında bundan sonra da fəal iştirak edəcəyini bildirib.

Müzakirələrin sonunda Lütvəli Şıxəliyevin YAP Saatlı rayon təşkilatının sədri vəzifəsindən azad olunması haqqında qərar qəbul olunub.

Ardınca YAP Saatlı və Zaqatala rayon təşkilatlarına sədrlərin təyin edilməsi məsələsinə baxılıb. Elşən Zeynal oğlu Əzizovun YAP Saatlı rayon təşkilatının, Fərid Səfər oğlu Ramazanovun isə Zaqatala rayon təşkilatının sədri vəzifələrinə namizədliyi irəli sürülüb. YAP İdarə Heyətinin üzvləri Eldar İbrahimov və Asif Əsgərli çıxış edərək hər iki şəxsin irəli sürülən vəzifəyə layiq olduqlarını bildirib, onlara fəaliyyətlərində uğurlar arzulayıblar.

Müzakirələrdən sonra Elşən Zeynal oğlu Əzizovun YAP Saatlı rayon təşkilatının sədri və Fərid Səfər oğlu Ramazanovun YAP Zaqatala rayon təşkilatının sədri vəzifəsinə təyin olunması haqqında qərar qəbul edilib.

Sonra Vaqif Aslan oğlu Hüseynovun və Tahir Məhərrəm oğlu Quliyevin Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının tərkibinə kooptasiya yolu ilə daxil edilməsi məsələsinə baxılıb.

Çıxış edən YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə, YAP İdarə Heyətinin üzvləri Eldar İbrahimov, Elnarə Akimova və Aynur Sofiyeva namizədliyi irəli sürülən şəxslərin həyat yoluna nəzər salaraq partiya və dövlət qarşısında xidmətlərini qeyd edib və partiyanın Veteranlar Şurasında təmsil olunmalarını dəstəklədiklərini bildiriblər.

Müzakirələrdən sonra Vaqif Aslan oğlu Hüseynovun və Tahir Məhərrəm oğlu Quliyevin YAP Veteranlar Şurasına üzv seçilməsi haqqında qərar qəbul olunub.

Vaqif Hüseynov və Tahir Quliyev göstərilən etimada görə partiyanın Sədri, ölkə başçısı cənab İlham Əliyevə dərin təşəkkürünü ifadə edərək YAP Veteranlar Şurasının üzvü kimi üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün var gücü ilə çalışacaqlarını bildiriblər.

YAP Veteranlar Şurasının üzvü seçilməsi münasibətilə hər iki şəxsi təbrik edən Tahir Budaqov onlara möhkəm cansağlığı və gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Daha sonra cari məsələlərlə bağlı müzakirələr aparılıb və müvafiq qərarlar qəbul edilib.

❖ ❖ ❖

İyunun 6-da YAP Mərkəzi Aparatında YAP Saatlı rayon təşkilatının sədri vəzifəsində çalışmış Lütvəli Şıxəliyevin 70 illik yubileyi münasibətilə görüş keçirilib. YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov yubilyarı doğum günü münasibətilə təbrik edib, möhkəm cansağlığı və uğurlar arzulayıb.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Minskdə Azərbaycan-Belarus Hökumətlərarası Komissiyasının 14-cü iclası olub





**İyunun 6-da Minskdə Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 14-cü iclası keçirilib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Azərbaycan Respublikası Baş nazirinin müavini Əli Əhmədov və Belarus Respublikası Baş nazirinin müavini İqor Petrişenkonun sədrliyi ilə keçirilən iclasda iki ölkənin müvafiq dövlət qurumlarının rəhbərləri və səlahiyyətli nümayəndələri də iştirak ediblər.

İclasda tərəflər Azərbaycan ilə Belarus arasında müxtəlif sahələrdə qarşılıqlı faydalı tərəfdaşlığın yüksək səviyyədə olduğunu bildiriblər.

İki ölkə prezidentlərinin fəal siyasi dialoqu, sıx təmasları və birgə səyləri nəticəsində ikitərəfli əlaqələrin dinamik inkişafından məmnunluq ifadə olunub.

Bununla əlaqədar olaraq, Belarus Prezidenti Aleksandr Lukaşenkonun Azərbaycana son dövlət səfərinin əhəmiyyəti qeyd edilib.

İclasda tərəflər ikitərəfli əməkdaşlığın gündəliyində duran aktual məsələləri müzakirə ediblər. Azərbaycanın azad edilmiş ərazilərində iqtisadi-ticari, investisiya, sənaye və aqrar sahələrdə, eləcə də təhsil və birgə fəaliyyət istiqamətlərində dövlət başçılarının razılaşma və tapşırıqlarının icrasına xüsusi diqqət yetirilib.

Tərəflər qarşılıqlı faydalı əməkdaşlığın bütün kompleksi üzrə konstruktiv dialoqu davam etdirməyə hazırlıq ifadə ediblər.

İclasın yekunlarına əsasən, Əli Əhmədov və İqor Petrişenko Azərbaycan Respublikası ilə Belarus Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın 14-cü iclasının protokolunu, habelə iki ölkə arasında əməkdaşlığın inkişafı üzrə 2024-2025-ci illər üçün yenilənmiş yol xəritəsini imzalayıblar.

# Azərbaycanın xarici işlər naziri isveçrəli həmkarı ilə telefonla danışıb




**İyunun 6-da Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə İsveçrə Konfederasiyasının federal xarici işlər naziri İqnasio Kassis arasında telefon danışığı aparılıb.**

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, telefon danışığı zamanı iki ölkə arasında əməkdaşlıq məsələləri, Avropada geosiyasi vəziyyət və İsveçrə tərəfindən göstərilən səylər, eləcə də BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Azərbaycanın prezidentliyi çərçivəsində görülən işlər müzakirə edilib.

Telefon danışığında həmçinin qarşılıqlı maraq kəsb edən regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycanla Albaniya arasında insan hüquqları sahəsində anlaşma memorandumu imzalanıb

**Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva Albaniyanın informasiya və məlumatların mühafizəsi üzrə müvəkkili Besnik Dervişinin dəvəti əsasında dünyanın müxtəlif ölkələrindən olan informasiya komissarlarının qatıldıqları XV Beynəlxalq Konfransında iştirak edib.**



Ombudsman Aparatından AZƏRTAC-a bildirilib ki, Səbinə Əliyeva "Fərdlərin informasiyaya çatım vasitəsilə səlahiyyətləndirilməsi: qarşılıqlı əməkdaşlıqda şəffaflığın və inklüzivliyin təmin edilməsi" mövzusunda keçirilən beynəlxalq konfransın ilk sessiyasında təqdimatla çıxış edib. O, informasiya əldə etmək hüququnun müdafiəsi və təmini istiqamətində fəaliyyəti, bu sahədə həyata keçirilən maarifləndirmə tədbirləri, habelə əhalinin həssas qruplarının hüquqlarının müdafiəsinə xüsusi diqqət yetirilməsi barədə məlumat verib.

Cari ildə ölkəmizin COP29-a evsahibliyi edəcəyini iştirakçıların diqqətinə çatdıran ombudsman bu çərçivədə xarici ölkələrin ombudsman və milli insan hüquqları institutlarının iştirakı ilə informasiyaya çatımlılıq məsələlərinin də müzakirə olunacağı beynəlxalq simpoziumun keçiriləcəyini bildirib.

Səfər çərçivəsində ombudsman Albaniyanın ədliyyə naziri Ulsi Manja, parlament Sədrinin müavini Ermonela Valikaj Felaj, informasiya və məlumatların mühafizəsi üzrə müvəkkil Besnik Dervişi ilə görüşlər keçirib.

Görüşlərdə S.Əliyeva Ombudsman Aparatının fəaliyyəti, informasiya əldə etmək hüququnun təmini sahəsində görülmüş işlər, Ombudsman haqqında Konstitusiya Qanununa edilən son dəyişikliklər nəticəsində mandatının genişlənməsi haqqında ətraflı məlumat verib. Ombudsman həmçinin ölkədə insan hüquqları sahəsində həyata keçirilən islahatlardan bəhs edib. O, ölkəmizdə qadınların qərar qəbuletmə prosesində fəal iştirak etdiyini, eyni zamanda müxtəlif yüksək vəzifələrdə çalışdıqlarını vurğulayıb.

Eyni zamanda ombudsmanın milli preventiv mexanizm fəaliyyəti çərçivəsində şəxslərin öz iradəsi ilə tərk edə bilmədiyi müəssisələrə, o cümlədən təhsil, səhiyyə və penitensiar müəssisələrdə həyata keçirilən başçəkmələr və verilmiş tövsiyələr haqqında danışılıb.

Ombudsman 30 ilə yaxın işğal dövründə Ermənistan tərəfindən torpaqlarımızda basdırılmış minaların hazırda həmin ərazilərdə aparılan genişmiqyaslı bərpa-quruculuq işlərinə, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışına ciddi maneə yaratdığını, mülki şəxslərin həyatına və sağlamlığına ciddi təhdid törətdiyini diqqətə çatdırıb. Bundan başqa, ombudsmanın müharibə və postmüharibə dövrlərində işğaldan azad edilmiş ərazilərdə faktaraşdırıcı missiyalar həyata keçirdiyi, aidiyyəti beynəlxalq təşkilatlara, milli insan hüquqları institutları və xarici ombudsmanlara müvafiq hesabat, müraciət və bəyanatlar göndərdiyi qeyd edilib, faktaraşdırıcı missiyalara dair hesabatların nüsxələri həmin dövlətin rəsmi şəxslərinə təqdim olunub.

Ombudsman həmçinin iki ölkə arasında əməkdaşlıq çərçivəsində formalaşmış müsbət təcrübələrin insan hüquq və azadlıqlarının effektiv müdafiə və təmininə də töhfə verəcəyini bildirib.

Səfər çərçivəsində Səbinə Əliyeva və Albaniyanın informasiya və məlumatların mühafizəsi üzrə müvəkkili Besnik Dervişi arasında insan hüquqları, habelə informasiya əldə etmək hüququ sahəsində ikitərəfli əməkdaşlığın inkişafı məqsədilə anlaşma memorandumu imzalanıb.

# Azərbaycanla Türkiyə arasında dini-mənəvi müstəvidə qarşılıqlı maraq doğuran məsələlər müzakirə edilib



**İyunun 5-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə Türkiyənin Azərbaycandakı səfiri Cahit Bağçı ilə görüşüb.**

QMİ-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə ölkələrimiz arasında bütün sahələrdə olduğu kimi, dini-mənəvi müstəvidə də münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə olunub.

Türkiyənin ölkəmizdəki səfiri Şeyxülislamı qarşıdan gələn Qurban bayramı münasibətilə təbrik edib, ən xoş arzularını çatdırıb.

Şeyxülislam A.Paşazadə öz növbəsində səfiri və bütün Türkiyə xalqını Eydül-Əzha münasibətilə təbrik edib, bu şərəfətli bayramın qardaş xalqlarımız, türk dünyası, bütün dünya müsəlmanları üçün xeyirlərə vəsilə olması üçün dualar edib.

Söhbət zamanı QMİ sədri A.Paşazadə Türkiyə Diyanət İşləri Başkanı Ali Erbaşın dəvəti ilə ötən ay İstanbulda Dünya İslam alimlərinin yeni təsis olunan Məşvərət toplantısında iştirakını, Dolmabağça sarayında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın toplantı iştirakçılarını qəbul mərasimində qardaş dövlətin başçısı ilə görüşünü məmnunluqla xatırlayıb.

Görüşdə dini-mənəvi müstəvidə qarşılıqlı maraq doğuran məsələlərdən danışılıb, perspektivlər müzakirə edilib.

# TÜRKPA-nın 13-cü plenar iclası keçirilib

**İyunun 6-da Milli Məclisdə Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) 13-cü plenar iclası keçirilib. İclas "Türk dünyası üçün yaşıl üfüqlər: yaşıl gündəliyə nail olunmasında parlamentlərin rolu" mövzusuna həsr olunub.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclası açan TÜRKPA-nın fəaliyyətdə olan sədri, Azərbaycan Respublikası Milli Məclisinin spikeri Sahibə Qafarova qardaş türk dövlətlərinin parlament sədrlərini, bütün nümayəndə heyətlərini salamlayaraq iclas çərçivəsində aparılacaq müzakirələrin əməkdaşlığımızın və birgə fəaliyyətimizin daha da genişlənməsinə təkan verəcəyinə inamını ifadə edib.

O, Azərbaycan Respublikasının Milli Məclisinin qarşıdakı dövrdə TÜRKPA-ya sədrliyi dövründə təşkilat çərçivəsində parlamentlərarası əlaqələrimizin möhkəmləndirilməsi istiqamətində bütün zəruri addımların atılacağını bildirib.

Çıxışında Azərbaycan Prezidenti İlham Əliyevin cari il fevralın 14-də Milli Məclisdə keçirilmiş andiçmə mərasimində səsləndirdiyi "Bizim ailəmiz türk dünyasıdır. Bizim başqa ailəmiz yoxdur" fikrini iclas iştirakçılarının diqqətinə çatdıran Milli Məclisin spikeri vurğulayıb ki, türk dövlətləri ilə əlaqələrin inkişaf etdirilməsi Azərbaycanın xarici siyasət prioritetlərindən biri olaraq qalmaqda davam edəcək. Onun sözlərinə görə, qardaş ölkələrimiz arasında əməkdaşlıq əlaqələri həm ikitərəfli, həm də çoxtərəfli formatda olduqca uğurla inkişaf edir. Çoxsaylı qarşılıqlı səfərlər, iqtisadi, enerji, nəqliyyat və digər sahələrdə həyata keçirilən layihələr və atılan addımlar, beynəlxalq aləmdə birgə fəaliyyət və qarşılıqlı dəstək bu əməkdaşlığın geniş miqyasının bariz göstəricisidir.

Spiker Sahibə Qafarova eyni yüksəksəviyyəli işbirliyinin parlamentlərimiz arasında da müşahidə olunmasını məmnunluqla qeyd edib. Onun sözlərinə görə, 12-ci plenar iclasdan ötən dövr parlament sədrləri, dostluq qrupları və komitələr səviyyəsində qarşılıqlı səfərlər, müntəzəm görüşlər, müxtəlif beynəlxalq platformalarda birgə iştirakla yadda qalıb. Bütün bunlar isə ölkələrimizin birliyi və həmrəyliyinin daha da güclənməsinə, xalqlarımızın bir-birinə daha da yaxınlaşmasına imkan yaradır.

Ölkələrimiz arasında çoxtərəfli əlaqələrin dərinləşdirilməsində türk əməkdaşlıq təşkilatlarının hər birinin rolu olduğunu söyləyən Milli Məclisin Sədri bildirib ki, bu təşkilatların ən böyük xüsusiyyəti onların ortaq mədəniyyətə, tarixə, dilə, mənəvi dəyərlərə malik xalqları və ölkələri birləşdirməsidir. Gün keçdikcə təşkilatlarımızın hər birinin fəaliyyəti daha da güclənir və əhəmiyyəti daha da artır.

Spiker bu təşkilatların ölkələrimizin çoxtərəfli fəaliyyətinin mərkəzinə qoyulmasının, onların daha da güclənməsi üçün bütün zəruri addımların atılmasının vacibliyini diqqətə çatdırıb.

Azərbaycan parlamentinin Sədri bildirib ki, bu gün beynəlxalq miqyasda parlamentlərin, parlament diplomatiyasının rolu getdikcə artır. Parlamentlərimizi eyni çətir altında birləşdirən Türk Dövlətləri Parlament Assambleyası da bu mənada xüsusi əhəmiyyət daşıyır. Milli Məclisin Sədri deyib ki, ötən il 15 illiyini qeyd etdiyimiz TÜRKPA yalnız qanunvericilik sahəsində praktiki əməkdaşlığı, təcrübə mübadiləsini və birgə fəaliyyəti ehtiva etmir. O, həm də beynəlxalq aləmdə ortaq mövqeyimizin nümayiş etdirilməsi, ölkələrimizin maraqlarının müdafiəsi baxımından vacib mexanizmdir. Bir sıra beynəlxalq parlament təşkilatlarında mövcud olan ikili standartlar, qərəzli yanaşmalar fonunda bu məsələ daha da böyük aktuallıq kəsb edir. TÜRKPA eyni zamanda parlamentlərimizin əməkdaşlığını yeni istiqamətlər üzrə daha da genişləndirməyə imkan verir.

Spiker Sahibə Qafarova təşkilatın dövrün tələblərinə və reallıqlarına uyğun olaraq, öz fəaliyyətini yeni məzmunla zənginləşdirməsindən də danışaraq qeyd edib ki, 2019-cu ildə Bakıda keçirilmiş 9-cu plenar sessiyası çərçivəsində Gənc Parlamentarilər və Qadın Parlamentarilər qrupları yaradıldı. Cari ilin aprel ayında Bakıda Türk Dövlətləri Parlamentlərinin Xarici Əlaqələr Komitələri Sədrlərinin birinci iclası, may ayında isə Ankarada TÜRKPA-ya Üzv Parlamentlərin Müdafiə Komitələri Sədrlərinin birinci iclası keçirildi. Bu gün həm regionumuzda, həm də qlobal səviyyədə baş verən prosesləri, mövcud olan çağırışları nəzərə almaqla qardaş ölkə parlamentlərimizin bu sahələr üzrə əməkdaşlığının intensivləşdirilməsinin labüdlüyünü diqqətə çatdıran Sahibə Qafarova, ümumən, təşkilatın institusional inkişafı istiqamətində səylərin davam etdirilməsinin zərurətini qeyd edib.

Spiker onu da nəzərə çatdırıb ki, Milli Məclisin sədrlik etdiyi Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin cari ilin mart ayında Cenevrədə keçirilmiş üçüncü konfransında TÜRKPA-ya müşahidəçi statusu verilib. Bu da təşkilatın fəaliyyət dairəsinin genişlənməsinə xidmət edir.

Bugünkü plenar iclasın "Türk dünyası üçün yaşıl üfüqlər: yaşıl gündəliyə nail olmasında parlamentlərin rolu" mövzusuna həsr olunduğunu deyən Sahibə Qafarova iqlim dəyişmələrinin qlobal səviyyədə ciddi problem kimi ortaya çıxdığı bir dövrdə parlamentlərimizin bu mövzunu müzakirəyə çıxarmasını vaxtında atılmış addım kimi dəyərləndirib.

Onun sözlərinə görə, artıq ölkələrimiz iqlim dəyişmələrinə qarşı mübarizədə milli, regional və qlobal səviyyədə ciddi təşəbbüslər irəli sürürlər, digər tərəfdən də, ekoloji problemlərin həlli üçün birgə səylərin göstərilməsi niyyəti bəyan edilib və "yaşıl enerji" üzrə əməkdaşlığa dair ilkin addımlar atılmaqdadır. O, qeyd olunan istiqamətlər üzrə parlament dəstəyinin artırılmasının zəruriliyini bildirib.

Sahibə Qafarova xatırladıb ki, Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının ötən ilin noyabrında Astanada keçirilmiş 10-cu yubiley Zirvə Görüşündə qəbul edilmiş Astana Aktının mühüm müddəalarından biri də ölkələrimizin qanunlarının yaxınlaşdırılması və model qanunların hazırlanması ilə bağlıdır. O mənada, TÜRKPA Katibliyinin növbəti ilin iş planına təmiz enerjiyə dair model qanunla bağlı fəaliyyətləri daxil etməsini olduqca təqdirəlayiq hal kimi qeyd edib.

Təmiz ətraf mühit və yaşıl inkişafın Azərbaycanın da gündəliyində mühüm yer tutduğunu söyləyən Milli Məclisin Sədri bunun ölkəmizin 2030-cu ilə qədər yeni inkişaf strategiyasının beş prioritet sahəsindən biri kimi müəyyən edildiyini deyib.

2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edildiyini xatırladan spiker Sahibə Qafarova qeyd edib ki, son illərdə ölkəmizdə enerji təchizatında bərpaolunan enerjinin payının əhəmiyyətli dərəcədə artırılması istiqamətində mühüm addımlar atılıb. Bakı Enerji Həftəsi çərçivəsində xarici tərəfdaşlarla birlikdə daha bir külək və iki günəş-elektrik stansiyalarının təməli qoyulub. Bu da Azərbaycanın 2030-cu ilə qədər elektrik enerjisinin qoyuluş gücündə bərpaolunan enerjinin payının 30 faizə çatdırılması hədəfinin reallaşmasında mühüm rol oynayacaq.

Azərbaycan Respublikası Milli Məclisinin də ekoloji problemlərlə və iqlim dəyişmələrinə qarşı mübarizə sahəsində qanunvericilik bazasının yaradılması və təkmilləşdirilməsi üzrə işini davam etdirdiyini deyən spiker diqqətə çatdırıb ki, qeyd olunan sahədə 25 qanun və məcəllə qəbul olunduğunu bildirib. 2021-ci ildə Azərbaycan parlamenti "Elektrik enerjisi istehsalında bərpaolunan enerji mənbələrindən istifadə haqqında" qanun qəbul edib. Ətraf mühit məsələlərinə dair parlamentdə mütəmadi olaraq təşkil olunan ictimai dinləmələr isə bütün maraqlı tərəflərin rəy və təkliflərinin qanunvericilikdə nəzərə alınmasına imkan yaradır.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Azərbaycanın işğaldan azad edilmiş əraziləri də "yaşıl enerji" üzrə müəyyən edilmiş strateji baxışın diqqət mərkəzindədir. O, təəssüflə vurğulayıb ki, ərazilərimizin Ermənistan tərəfindən 30 ilə yaxın işğalı həm də ekoloji terrorla müşayiət olunub. Ermənistan meşələrimizi qırıb, təbii sərvətlərimizi qeyri-qanuni istismar edib, torpağı və çayları çirkləndirib. Spiker bu gün həmin ərazilərin Azərbaycan Prezidenti tərəfindən "Yaşıl Enerji Zonası" elan edildiyini, aparılan yenidənqurma və bərpa işlərində "ağıllı şəhər və ağıllı kənd", "sıfır emissiya", "sıfır tullantı" yanaşmaları tətbiq edildiyini, ekosistemin bərpa olunduğunu bildirib.

Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycanın BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29-a evsahibliyi etməsindən danışıb. O deyib ki, ölkəmizin bu mühüm beynəlxalq tədbirə evsahibliyi edən ölkə kimi yekdilliklə seçilməsi Azərbaycanın iqlim dəyişmələrinə qarşı mübarizədə göstərdiyi səylərin beynəlxalq ictimaiyyət tərəfindən tanınması və dəstəklənməsi deməkdir.

Noyabr ayında Bakıda keçiriləcək bu tədbirdə Azərbaycanın iqlim dəyişmələrinə qarşı mübarizədə qlobal həmrəyliyin təşviqinə, gələcəyimiz naminə bütün tərəfləri ümumi məqsəd ətrafında birləşdirməyə çalışacağını bildirən spiker Sahibə Qafarova xatırladıb ki, COP29 çərçivəsində Azərbaycan Milli Məclisi və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə Parlament Toplantısı da keçiriləcək. Onun sözlərinə görə, bu toplantı iqlim dəyişmələrinə qarşı mübarizədə parlamentlərimizin oynaya biləcəyi rola və ata biləcəyi addımlara dair fikir mübadiləsi aparmağa imkan verəcək.

TÜRKPA-nın fəaliyyətdə olan sədri Sahibə Qafarova təşkilatın 13-cü plenar iclasının işinə uğurlar arzulayıb.

Sonra iclasda TÜRKPA-ya üzv dövlətlərin parlament rəhbərləri - Qazaxıstan Respublikası Parlamenti Məclisinin Sədri Yerlan Koşanov, Qırğız Respublikası Joqorku Keneşinin Sədri Nurlanbek Şakiyev, Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş, habelə Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva, təşkilatda müşahidəçi qismində təmsil olunan Şimali Kipr Türk Respublikası Məclisinin Sədri Zorlu Töre və Macarıstan Milli Assambleyası Sədrinin müavini Marta Matrai giriş nitqləri söyləyiblər.

Plenar iclasda iştirak edən türk əməkdaşlıq təşkilatlarının, TÜRKPA-da müşahidəçi statusuna malik təşkilatların, TÜRKPA-nın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatların və digər qurumların rəhbərlərinin və nümayəndələrinin də çıxışları dinlənilib.

Belə ki, tədbirdə Türk Dövlətləri Təşkilatının Baş katibi Kurbanbek Omuraliyev, Türk Akademiyasının prezidenti Şahin Mustafayev, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktoti Raimkulova, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının Baş katibi Asəf Hacıyev, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirənin icraçı direktoru Kairat Sarıbay, TURKSOY Baş katibinin müavini Sait Yusuf, İslam Əməkdaşlıq Təşkilatı Parlament İttifaqının Baş katibi Əli Əsgər Mohammadi Sicani, Ərzaq Təhlükəsizliyi üzrə İslam Təşkilatının (İOFS) baş direktoru Berik Arın, Türk Dünyası Mühəndislər və Memarlar Birliyinin sədri İlyas Demirci, Manas Universitetinin Baş katibi Oktay Özgülöz fikirlərini bölüşüblər.

Çıxışlarda tədbirə evsahibliyi edən Azərbaycan Milli Məclisinə və Milli Məclisin Sədri Sahibə Qafarovaya qonaqpərvərliyə görə təşəkkürlər ifadə olunub. İclas iştirakçıları TÜRKPA-da sədrliyin Azərbaycan Respublikası Milli Məclisinin spikeri Sahibə Qafarovaya təhvil verilməsi münasibətilə öz təbriklərini çatdırıblar və təşkilata sədrliyi dövründə Azərbaycan tərəfinə uğurlar arzulayıblar.

Çıxışlar zamanı bildirilib ki, hazırda bütün dünyada "yaşıl enerji"yə keçid enerji siyasətinin əsas istiqamətlərdən birini təşkil edir."Yaşıl enerji" mənbələrindən enerji istehsalı qlobal iqlim dəyişikliyi ilə bağlı problemlərin aradan qaldırılmasında, qlobal istiləşmənin qarşısının alınmasında mühüm rol oynayır. Habelə bərpaolunan enerji sahəsində potensial imkanlardan, ekoloji cəhətdən təmiz enerji resurslarından səmərəli istifadə edilməsinin vacibliyindən bəhs edilib. "Yaşıl enerji"nin inkişafına diqqətin artırılması, "yaşıl enerji"dən istifadənin üstünlükləri barədə danışılıb. Qeyd olunub ki, bu, ənənəvi enerji resurslarından asılılığın azalmasına, ekoloji baxımdan müsbət nəticələrin əldə edilməsinə xidmət edəcək.

İclas iştirakçıları "yaşıl enerji"nin mahiyyəti, "yaşıl enerji"nin istehsalı üçün yeni texnologiyaların tətbiqi, "yaşıl iqtisadiyyat" konsepsiyası barədə fikirlərini açıqlayıblar. Qeyd olunub ki, "yaşıl enerji"dən istifadə ətraf mühitin yaxşılaşdırılmasında önəmli rol oynayır, enerji təhlükəsizliyi ilə bağlı məsələlərin həllinə mühüm təsir göstərir, müasir texnologiyaların və innovasiyaların tətbiqini stimullaşdırır, bununla yanaşı, alternativ enerji mənbələrinə keçid sosial-iqtisadi inkişafa da təkan verir.

Çıxışçılar təmsil etdikləri dövlətlərin coğrafi mövqeyindən, iqlim şəraitindən, "yaşıl enerji"dən istifadə üçün malik olduğu potensial imkanlardan, ölkələrində enerji sektorunda aparılan islahatlardan, həyata keçirilən layihələrdən bəhs ediblər. "Yaşıl enerji"nin tətbiqi sahəsində dünya ölkələri arasında, habelə beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığın önəmini vurğulayıblar. Həmçinin "yaşıl enerji" sənayesinin inkişafı üçün müvafiq qanunvericilik bazasının formalaşdırılmasının vacibliyindən danışıblar.

Müzakirələr zamanı cari ildə Azərbaycanda keçiriləcək COP29-un iqlim problemlərinin qarşısının alınması baxımından mühüm əhəmiyyəti xüsusi qeyd olunub. Bildirilib ki, ekoloji vəziyyətin yaxşılaşdırılması, ətraf mühitin mühafizəsi, təbii sərvətlərdən səmərəli istifadə edilməsi hər bir dövlətin diqqət mərkəzində olan məsələlərdir. Azərbaycanda "yaşıl enerji"nin inkişafı istiqamətində böyük işlər görülür, ölkəmiz bu sahədə dünya iqtisadiyyatına öz töhfələrini verməkdədir. Qonaqlar COP29-un Azərbaycanda keçirilməsinin ölkəmizin "yaşıl enerji"yə keçid sahəsində əldə etdiyi uğurlar, enerji resursları ilə zəngin olan bir ölkə olması, dövlətimizin iqtisadi inkişafı, dünyada artan nüfuzu ilə əlaqədar olduğunu vurğulayıblar.

Çıxışlardan sonra TÜRKPA-nın fəaliyyətdə olan sədri, Azərbaycan Milli Məclisinin spikeri Sahibə Qafarova qeyd edib ki, TÜRKPA-nın plenar iclasından əvvəl üzv parlament sədrlərinin iştirakı ilə TÜRKPA Assambleya Şurasının iclası keçirilib. Spiker diqqətə çatdırıb ki, Assambleya Şurası TÜRKPA çərçivəsində müvafiq vəzifələrə seçilmələri üçün namizədlikləri təsdiq etmiş, 2025-ci il üçün Fəaliyyət Planını qəbul etmiş, 2025-ci il üçün büdcə layihəsini, habelə seçki və referendum müşahidə missiyalarının yekun hesabat layihələrini, 13-cü plenar iclasın gündəliyini və Bakı Bəyannaməsi layihəsini təsdiq etmiş, bir sıra digər qərarlar qəbul etmişdir. Sahibə Qafarova deyib ki, bu qərarlardan biri də TÜRKPA-nın yeni bayrağı və loqosu ilə bağlıdır. O qeyd edib ki, artıq plenar iclasda TÜRKPA-nın bayrağı yeni formatda öz yerini tutub.

Sonra TÜRKPA-nın 13-cü plenar iclasının gündəliyi təsdiq edilib və gündəlikdəki məsələlərin müzakirəsi keçirilib.

İclasda təşkilati məsələlərə baxılaraq TÜRKPA-nın komissiya sədrləri və sədr müavinləri, habelə Baş katibin müavini vəzifələrinə irəli sürülən namizədliklərə münasibət bildirilib.

Tədbirdə TÜRKPA-nın Hüquq məsələləri və beynəlxalq əlaqələr komissiyasının, Təhsil, mədəniyyət, sosial və humanitar məsələlər komissiyasının, İqtisadi əməkdaşlıq komissiyasının, Ətraf mühit, təbii ehtiyatlar və sağlamlığın qorunması komissiyasının hesabat məruzələri və tövsiyə qərarları qəbul edilib.

Sonra iclasda TÜRKPA tərəfindən hazırlanan bir sıra model qanunların layihələri, o cümlədən "Fərdi məlumatların qorunması haqqında", "Əmək bazarının tələbi nəzərə alınmaqla kadrların hazırlanması haqqında", "Tütün məmulatlarının istifadə edilməsinin məhdudlaşdırılması haqqında", "Ticarət nümayəndəlikləri haqqında", "Dövriyyəyə buraxılan məhsulların təhlükəsizliyi və keyfiyyətinin əsasları haqqında" sənədlər təqdim edilib.

Qanun layihələri parlamentarilər tərəfindən müzakirə edildikdən sonra qəbul olunub.

İclasda habelə TÜRKPA-nın Qadın Parlamentarilər Qrupunun və Gənc Parlamentarilər Qrupunun hesabat məruzələri və tövsiyə qərarları dinlənilib və nəzərə alınıb.

Daha sonra iclas iştirakçılarına TÜRKPA-nın seçki və referendum müşahidə missiyalarının yekunları barədə məlumat verilib. Parlamentarilər Özbəkistan Respublikasında 30 aprel 2023-cü ildə Konstitusiya referendumu, Türkiyə Respublikasında 14 may 2023-cü ildə prezident seçkiləri və parlament ümumi seçkiləri və 28 may 2023-cü ildə prezident seçkilərinin ikinci dövrəsi, Özbəkistan Respublikasında 9 iyul 2023-cü ildə növbədənkənar prezident seçkiləri, Azərbaycan Respublikasında 7 fevral 2024-cü ildə növbədənkənar prezident seçkiləri ilə bağlı seçki və referendum müşahidə missiyalarının yekun hesabatlarını qəbul ediblər.

Plenar iclasda həmçinin 2025-ci maliyyə ili üçün TÜRKPA Katibliyinin büdcəsi təqdim edilib və qəbul olunub.

Tədbirdə Türk Dövlətləri Parlament Assambleyasının 14-cü plenar iclasının 2025-ci ildə Qazaxıstanda keçirilməsi qərara alınıb.

TÜRKPA-nın 13-cü plenar iclasının yekununda Bakı Bəyannaməsi qəbul edilib.

*"Azərbaycan"*

# TÜRKPA-ya sədrlik Azərbaycana keçdi



**İyunun 6-da Türk Dövlətləri Parlament Assambleyası (TÜRKPA) Şurasının 13-cü iclası keçirilib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, TÜRKPA-nın fəaliyyətdə olan Sədri, Türkiyə Böyük Millət Məclisinin (TBMM) Sədri Numan Kurtulmuş TÜRKPA Şurasının 13-cü iclasını açıq elan edib, tədbirin yüksək səviyyədə təşkilinə və göstərilən qonaqpərvərliyə görə Azərbaycan Milli Məclisinin Sədri Sahibə Qafarovaya təşəkkürünü bildirib.

Numan Kurtulmuş qeyd edib ki, təsis olunduğu zamandan bu günədək keçən dövrə, həmçinin görülmüş işlərə nəzər saldıqda əminliklə demək olar ki, türk əməkdaşlıq qurumları arasında xüsusi yerə malik olan TÜRKPA gündən-günə böyüməkdə və inkişaf etməkdədir.

Sonra Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş TÜRKPA-da sədrliyi Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovaya təhvil verib. O, qarşıdakı dövrdə təşkilata sədrlik edəcək Azərbaycan tərəfinə uğurlar arzulayıb.

TÜRKPA-nın fəaliyyətdə olan sədrliyini qürur hissi ilə təhvil aldığını deyən Milli Məclisin Sədri Sahibə Qafarova Azərbaycan Respublikasının Milli Məclisinin qarşıdakı dövrdə təşkilatın məqsədlərinə nail olunması, əməkdaşlığın daha da inkişafı üçün lazımı tədbirlərin həyata keçirilməsinə səy göstərəcəyini bildirib.

Spiker Sahibə Qafarova Türk Dövlətləri Parlament Assambleyasının fəaliyyət göstərdiyi 15 ildən artıq dövrdə assambleyanın əsas tədbirlərinin bununla artıq dördüncü dəfə Bakıda keçirilməsindən məmnunluğunu bildirib. O, bu gün aparılacaq müzakirələrin qarşıya qoyulan hədəflərə nail olmağa kömək göstərəcəyinə inamını ifadə edib.

Vurğulanıb ki, Azərbaycan Respublikası ölkələrimiz arasında dostluq və əməkdaşlıq əlaqələrinin dərinləşməsinə TÜRKPA-nın verdiyi töhfələri yüksək qiymətləndirir. Türk birliyinin gücləndirilməsi istiqamətində həyata keçirilən davamlı tədbirlərin Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətini təşkil etdiyini deyən Milli Məclisin Sədri TÜRKPA-nın 13-cü plenar iclası çərçivəsində dünəndən etibarən tədbirlərin başladığını diqqətə çatdırıb. Həm şura iclasının, həm də plenar iclasın gündəliyinin kifayət qədər zəngin olduğu qeyd olunub.

Spiker Sahibə Qafarova çıxışında həmçinin 44 günlük Vətən müharibəsində 30 illik işğalın başa çatdığını və Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etdiyini, ötən ilin sentyabrında Azərbaycan bütün ərazilərində öz suverenliyini bərpa etdiyini, cari il fevralın 7-də Azərbaycanda növbədənkənar prezident seçkilərinin keçirildiyini bildirib. Qeyd olunub ki, Müstəqil Azərbaycanın tarixində ilk dəfə olaraq, seçki Azərbaycanın bütün suveren ərazilərində, o cümlədən işğaldan azad olunmuş ərazilərində keçirilib. Bu seçkilərdə xalqımız artıq öz ərazi bütövlüyünü, suverenliyini tam bərpa etmiş Azərbaycan dövlətinin gələcək inkişafı naminə səs verib.

Parlament Assambleyasının 13-cü plenar iclasının mövzusunun çox aktual olduğunu deyən Milli Məclisin Sədri bildirib ki, noyabr ayında Bakı qlobal iqlim dəyişikliyinə qarşı mübarizə sahəsində ən böyük beynəlxalq tədbir olan COP29 Konfransına evsahibliyi edəcək. Spiker qeyd edib ki, bu gün TÜRKPA-nın plenar iclasında "Türk dünyası üçün yaşıl üfüqlər: Yaşıl gündəliyin həyata keçirilməsində parlamentlərin rolu" ilə bağlı aparılacaq müzakirələr və qəbul ediləcək qərarlar iqlim dəyişikliklərinə qarşı mübarizəyə, ölkələrimizin "yaşıl enerji" sahəsində əməkdaşlığına parlament dəstəyimizin ifadəsi olacaq.

İclasda çıxış edən Türkiyə Böyük Millət Məclisin Sədri Numan Kurtulmuş, Qırğız Respublikası Joqorku Keneşinin Sədri Nurlanbek Şakiyev və Qazaxıstan Respublikası Parlament Məclisinin Sədri Yerlan Koşanov tədbirin təşkilinə və göstərilən yüksək qonaqpərvərliyə görə Milli Məclisin Sədrinə təşəkkürlərini bildirib, Azərbaycan tərəfinə sədrlik dövründə uğurlar arzulayıblar.

Çıxışçılar TÜRKPA-nın 13-cü şura və plenar iclaslarında aparılacaq fikir mübadiləsinin, qəbul ediləcək qərarların təşkilatın gələcək fəaliyyətinin daha da gücləndirilməsinə mühüm töhfə verəcəyinə inamlarını ifadə ediblər.

İclasda bir sıra təşkilati məsələlər müzakirə olunub və müvafiq qərarlar qəbul edilib.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

# Bakıda TÜRKPA-nın iclası çərçivəsində parlament baş katiblərinin birinci görüşü olub



**İyunun 6-da Bakıda TÜRKPA-nın 13-cü plenar iclası çərçivəsində parlament baş katiblərinin birinci görüşü keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə açılış nitqi ilə çıxış edən Azərbaycan Respublikasının Milli Məclisi Aparatının rəhbəri Fərid Hacıyev TÜRKPA-nın Bakıda keçirilən 13-cü plenar iclasının yeni reallıqların yaratdığı tarixi bir dövrə təsadüf etdiyini deyib.**

Milli Məclisin Aparat rəhbəri qeyd edib ki, bu gün TÜRKPA həm üzv və tərəfdaş dövlətlər, həm də onların hüdudlarından kənarda böyük nüfuza malikdir. Təşkilat dünyanın ən mötəbər beynəlxalq təşkilatları ilə səmərəli əməkdaşlıq çərçivəsində qlobal parlament dialoqunu təşviq edir, parlament diplomatiyasının inkişafında mühüm rol oynayır. TÜRKPA nəinki türk dünyasında, həm də müasir beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutmaqdadır.

Fərid Hacıyev 13-cü plenar iclasın əsas mövzusundan bəhs edərək "yaşıl gündəliy"in həyata keçirilməsində parlament diplomatiyasının və əməkdaşlığının imkanlarından daha fəal istifadə edilməsinin əhəmiyyətindən danışıb.

Görüşdə "TÜRKPA çərçivəsində parlamentlərin Aparat rəhbərləri arasında əməkdaşlığın perspektivləri" mövzusunda müzakirə aparılıb.

Mövzu ilə bağlı çıxış edən Qazaxıstan Respublikası Parlamenti Məclisinin Aparat rəhbəri Renat Aytayev, Qırğızıstan Respublikası Joqorku Keneşinin Aparat rəhbəri Alaybek Alimbayev, Türkiyə Böyük Millət Məclisinin baş katibi Talip Uzun və tədbirə videokonfrans formatında qatılan Özbəkistan Respublikası Ali Məclisi Senatının Aparat rəhbəri Qüdrət Nurullayev parlamentlərarası təcrübə mübadiləsinin daha da genişləndirilməsinin əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, bu istiqamətdə məlumat mübadiləsinin aparılması, birgə tədbirlərin keçirilməsi, eyni zamanda mətbuat xidmətlərinin birgə fəaliyyəti olduqca vacibdir.

Görüş tərəfləri maraqlandıran məsələlər barədə fikir mübadiləsi ilə davam etdirilib.

*"Azərbaycan"*

# Milli Məclisdə TÜRKPA-nın 13-cü plenar iclasının yekunlarına dair brifinq keçirilib



**İyunun 6-da Milli Məclisdə TÜRKPA-ya üzv ölkələrin parlament sədrlərinin iştirakı ilə TÜRKPA-nın 13-cü plenar iclasının yekunlarına dair brifinq keçirilib. Brifinqdə Milli Məclisin Sədri, TÜRKPA-nın fəaliyyətdə olan sədri Sahibə Qafarova çıxış edib.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Türk Dövlətləri Parlament Assambleyası 13-cü plenar iclasını uğurla başa vurduğunu deyən Sahibə Qafarova Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuşa TÜRKPA-ya sədrliyi dövründə səmərəli fəaliyyətə, türk dünyasında parlamentlərarası əməkdaşlığın inkişafına verdiyi dəyərli töhfələrə görə təşəkkürünü bildirib.

Azərbaycan Respublikasının Milli Məclisinin TÜRKPA-ya sədrliyi təhvil aldığını deyən spiker Sahibə Qafarova vurğulayıb ki, təşkilata sədrliyimiz dövründə əməkdaşlığımızın inkişafı naminə var gücümüzlə çalışacağıq.

Çıxışında Sahibə Qafarova bütün nümayəndə heyətlərinə iclasda fəal iştiraklarına görə minnətdarlıq ifadə edib. TÜRKPA-nın parlamentlərimizin qarşılıqlı faydalı əməkdaşlığının səmərəli platformasına çevrildiyini deyən spiker təşkilatın fəaliyyətinin daha da gücləndirilməsi, yeni məzmunla zənginləşdirilməsi üçün birgə səylərin bundan sonra da davam etdirilməsində hamının həmfikir olduğuna əminliyini ifadə edib.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, Parlament Assambleyasının Şura və plenar iclaslarında gündəlikdə duran bütün məsələlər nəzərdən keçirilib, TÜRKPA-nın ötən dövrdəki fəaliyyəti dəyərləndirilib, gələcəkdə atılacaq addımlarla bağlı bir sıra qərarlar qəbul edilib.

Spiker Sahibə Qafarova deyib ki, Assambleyanın 13-cü plenar iclası "Türk dünyası üçün yaşıl üfüqlər: Yaşıl gündəliyin həyata keçirilməsində parlamentlərin rolu" mövzusuna həsr edilib. İclas çərçivəsində müasir dövrün aktual problemi olan iqlim dəyişmələrinə qarşı mübarizədə parlamentlərimizin ata biləcəyi addımlar müzakirə olunub. Eyni zamanda bildirilib ki, iclas çərçivəsində "yaşıl enerji" sahəsində ölkələrimizin irəli sürdüyü təşəbbüslər və əməkdaşlıq imkanlarına dair fikir mübadiləsi aparılıb. Cari ilin noyabrında Azərbaycanın evsahibliyi edəcəyi COP29-un və bu çərçivədə Azərbaycan Respublikası Milli Məclisinin və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçiriləcək Parlament Toplantısının həmrəyliyimizin və birgə səylərimizin təşviqi baxımından mühüm platformalar rolunu oynayacağı qeyd olunub.

TÜRKPA-nın fəaliyyətdə olan sədri Sahibə Qafarova qeyd edib ki, plenar iclasın yekununda qəbul edilmiş Bakı Bəyannaməsində bir çox mühüm mövzulara toxunulub. Bu bəyannamə ölkələrimizi maraqlandıran məsələlərə dair ortaq mövqeyimizin, qardaş ölkə parlamentlərimizin qarşılıqlı etimad və dəstəyinin təzahürüdür.

Brifinqdə çıxış edən Qazaxıstan Respublikası Parlament Məclisinin Sədri Yerlan Koşanov, Qırğız Respublikası Joqorku Keneşinin Sədri Nurlanbek Şakiyev, Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş, Şimali Kipr Türk Respublikası Məclisinin Sədri Zorlu Töre, Macarıstan Milli Assambleyası Sədrinin müavini Marta Matrai və Özbəkistan Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva tədbirin təşkilinə və göstərilən yüksək qonaqpərvərliyə görə Milli Məclisin Sədri Sahibə Qafarovaya təşəkkürlərini bildiriblər, Azərbaycan tərəfinə sədrlik dövründə uğurlar arzulayıblar.

TÜRKPA-nın 13-cü plenar iclasının yekunları barədə danışan çıxışçılar, iclas çərçivəsində aparılmış fikir mübadiləsinin, qəbul edilmiş mühüm qərarların təşkilatın gələcək fəaliyyətinin daha da gücləndirilməsinə mühüm töhfə verəcəyinə inamlarını ifadə ediblər, üzv ölkələr arasında əməkdaşlığın və birgə fəaliyyətin möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıblar.

*"Azərbaycan"*

# TÜRKPA-nın 13-cü plenar iclasının iştirakçıları Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər







TÜRKPA-nın Bakıda keçirilən 13-cü plenar iclası çərçivəsində Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarova, Türkiyə Böyük Millət Məclisinin Sədri Numan Kurtulmuş, Qazaxıstan Respublikası Parlamenti Məclisinin Sədri Yerlan Koşanov, Özbəkistan Respublikası Ali Məclisi Senatının Sədri Tənzilə Narbayeva, Şimali Kipr Türk Respublikası Məclisinin Sədri Zorlu Töre, Macarıstan Milli Assambleyası Sədrinin müavini Marta Matrai, TÜRKPA-nın Baş katibi Mehmet Süreyya Er və nümayəndə heyətlərinin üzvləri iyunun 6-da Fəxri xiyabanı və Şəhidlər xiyabanını ziyarət ediblər.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyublar.

Sonra nümayəndə heyətləri tərəfindən Şəhidlər xiyabanı ziyarət olunub. Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə tər güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

*"Azərbaycan"*

# Audiovizual Şura televiziya və radio kanallarına elektron siqaretlərin təbliği ilə bağlı xəbərdarlıq edib

**Televiziya və ya radio kanallarında elektron siqaretlərin təbliği ölkə qanunvericiliyinin pozulmasıdır. AZƏRTAC xəbər verir ki, bu barədə Audiovizual Şuranın elektron siqaretlər haqqında məlumatın yayımlanması ilə bağlı açıqlamasında bildirilib.**

Qeyd olunub ki, son zamanlar bir sıra yayımçılara ödənişli əsasda bir məlumatın yayımlanması barədə təkliflər daxil olur. Həmin məlumatda bir sıra xarici xəbər agentliklərinə istinadla son zamanlar daha çox amerikalı siqaret aludəçilərinin alternativ nikotin məhsullarına keçmələri haqqında məlumatlar öz əksini tapıb və iddia olunur ki, alternativ nikotin məhsulları ABŞ bazarının müəyyən faizini təşkil edir. Həmçinin sözügedən informasiyalarda mütəxəssislərin daha çox insanın siqareti tərgitməsi və zərərli kimyəvi maddələrin təsiri guya az olan daha yaxşı məhsullara keçməsi tendensiyasına müsbət yanaşmaları iddia olunur.

Audiovizual media subyektləri tərəfindən Audiovizual Şuraya daxil olan sorğulara cavab olaraq və məsələnin ciddiliyini nəzərə alaraq, şura bildirir ki, belə məzmunlu məlumatların televiziya və ya radio kanallarında yayımlanması "elektron siqaret"lərin təbliği hesab olunduğundan ölkə qanunvericiliyinin pozulmasıdır.

Nəzərə alınmalıdır ki, "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanununa əsasən bütün növ qəlyanlar və elektron siqaretlər tütün məmulatları hesab olunur. Həmin qanunun 1.0.8-ci maddəsinə əsasən tütün məmulatlarının satışının və istifadəsinin stimullaşdırılmasına xidmət edən hər bir addım tütün məmulatları sponsorluğudur. Sözügedən qanunun 9.1.4-cü maddəsinə uyğun olaraq, tütündən istifadənin azaldılması məqsədilə tütün satışının bilavasitə, yaxud dolayı reklamının və təşviqinin, habelə tütün məmulatları sponsorluğunun reklamının və stimullaşdırılmasının bütün növləri qadağan edilir.

Eyni zamanda "Reklam haqqında" qanunun 28-ci maddəsinə əsasən tütün, tütün məmulatlarının və onların ləvazimatlarının, o cümlədən tənbəki çubuqlarının, qəlyanların, elektron siqaretlərin, siqaret kağızlarının, alışqanlarının reklamı qadağandır.

Audiovizual Şura bir daha bildirir ki, yuxarıda göstərilən məzmunda məlumatların televiziya və ya radio kanallarında yayımlanması Azərbaycan Respublikasının qanunvericiliyinin pozulması hesab olunaraq, həmin məlumatların yayımlanması halında audiovizual media subyektinə qarşı inzibati sanksiya tətbiq ediləcək.

# Atmosferi qorumaq üçün daha mükəmməl addımlar atılmalıdır

**BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi qlobal tədbirin Bakıda keçirilməsi ilə bağlı qərarın qəbul edilməsi bir daha onu təsdiq edir ki, artıq Azərbaycan beynəlxalq aləmdə daha yüksək nüfuza malik olan dövlətlərin sırasında yer alır.**







Ölkəmiz yeni uğurlara imza atdıqca daha çox diqqət mərkəzindədir və daha çox dövlətlər onun artan nüfuzunu təsdiq edir. Məhz bu uğurların nəticəsində Azərbaycan dünya dövlətlərinin əksəriyyəti tərəfindən geniş dəstəklənir, ciddi təqdir olunur. Artıq birmənalı şəkildə hamı əmindir ki, COP29 yaddaqalan və uğurlu beynəlxalq tədbirlərdən biri olacaq. COP29-un başlanacağı gün yaxınlaşdıqca iştirakçı dövlətlər bu tədbirə daha məsuliyyətlə hazırlaşır, gündəliyə daxil olunacaq məsələləri ətraflı müzakirə edirlər.

Bu tədbirin şüarı "Yaşıl dünya naminə həmrəy olaq!"dır. Mahiyyət etibarı ilə belə şüar bütün ölkələri bir-birinə bağlayacaq, onların arasında mövcud olan sədləri mümkün qədər sürətlə aradan qaldırmağa imkan yaradacaq.

Tədbirin başqa bir üstünlüyü də ondan ibarətdir ki, çoxsaylı dövlətlərin Azərbaycana gəlişi sülhün və həmrəyliyin güclənməsinə təkan verəcək. Bu da öz növbəsində Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının irəliləməsinə müəyyən qədər müsbət təsir edəcək. Bir sıra politoloqlar və siyasətçilər belə qənaətə gəlirlər ki, bu tədbirin özü sülh müqaviləsinin bağlanmasını qaçılmaz edir.

Tədbirin başlamasına hələ beş ay qalsa da, artıq bütün dünyanın gözü indidən Bakıdadır. Hamı diqqətlə burada keçirilən tədbirləri izləyir, onların Azərbaycan və dünya üçün nə dərəcədə əhəmiyyətli olmasını təyin etməyə çalışır. Bu baxımdan Bakı Ekspo Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi - "Caspian Power" də xüsusi əhəmiyyət kəsb etdi. Beləliklə, bu gün paytaxtımızda cərəyan edən hadisələr dünyanın diqqət mərkəzindədir. Hamı Azərbaycanda baş verən siyasi-iqtisadi proseslərlə ciddi maraqlanır. Demək olar ki, hər həftə tədbirdə iştirak edəcək dövlətlərin nümayəndələri Bakıya gəlir, eləcə də COP29-un azərbaycanlı təmsilçiləri qarşılıqlı olaraq xarici dövlətlərə səfərlər edirlər. Belə qarşılıqlı səfərlər ölkələr arasında əməkdaşlığın genişləndirilməsi üçün ciddi zəmin yaradır. "Yaşıl dünya" üçün birləşmək, "yaşıl iqtisadiyyat"ı inkişaf etdirmək kimi şüarlar bir daha dünyanın eyni tipli problemlərlə məşğul olduğunu təsdiq edir.

Bütün dünya həmçinin görür ki, Azərbaycan alternativ enerji mənbələrinə keçid etməkdə iradəli addımlar atır. Dəyişim göz qabağındadır, bu sahədə əldə olunan uğurlarda dünyanın aparıcı şirkətlərinin də payı var. Eyni zamanda Azərbaycan "yaşıl enerji" ilə bağlı dünya bazarında da öz yerini tutmağa çalışır.

Ona görə də COP29 platforması Azərbaycanın "yaşıl enerji" sahəsindəki iradəsinin potensialını gücləndirəcək və ölkəmzin qarşısında yeni imkanlar açılacaq. . Bunu BMT kimi nəhəng bir qurum da belə təsdiq edir: "Azərbaycanın COP29-a evsahibliyi etməsi ölkə üçün böyük uğurdur. BMT COP29-un sədrliyinə geniş miqyasda dəstək verir".

Ölkə səviyyəsində isə BMT komandası Azərbaycanda iqlim fəaliyyətlərini mobilizə etmək üçün bütün maraqlı tərəflərlə işləyir. Buna misal olaraq, BMT-nin Azərbaycan nümayəndəliyi tərəfdaşlarla birlikdə iqlim dəyişikliyi və ədalətli keçidlə bağlı ölkəboyu dialoq və fəaliyyətə təkan vermək üçün "29 iqlim müzakirəsi: COP29-a gedən yol" adlı təşəbbüs həyata keçirib.

Təkcə dövlət başçıları deyil, dünya ictimaiyyəti, qabaqcıl ölkələrin QHT rəhbərləri gündəlik fəaliyyətlərində COP29-un əhəmiyyətini vurğulayırlar. Bu günlər ABŞ, Böyük Britaniya, Almaniya, Belçika, Niderland, İtaliya, Macarıstan, Avstraliya, Pakistan, Nigeriya, Əlcəzair, Kamerun, Meksika, Hindistandan olan QHT-lər və ictimai fəallar Azərbaycan Milli QHT Forumuna məktub ünvanlayaraq COP29-a evsahibliyi edən ölkəmizə güclü dəstək ifadə edib, bizimlə həmrəy olduqlarını bəyan ediblər.

Müşahidələr göstərir ki, faciəli metereoloji hadisələr, ərzaq və su ehtiyatlarına təsir edən qeyri-sabit iqlim şəraiti, infeksion xəstəliklərin baş verməsinin yeni modelləri və ekosistemin dəyişməsi nəticəsində bir sıra xəstəliklərin yaranması insan sağlamlığı üçün böyük təhlükələr yaradır. Bir sözlə, biz onu aydın dərk edirik ki, dünya iqlim dəyişikliyindən daha mükəmməl qorunmalıdır. Həyatımız üçün daha vacib addımların atılması zəruridir.

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında

## Azərbaycan Respublikasının Qanunu

Bu Qanun Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci və 13-cü bəndlərinə uyğun olaraq, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində tikinti məqsədləri üçün süni torpaq sahələrinin yaradılması ilə bağlı ictimai münasibətləri tənzimləyir, süni torpaq sahələrinin yaradılmasının təşkilati və hüquqi əsaslarını və süni torpaq sahələrindən istifadənin, o cümlədən süni torpaq sahələrində tikinti aparılmasının xüsusiyyətlərini müəyyən edir.

### 1-ci fəsil
### ÜMUMİ MÜDDƏALAR

**Maddə 1. Süni torpaq sahəsi anlayışı**

Bu Qanunun məqsədləri üçün süni torpaq sahəsi dedikdə Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində torpağın və ya qruntun daşınıb tökülməsi, yaxud səpilməsi yolu ilə və ya başqa üsullardan istifadə olunmaqla yaradılan torpaq sahəsi başa düşülür.

**Maddə 2. Süni torpaq sahələrinin yaradılması haqqında qanunvericilik**

2.1. Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında qanunvericilik Azərbaycan Respublikasının Konstitusiyasından, Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdən, Azərbaycan Respublikasının Torpaq, Su, Şəhərsalma və Tikinti məcəllələrindən, "Hidrotexniki qurğuların təhlükəsizliyi haqqında" Azərbaycan Respublikasının Qanunundan, bu Qanundan və digər normativ hüquqi aktlardan ibarətdir.

2.2. Dəniz limanlarının fəaliyyətinin təmin edilməsi məqsədləri üçün süni torpaq sahələrinin yaradılması və onların istifadəsinin xüsusiyyətləri "Dəniz limanları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir.

**Maddə 3. Süni torpaq sahələrinin yaradılma formaları və süni torpaq sahələrinin yaradılmasına dair ümumi tələblər**

3.1. Süni torpaq sahəsi Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində su fondu torpaqlarından ayrılan torpaq sahəsində (bundan sonra - su fondu torpaq sahəsi) ayrıca və ya sahilboyu zolağa, adaya, yaxud digər süni torpaq sahəsinə bitişik formada yaradıla bilər.

3.2. Dəniz üzgüçülüyünə təhlükə və maneə yaradan süni torpaq sahələrinin yaradılması qadağandır.

3.3. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada layihə sənədlərinin ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi olmadan və həmin sənədin dövlət ekoloji ekspertizası keçirilmədən süni torpaq sahəsinin yaradılmasına yol verilmir.

### 2-ci fəsil
### SÜNİ TORPAQ SAHƏSİNİN YARADILMASI BARƏDƏ MÜRACİƏTƏ BAXILMASI QAYDASI

**Maddə 4. Süni torpaq sahəsinin yaradılması üçün müraciət**

4.1. Aidiyyəti dövlət orqanları (qurumları), hüquqi və fiziki şəxslər süni torpaq sahəsinin yaradılması ilə bağlı müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edə bilərlər.

4.2. Müraciətdə süni torpaq sahəsinin yaradılması üçün ayrılmalı su fondu torpaq sahəsinin yerləşdiyi yer, ölçüsü, süni torpaq sahəsinin yaradılması məqsədi, üzərində inşa ediləcək tikinti obyektlərinin təyinatı və növü, süni torpaq sahəsinin yaradılması və tikinti obyektlərinin inşası ilə bağlı işlərin başa çatma müddəti göstərilir.

4.3. Müraciətə aşağıdakı sənədlər və məlumatlar əlavə edilməlidir:

4.3.1. süni torpaq sahəsində həyata keçirilməsi nəzərdə tutulan tikinti niyyəti ilə bağlı "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq müfəssəl planların hazırlanması üçün lisenziyası olan layihəçinin hazırladığı süni torpaq sahəsinin baş planı (ayrılmalı su fondu torpaq sahəsinin yerləşdiyi yer, ölçüsü, yaradılması nəzərdə tutulan süni torpaq sahəsinin forması, sayı, o cümlədən sahilboyu zolaqla bitişik olan süni torpaq sahələrinin sayı və planlaşdırılan sərhədlərin cizgiləri, onların ölçüsü, ərazinin tikinti əmsalı və tikinti sıxlığı əmsalı, inşa ediləcək tikinti obyektlərinin təyinatı, növü və hündürlüyü göstərilməklə);

4.3.2. "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada layihə sənədlərinin ətraf mühitə təsirin qiymətləndirilməsi (ƏMTQ) sənədi və həmin sənədin dövlət ekoloji ekspertizasının rəyi.

4.4. Süni torpaq sahəsinin bu Qanunun 3.1-ci maddəsinə uyğun olaraq Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsinin sahilboyu zolağına bitişik yaradılması və tikinti obyektlərinin süni torpaq sahəsi ilə yanaşı sahilboyu zolaqda tikintisi nəzərdə tutulduğu hallarda bu Qanunun 4.2-ci maddəsində göstərilən müraciətdə həmçinin bu məqsəd üçün ayrılmalı olan sahilboyu zolağın altında olan torpaq sahəsinin ölçüsü göstərilməlidir. Bu zaman bu Qanunun 4.3.1-ci maddəsində nəzərdə tutulan baş planda göstərilən məlumatlarda həmçinin sahilboyu zolaqda yerləşən torpaq sahəsi haqqında məlumatlar da əks edilməlidir.

4.5. Müraciətdə və ona əlavə olunan sənədlərdə (məlumatlarda) aradan qaldırılması mümkün olan çatışmazlıqlar aşkar edildikdə, müraciət daxil olduğu gündən 2 (iki) iş günündən gec olmayaraq müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) onların aradan qaldırılması barədə məlumatı yazılı, o cümlədən elektron qaydada müraciət edənə (bundan sonra - sifarişçiyə) göndərir və formal tələblərə əməl olunmamasının hüquqi nəticələrini ona izah edir. Bütün çatışmazlıqlar sifarişçiyə eyni zamanda bildirilməlidir. Sifarişçi həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 20 (iyirmi) iş günü müddətində aradan qaldırmalıdır. Bu müddət ərzində çatışmazlıqlar aradan qaldırılmadıqda, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) sifarişçini yazılı, o cümlədən elektron qaydada 2 (iki) iş günü müddətində məlumatlandırmaqla müraciətin baxılmamış saxlanılması barədə qərar qəbul edir. Sifarişçi aşkar olunmuş çatışmazlıqları aradan qaldırdıqdan sonra müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təkrar müraciət edə bilər.

4.6. Müraciətdə və ona əlavə olunan sənədlərdə (məlumatlarda) çatışmazlıqlar aşkar edilmədikdə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) aşağıdakıları yerinə yetirir:

4.6.1. müraciətə əlavə olunmuş süni torpaq sahəsinin baş planının ərazilərin zonalaşdırılması, tikintinin növü və miqyası ilə bağlı müfəssəl qaydalara və yaşayış məntəqələrində yanaşı sahələrdə tikinti aparılmasının əsas şərtlərinə uyğun olub-olmaması barədə ən geci15 (on beş) iş günü müddətində rəy verilməsini;

4.6.2. bu Qanunun 4.6.1-ci maddəsində nəzərdə tutulan rəy müsbət olduğu təqdirdə 2 (iki) iş günü müddətində - süni torpaq sahəsinin yaradılması üçün ayrılmalı su fondu torpaq sahəsinin yerləşdiyi yeri, onun ölçülərini, sərhədlərini, habelə döngə nöqtələrinin koordinatlarını, yaradılması başa çatdıqdan sonra süni torpaq sahəsinin aid ediləcəyi kateqoriyası və məqsədli təyinatı haqqında qeydlərini əks etdirən yerquruluşu planının sifarişçinin vəsaiti hesabına hazırlanması və ayrılmalı su fondu torpaq sahəsinə, eləcə də yaradılması nəzərdə tutulan süni torpaq sahəsinə hesablanan icarə haqqının məbləği haqqında arayış verilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) sorğu göndərilməsini. Sorğuya barəsində müsbət rəy verilmiş süni torpaq sahəsinin baş planının surəti əlavə olunur, habelə sorğuda planlaşdırılan tikinti obyektlərinin təyinatı və növündən asılı olaraq yaradılması başa çatdıqdan sonra süni torpaq sahəsinin aid ediləcəyi kateqoriyası və məqsədli təyinatı barədə təklif göstərilir;

4.6.3. bu Qanunun 4.6.2-ci maddəsində nəzərdə tutulan yerquruluşu planı təqdim olunduğu gündən 2 (iki) iş günü müddətində - süni torpaq sahəsinin yaradılması üçün ayrılması nəzərdə tutulan su fondu torpaq sahəsində Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq sifarişçinin vəsaiti hesabına aparılan mühəndis-axtarış işlərinin nəticələrinə dair texniki hesabatın hazırlanmasının təşkilini və həmin hesabata dair rəy verilməsi üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) sorğu göndərilməsini;

4.6.4. bu Qanunun 4.6.1-civə 4.6.3-cü maddələrində nəzərdə tutulan rəylər müsbət olduğu təqdirdə sonuncu rəy təqdim olunduğu gündən 2 (iki) iş günü müddətində- süni torpaq sahəsinin yaradılması təklifi ilə fəaliyyət sferasına (maraqlarına) toxunulan müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) rəy bildirilməsi üçün sorğu göndərilməsini.

4.7. Bu Qanunun 4.6.4-cü maddəsində nəzərdə tutulan rəy ən geci 1 (bir) ay müddətində bildirilməlidir. Bu müddət ərzində rəy bildirilmədikdə müsbət rəy verilmiş hesab olunur.

4.8. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 4.7-ci maddəsinə əsasən rəy bildirildiyi və ya bildirilmiş hesab olunduğu gündən ən geci 5 (beş) iş günü müddətində həmin müraciəti bu Qanunun 4.3.1-ci, 4.3.2-ci,4.6.1- 4.6.4-cü maddələrində göstərilən sənədlərlə birlikdə baxılmaq üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim edir.

**Maddə 5. Süni torpaq sahəsinin yaradılması üçün müraciətə baxılması**

5.1. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) süni torpaq sahəsinin yaradılması ilə bağlı bu Qanunun 4.8-ci maddəsinə uyğun olaraq təqdim edilən müraciətlə bağlı süni torpaq sahəsinin yaradılması təklifinin qiymətləndirilməsi, o cümlədən süni torpaq sahəsinin yaradılmasının və həmin torpaq sahəsində inşa olunacaq tikinti obyektlərinin xüsusiyyətlərindən irəli gələrək onun milli təhlükəsizliyə, ətraf mühitə, dəniz üzgüçülüyünə, su fondu torpaqlarından iqtisadi (təsərrüfat) ehtiyacları üçün istifadəyə mümkün təsirinin qiymətləndirilməsi məqsədilə təklifi aidiyyəti dövlət orqanlarına (qurumlarına), müvafiq bələdiyyələrə göndərə, habelə digər tədbirlər görə bilər.

5.2. Müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu Qanunun 4.8-ci maddəsinə uyğun olaraq təqdim edilən müraciətlə bağlı ən geci2 (iki) ay müddətində süni torpaq sahəsinin yaradılması təklifini araşdırdıqdan sonra, təklifi tam və ya qismən nəzərə almaqla, süni torpaq sahəsinin yaradılması məqsədilə su fondu torpaq sahəsinin, bu Qanunun 4.4-cü maddəsində nəzərdə tutulduğu hallarda həmçinin sahilboyu zolağın altında olan torpaq sahəsinin ayrılması, yaxud ayrılmasından imtina barədə qərar qəbul edir.

5.3. Süni torpaq sahəsinin yaradılması barədə qərara süni torpaq sahəsinin yaradılması üçün ayrılmış su fondu torpaq sahəsinin, bu Qanunun 4.4-cü maddəsində nəzərdə tutulduğu hallarda həmçinin ayrılmış sahilboyu zolağın altında olan torpaq sahəsinin bu Qanunun 4.6.2-ci maddəsində nəzərdə tutulan yerquruluşu planı əlavə olunur.

**Maddə 6. Süni torpaq sahəsinin yaradılması məqsədilə su fondu torpaq sahəsinin ayrılması barədə qərar**

6.1. Süni torpaq sahəsinin yaradılması məqsədilə su fondu torpaq sahəsinin ayrılması barədə qərarda aşağıdakılar göstərilir:

6.1.1. ayrılmış su fondu torpaq sahəsinin, habelə bu Qanunun 4.4-cü maddəsində nəzərdə tutulduğu hallarda ayrılmış sahilboyu zolağın altında olan torpaq sahəsinin ölçüləri (sahəsi);

6.1.2. yaradılması nəzərdə tutulan süni torpaq sahəsinin forması, sayı, o cümlədən sahilboyu zolaqla bitişik olan süni torpaq sahələrinin sayı;

6.1.3. yaradılması nəzərdə tutulan süni torpaq sahəsində tikintisi başa çatmış tikinti obyektlərinin istismarına icazə verildikdən sonra həmin torpaq sahəsinin aid ediləcəyi kateqoriyası və məqsədli təyinatı;

6.1.4. su fondu torpaq sahəsi və yaradılması nəzərdə tutulan süni torpaq sahəsi üzərində sifarişçinin hüququnun növü (istifadə, icarə);

6.1.5. dövlət və bələdiyyə orqanlarının öz səlahiyyətlərini həyata keçirməsinin təmin olunması üçün süni torpaq sahəsinin aid ediləcəyi inzibati ərazi vahidi (müvafiq yaşayış məntəqəsi göstərilməklə).

6.2. Süni torpaq sahəsinin yaradılması məqsədilə su fondu torpaq sahəsinin, bu Qanunun 4.4-cü maddəsində nəzərdə tutulduğu hallarda həmçinin ayrılmış sahilboyu zolağın altında olan torpaq sahəsinin ayrılması barədə qərarda bu Qanunun 6.1-ci maddəsində göstərilənlərlə yanaşı həmçinin süni torpaq sahəsinin yaradılması və həmin torpaq sahəsində tikinti obyektlərinin inşası məqsədilə Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun tikintiyə icazə alınması üçün 2 (iki) ildən çox olmayan, süni torpaq sahəsinin yaradılması və həmin torpaq sahəsində tikinti obyektlərinin tikintisi üçün isə 3 (üç) ildən az, lakin 6 (altı) ildən çox olmayan müddət müəyyən olunur.

6.3. Bu Qanunun 6.2-ci maddəsində müəyyən edilmiş müddətlər sifarişçinin əsaslandırılmış müraciəti əsasında müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən 2 (iki) ildən çox olmamaqla uzadıla bilər.

### 3-cü fəsil
### SÜNİ TORPAQ SAHƏLƏRİNDƏ TİKİNTİ FƏALİYYƏTİ VƏ SÜNİ TORPAQ SAHƏLƏRİ İLƏ BAĞLI MÜLKİYYƏT MƏSƏLƏLƏRİ

**Maddə 7. Süni torpaq sahələrinin yaradılması və həmin torpaq sahəsində tikinti fəaliyyətinin xüsusiyyətləri**

7.1. Süni torpaq sahəsində tikinti fəaliyyəti bu Qanunda müəyyən edilmiş xüsusiyyətlər nəzərə alınmaqla Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin tələblərinə uyğun olaraq həyata keçirilir.

7.2. Süni torpaq sahəsinin yaradılması ilə bağlı verilən tikintiyə icazədə həmçinin həmin torpaq sahəsində tikinti obyektlərinin inşası və qurulmasıda nəzərdə tutulmalıdır.

7.3. Süni torpaq sahəsində tikinti niyyətinin həyata keçirilməsi ilə bağlı Azərbaycan Respublikası Şəhərsalma və Tikinti Məcəlləsinin 75.5.1-ci maddəsinin məqsədləri üçün tikinti layihəsinin bu Qanunun 4.3.1-ci maddəsində nəzərdə tutulan süni torpaq sahəsinin baş planına uyğunluğu yoxlanılır.

7.4. Yaradılması forması və üsulundan asılı olmayaraq süni torpaq sahəsinin yaradılması Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən həyata keçirilən tikintiyə dövlət nəzarəti çərçivəsində tikinti işlərinin ayrıca mərhələsi hesab edilir və həmin tikinti işlərinin tikinti layihəsinə uyğun olaraq aparılması və başa çatması tikintiyə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən təsdiq edilir.Tikintiyə dövlət nəzarətini həyata keçirən müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) bu barədə 5 (beş) iş günü müddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) məlumat verməlidir.

**Maddə 8. Süni torpaq sahələrinin yaradılması ilə bağlı mülkiyyət və icarə münasibətlərinin tənzimlənməsi**

8.1. Bu Qanuna uyğun olaraq süni torpaq sahəsinin yaradılması məqsədilə su fondu torpaq sahəsi sifarişçi hüquqi və ya fiziki şəxs olduqda icarə hüququ ilə, sifarişçi dövlət orqanı (qurumu) olduqda isə istifadə hüququ ilə ayrılır.

8.2. Süni torpaq sahəsinin yaradılması ilə bağlı tikinti işləri Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə uyğun olaraq başa çatdıqda yaranmış süni torpaq sahəsi Azərbaycan Respublikasının Torpaq Məcəlləsində müəyyən olunmuş torpaq sahəsi statusuna malik olur və süni torpaq sahəsi haqqında məlumatlar torpaq qanunvericiliyi ilə müəyyən olunmuş qaydada dövlət torpaq kadastrına daxil edilir.

8.3. Süni torpaq sahəsi onun yaradılması başa çatdığı gündən dövlət mülkiyyəti hesab edilir. Süni torpaq sahəsinin və ya onun bir hissəsinin özgəninkiləşdirilməsinə yol verilmir.

8.4. Süni torpaq sahəsi haqqında məlumatlar bu Qanunun 8.2-ci maddəsinə uyğun olaraq dövlət torpaq kadastrına daxil edildiyi gündən:

8.4.1. həmin torpaq sahəsi (süni torpaq sahəsinin baş planında dövlət mülkiyyətində olacaq infrastruktur obyektlərinin və dövlət xidmətlərinin göstərilməsi üçün nəzərdə tutulan obyektlərin yerləşdiyi hissə istisna olmaqla) üzərində hüquqi və ya fiziki şəxs olan sifarişçinin icarə, dövlət orqanı (qurumu) olan sifarişçinin isə istifadə hüquqları yaranır.İcarə hüququ yaranmış sifarişçi 5 (beş) işgünümüddətində müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanla (qurumla) hüquqlarının dövlət qeydiyyatına alınması üçün əsas olan torpaq icarəsi müqaviləsini bağlamalıdır;

8.4.2. hüquqi və ya fiziki şəxs olan sifarişçinin süni torpaq sahəsinə görə icarə haqqı ödəmək vəzifəsi yaranır. Bu zaman sifarişçisu fondu torpaqsahəsinə görə icarə haqqı ödəməkdən azad olunur;

8.4.3. bu Qanunun 5.3-cü maddəsində nəzərdə tutulan qərarla ayrılmış sahilboyu zolağa və sahilboyu zolağa bitişik formada yaradılmış süni torpaq sahəsinə münasibətdə Azərbaycan Respublikası Torpaq Məcəlləsinin 46-cı maddəsinin 2-1-ci hissəsinin tələbləri tətbiq edilmir.

8.5.Hüquqi və ya fiziki şəxs olan sifarişçi süni torpaq sahəsində, habelə bu Qanunun 5.2-ci maddəsində nəzərdə tutulduğu hallarda həmçinin sahilboyu zolağın altında olan torpaq sahəsində inşa etdiyi bina və qurğuların istismarına icazə verildiyi gündən həmin bina və qurğular üzərində mülkiyyət hüquqlarının qeydiyyata alınması üçün müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) müraciət edə bilər. Sifarişçi bina və qurğulara mülkiyyət hüquqları daşınmaz əmlakın dövlət reyestrində qeydiyyata alındığı gündən onların yerləşdiyi torpaq sahəsinə görə icarə haqqı ödəməkdən azad olunur və süni torpaq sahəsi bu Qanunun 6.1.3-cü maddəsində göstərilən kateqoriyaya və məqsədli təyinataaid edilmiş hesab olunur, bu barədə məlumatlar isə dövlət torpaq kadastrına daxil edilir.

8.6. Bu Qanunun 6.3-cü maddəsi nəzərə alınmaqla bu Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş müddətdə süni torpaq sahəsinin yaradılması başa çatmadıqda, su fondutorpaq sahəsi üzərində hüquqi və ya fiziki şəxs olan sifarişçinin icarə hüququna xitam verilmiş hesab edilir.

8.7. Yaradılması başa çatmış süni torpaq sahəsində bu Qanunun 6.3-cü maddəsi nəzərə alınmaqla bu Qanunun 6.2-ci maddəsində nəzərdə tutulmuş müddətdə tikinti obyektlərinin tikintisi başa çatmadıqda, tikintisi başa çatmış və istismarına icazə verilmiş tikinti obyektlərinin yerləşdiyi hissələr istisna olmaqla, bu Qanunun 8.3-cü maddəsinə uyğun olaraq hüquqi və ya fiziki şəxs olan sifarişçinin icarə hüququnun yarandığı süni torpaq sahəsi üzərində icarə hüququna xitam verilmiş hesab edilir.

8.8. Süni torpaq sahəsində dövlətə məxsus daşınmaz əmlak obyektləri üzərində mülkiyyət, icarə və istifadə, habelə süni torpaq sahəsi və ya onun hissələri üzərində icarə və istifadə hüquqlarını əldə etməkdə hüquqi və fiziki şəxs olan sifarişçi üstünlük hüququna malikdir.

8.9. Bu Qanunun 8.8-ci maddəsinin müddəaları aşağıdakı hallara şamil edilmir:

8.9.1.dövlətə məxsus daşınmaz əmlak obyektləri üzərində mülkiyyət, icarə və istifadə hüquqlarının infrastrukturun yaradılması və dövlət xidmətlərinin göstərilməsi ilə bağlı ötürülməsinə;

8.9.2. bu Qanunun 8.4.1-ci maddəsinə uyğun olaraq infrastrukturun yaradılması və dövlət xidmətlərinin göstərilməsi üçün ayrılmış torpaq sahələri üzərində icarə və istifadə hüquqlarının həmin məqsədlərlə ötürülməsinə.

### 4-cü fəsil
### YEKUN MÜDDƏALAR

**Maddə 9. Süni torpaq sahəsinin yaradılması ilə bağlı icarə haqqının məbləği**

Süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinəvə süni torpaq sahəsinə görə ödənilən icarə haqqının məbləği müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən olunur.

**Maddə 10. Bu Qanunun pozulmasına görə məsuliyyət**

Bu Qanunun tələblərini pozan şəxslər qanunda nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 may 2024-cü il*

# "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının 2024-cü il 7 may tarixli 1143-VIQ nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikası Qanununun 4.1-ci maddəsində, 4.5-ci maddəsinin birinci, dördüncü və beşinci cümlələrində, 4.6-cı maddəsinin birinci abzasında, 4.6.2-ci maddəsinin birinci cümləsində, 4.6.3-cü, 4.6.4-cü, 4.8-ci (hər iki halda), 5.1-ci, 5.2-ci, 6.3-cü maddələrində, 7.4-cü maddəsinin birinci və ikinci (hər iki halda) cümlələrində, 8.4.1-ci maddəsinin ikinci cümləsində, 8.5-ci maddəsinin birinci cümləsində və 9-cu maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Qanunun 4.8-ci (ikinci halda), 5.1-ci, 5.2-ci, 6.3-cü və 9-cu maddələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Nazirlər Kabineti nəzərdə tutulur;

1.3. həmin Qanunun 4.1-ci maddəsində, 4.5-ci maddəsinin birinci, dördüncü və beşinci cümlələrində, 4.6-cı maddəsinin birinci abzasında və 4.8-ci maddəsində birinci halda "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi nəzərdə tutulur;

1.4. həmin Qanunun 4.6.2-ci maddəsinin birinci cümləsində, 7.4-cü maddəsinin ikinci (ikinci halda) cümləsində, 8.4.1-ci maddəsinin ikinci cümləsində və 8.5-ci maddəsinin birinci cümləsində "orqan (qurum)" dedikdə Əmlak Məsələləri Dövlət Xidməti qismində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi nəzərdə tutulur;

1.5. həmin Qanunun 4.6.3-cü maddəsində, 7.4-cü maddəsinin birinci və ikinci (birinci halda) cümlələrində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi nəzərdə tutulur;

1.6. həmin Qanunun 4.6.4-cü maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Müdafiə Nazirliyi, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Energetika Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti, Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyi, Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti və "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

2.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının "Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.2. həmin Qanunun 9-cu maddəsinə uyğun olaraq, süni torpaq sahəsinin yaradılması məqsədilə ayrılmış su fondu torpaq sahəsinə və süni torpaq sahəsinə görə ödənilən icarə haqqının məbləğini bir ay müddətində təsdiq edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.3. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2024-cü il*

## "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1035-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar Azərbaycan Respublikasının bəzi qanunlarında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 15-ci bəndini rəhbər tutaraq, "Nağdsız hesablaşmalar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1035-VIQD nömrəli Qanununun icrası ilə əlaqədar qərara alır:

1. "Əhalinin sağlamlığının qorunması haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, № 6, maddə 497 (Cild I) 9-cu maddəsinin üçüncü hissəsinə "çərçivəsində" sözündən sonra "(bir nəzarət-kassa aparatının çeki üzrə)" sözləri əlavə edilsin.

2. "Özəl tibb fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 129 (Cild I) 13-cü maddəsinin dördüncü hissəsinə "çərçivəsində" sözündən sonra "(bir nəzarət-kassa aparatının çeki üzrə)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2024-cü il*

## A.Ə.Ağayevin Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsini rəhbər tutaraq **qərara alıram:**

Asif Əzizağa oğlu Ağayev Beyləqan Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2024-cü il*

## R.F.İsmayılovun Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Rəşad Fail oğlu İsmayılov Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2024-cü il*

## Ş.Ş.Abdullayevin Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Şahin Şakir oğlu Abdullayev Azərbaycan Respublikasının Oman Sultanlığında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2024-cü il*

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Müstəqillik Günü münasibətilə Sizə və Azərbaycan xalqına ən səmimi təbriklərimizi çatdırıram. Xalqınızın şücaətini, qətiyyətini və gücünü təcəssüm etdirən bu əlamətdar gün ölkənizin tarixində önəmli bir mərhələdir.

Azərbaycanın keçdiyi müstəqillik yolunu xatırlayarkən, dünya bu illər ərzində əldə etdiyiniz nailiyyətləri və irəliləyişləri yüksək qiymətləndirir.

Xalqlarımız arasında münasibətlər qarşılıqlı hörmət, əməkdaşlıq və ortaq dəyərlər əsasında qurulub.

Biz Azərbaycanın regionda və onun hüdudlarından kənarda sülhün, sabitliyin və rifahın təşviqi istiqamətində göstərdiyi səyləri təqdir edirik.

Bu əlamətdar günü qeyd edərkən Azərbaycanı onun bütün vətəndaşları üçün daha parlaq və firavan gələcəyə aparan fəaliyyətinizdə müstəqillik ruhunun Sizi həmişə ilhamlandırmasını arzulayıram.

Sizi bir daha bu bayram münasibətilə təbrik edirəm.

Qarşıdan gələn illərdə Sizə və Azərbaycan xalqına sevinc dolu bayramlar və davamlı uğurlar diləyirəm.

Zati-aliləri, Sizə ən yüksək qardaşlıq ehtiramlarımı çatdırıram.

*Hörmətlə,*

***Adama BARROU,***
***Qambiya Respublikasının Prezidenti***

## Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı, 14-cü və 15-ci bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikası Mülki Prosessual Məcəlləsinin (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 1, maddə 17 (Cild I); 2024, № 1, maddə 13; Azərbaycan Respublikasının 2024-cü il 23 fevral tarixli 1099-VIQD nömrəli, 29 mart tarixli 1110-VIQD nömrəli və 1113-VIQD nömrəli qanunları) 350.4-cü maddəsində "3 gün müddətində" sözləri "dərhal" sözü ilə əvəz edilsin.

**Maddə 2.** Azərbaycan Respublikasının Ailə Məcəlləsində (Azərbaycan Respublikasının Qanun vericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 126 (Cild I); Azərbaycan Respublikasının 2024-cü il 29 mart tarixli1110-VIQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 11.1-ci maddədə "keçdiklərini təsdiq edən arayışın təqdim edilməsi" sözləri "keçmələri" sözü ilə əvəz edilsin;

2.2. 65.5-ci, 161.4-cü, 162.3-cü, 163.3-cü və 166.2-1-ci maddələrdə "qanuni qüvvəyə minmiş məhkəmə qətnaməsindən" sözləri "məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədən" sözləri ilə əvəz edilsin;

2.3. 68.6-cı maddə aşağıdakı redaksiyada verilsin:

"68.6.Valideynlik hüquqlarının məhdudlaşdırılması barədə məhkəmənin qətnaməsi qanuni qüvvəyə mindikdən sonra həmin qətnamədənçıxarış dərhal hakim tərəfindən gücləndirilmiş elektron imza ilə təsdiqlənərək "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqanın (qurumun) informasiya sisteminə ötürülür.";

2.4. 118.20-ci maddədə "3 gün müddətində" sözləri "dərhal" sözü ilə əvəz edilsin;

2.5. 164.5-ci maddədə "akt qeydi üzrə" sözləri "vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı haqqında" sözləri ilə əvəz edilsin və həmin maddəyə "şəxs" sözündən sonra ", yaxud onun qanuni nümayəndəsi, etibarnamə ilə səlahiyyət verdiyi şəxs, barəsində akt qeydi tərtib edilmiş şəxs öldükdə isə yaxın qohumları" sözləri əlavə edilsin;

2.6. 171.1-ci maddənin birinci cümləsində "şəxsən yazılı ərizə verirlər" sözləri "ərizə ilə müraciət edirlər" sözləri ilə əvəz edilsin;

2.7. 171.2-ci və 178.2-ci maddələr ləğv edilsin;

2.8. 180.1-ci maddəyə "nikahın pozulmasını" sözlərindən sonra "bu Məcəllənin 23.3-cü maddəsinə uyğun olaraq "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən, habelə" sözləri əlavə edilsin;

2.9. 183-cü maddənin birinci cümləsinə "qeydə alınması" sözlərindən sonra "(qeydiyyat bu Məcəllənin 23.3-cü maddəsinə əsasən "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsi)" sözləri əlavə edilsin.

**Maddə 3.** "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 12, maddə 740 (Cild I); 2024,№ 1, maddələr 10, 16) aşağıdakı dəyişikliklər edilsin:

3.1.2.0.3-cü maddəyə "qeydiyyatı" sözündən sonra ", habelə şəhadətnamələrin verilməsi" sözləri əlavə edilsin;

3.2. 12-ci maddə üzrə:

3.2.1. adına "qeydiyyatı"sözündən sonra", habelə şəhadətnamələrin verilməsi" sözləri əlavə edilsin;

3.2.2. 12.2-ci maddənin birinci abzasına və 12.3-cü maddəyə "qeydə alınması" sözlərindən sonra "(qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsi)" sözləri əlavə edilsin;

3.2.3. 12.2.2-ci maddədə "qeydiyyat" sözü "qeydə alınması (qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsi)" sözləri ilə əvəz edilsin;

3.3. 13-cü maddənin adına "qeydə alınması" sözlərindən sonra "və ilkin şəhadətnamələrin verilməsi" sözləri əlavə edilsin;

3.4. 16.3-cü maddə üzrə:

3.4.1.birinci abzasa"qeydiyyatına" sözündən sonra ", habelə şəhadətnamələrin verilməsinə" sözləri əlavə edilsin;

3.4.2. aşağıdakı məzmunda 16.3.3-1-ci maddə əlavə edilsin:

| | |
|---|---|
| 16.3.3-1.məhkəmə qətnaməsi əsasında nikahın pozulmasının qeydə alınmasına (qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindənçıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsinə) görə (qətnamədə dövlət rüsumunun tərəflərdən hansının ödəməli olduğu göstərilmədikdə birinci müraciət etmiş tərəfdən) | 15 ABŞ dolları |

3.4.3. 16.3.4-cü maddəyə "qeydə alınmasına" sözlərindən sonra "(qeydiyyat "Elektron məhkəmə" informasiya sistemi vasitəsilə daxil olmuş məhkəmə qətnaməsindən çıxarışa əsasən aparıldıqda şəhadətnamənin verilməsinə)" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 may 2024-cü il*

## "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanununun tətbiqi və "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Müəyyən edilsin ki:

1.1. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 68.6-cı maddəsində nəzərdə tutulmuş müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Azərbaycan Respublikasının Prezidenti həyata keçirir;

1.2. həmin Məcəllənin 68.6-cı maddəsində "orqan (qurum)" dedikdə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi nəzərdə tutulur.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti "Azərbaycan Respublikasının Mülki Prosessual Məcəlləsində, Azərbaycan Respublikasının Ailə Məcəlləsində və "Dövlət rüsumu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 21 may tarixli 1154-VIQD nömrəli Qanunundan irəli gələn məsələləri həll etsin.

3. "Azərbaycan Respublikasının Ailə Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 6 mart tarixli 297 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 3 (I kitab), maddə 164 (Cild I) 2-ci hissəsində aşağıdakı dəyişikliklər edilsin:

3.1. 2.1-ci bənddə "68.4-1-ci maddəsində" sözləri "68.4-1, 68.6-cı maddələrində" sözləri ilə əvəz edilsin;

3.2. 2.3-1-ci bəndə "65.5," rəqəmlərindən sonra "68.6," rəqəmləri əlavə edilsin;

3.3. 2.4-cü bənddən "68.6," rəqəmləri çıxarılsın;

3.4. 2.4-1-ci bənddən "179," rəqəmləri çıxarılsın;

3.5. 2.4-2-ci bəndə "163.2" rəqəmlərindən sonra ",179" rəqəmləri əlavə edilsin;

3.6. 2.11-ci bənddə "155.5, 178.2-ci" sözləri "155.5-ci" sözləri ilə əvəz edilsin;

3.7. 2.18-ci bənddən "rayon (şəhər)" sözləri çıxarılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2024-cü il*

## Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 yanvar tarixli 488 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verməsi Qaydası"nda dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 25 yanvar tarixli 488 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 1, maddə 78 (Cild I) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası İpoteka və Kredit Zəmanət Fondunun yaşayış sahələrini satmaq öhdəliyi ilə kirayəyə verməsi Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 5-ci hissə üzrə:

1.1. 5.2-ci bəndin dördüncü cümləsi çıxarılsın;

1.2. 5.4-cü bənd aşağıdakı redaksiyada verilsin:

"5.4. Fond razılıq barədə qərarını elektron sistemdə yerləşdirdiyi gündən 7 iş günü müddətində müraciət edən şəxs yaşayış sahəsini seçir və yaşayış sahəsi onun tərəfindən seçildiyi gündən 7 iş günü müddətində kirayə müqaviləsinin rəsmiləşdirilməsi həyata keçirilir.";

1.3. 5.6-cı bənddə "müddətə" sözü "müddətlərə" sözü ilə əvəz edilsin;

1.4. 5.7-ci bəndə "5.2-ci" sözlərindən sonra ", 5.4-cü" sözləri əlavə edilsin.

2. 9-cu hissə üzrə:

2.1. 9.3-cü bəndin birinci abzasında "verir" sözü "verilməsi ilə bağlı tədbirlərə başlayır" sözləri ilə əvəz edilsin;

2.2. 9.5-ci bəndə "verilməsi" sözündən sonra "ilə bağlı tədbirlərə başlanılması" sözləri əlavə edilsin;

2.3. aşağıdakı məzmunda 9.6-cı bənd əlavə edilsin:

"9.6. Bu Qaydanın 9.3.3-cü yarımbəndində müəyyən edilən əsasla Fond kirayə müqaviləsinə vaxtından əvvəl xitam verilməsi ilə bağlı tədbirlərə başladıqda kirayəçi kirayə müqaviləsi üzrə yaranmış borc məbləğini kirayə münasibətlərinə xitam verilənədək (məhkəməyə müraciət edildiyi halda - məhkəmə qətnaməsi çıxarılanadək) tam ödəyərsə, Fond kirayəçi ilə kirayə münasibətlərini (məhkəməyə müraciət edildiyi halda - barışıq sazişi bağlamaqla) davam etdirir.".

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 iyun 2024-cü il*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 293 QƏRAR Bakı şəhəri, 3 iyun 2024-cü il

### “Ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürərək Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə müqavilə bağlamış sahibkarlıq subyektlərinə müasir suvarma sistemlərinin alınması üçün kredit təşkilatlarının öz vəsaitləri hesabına veriləcək kreditlər üzrə dövlət zəmanətinin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Kənd təsərrüfatına dövlət dəstəyinin və aqrar sahədə lizinq fəaliyyətinin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 19 dekabr tarixli 413 nömrəli Fərmanında dəyişiklik edilməsi və Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyinin vəsaitindən istifadə ilə bağlı bəzi məsələlərin tənzimlənməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 30 noyabr tarixli 2367 nömrəli Fərmanının 2.1.2-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürərək Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi ilə müqavilə bağlamış sahibkarlıq subyektlərinə müasir suvarma sistemlərinin alınması üçün kredit təşkilatlarının öz vəsaitləri hesabına veriləcək kreditlər üzrə dövlət zəmanətinin verilməsi Qaydası" təsdiq edilsin (əlavə olunur).

2. Müəyyən edilsin ki:

2.1. bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Qaydaya uyğun olaraq sahibkarlıq subyektlərinə veriləcək 280 (iki yüz səksən) milyon manat kredit portfeli 168 (yüz altmış səkkiz) milyon manat məbləğinədək dövlət zəmanəti ilə təmin edilir;

2.2. bu Qərarın 2.1-ci bəndində nəzərdə tutulan dövlət zəmanəti Azərbaycan Respublikasının Maliyyə Nazirliyi ilə Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi arasında bağlanılan, bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya əlavə - "Ərzaqlıq buğda istehsalı ilə bağlı öhdəlik götürərərək fəaliyyət göstərən sahibkarlıq subyektlərinə verilən kreditlərin dövlət zəmanəti ilə təmin edilməsi barədə Çərçivə Zəmanət Sazişi" əsasında verilir.

3. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi "Dövlət borcu haqqında" Azərbaycan Respublikası Qanununun tələbləri nəzərə alınmaqla, sahibkarlıq subyektlərinin dövlət zəmanəti verilmiş, lakin icra edilməmiş borc öhdəliyini Dövlət borcu və zəmanəti üzrə öhdəliklərin Təminat Fondunun vəsaiti hesabına yerinə yetirsin.

4. Bu Qərarın 1-ci hissəsi ilə təsdiq edilən Qaydaya uyğun olaraq verilən dövlət zəmanəti 2028-ci il yanvarın 1-dək dövlət zəmanəti verilərək bağlanılmış bütün kredit müqavilələrinə şamil edilir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 294 QƏRAR Bakı şəhəri, 3 iyun 2024-cü il

### “Standartlaşdırma üzrə texniki komitələrin yaradılması və fəaliyyətinin təşkili Qaydaları”nın təsdiq edilməsi haqqında

"Standartlaşdırma haqqında" Azərbaycan Respublikasının 2019-cu il 17 may tarixli 1587-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 12 iyul tarixli 780 nömrəli Fərmanının 1.1.8-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Standartlaşdırma üzrə texniki komitələrin yaradılması və fəaliyyətinin təşkili Qaydaları" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

*Qərarın əlavəsi ilə www.azerbaijan-news.az və nk.gov.az saytında tanış ola bilərsiniz.*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 295 QƏRAR Bakı şəhəri, 6 iyun 2024-cü il

### “Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

"Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29), Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasının və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasının keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 13 yanvar tarixli 4264 nömrəli Sərəncamının 3-cü hissəsinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasında ixrac-idxal əməliyyatları üzrə gömrük rüsumlarının dərəcələri haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1998-ci il 22 aprel tarixli 91 nömrəli Qərarına (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 4, maddə 299 (Cild I); 2024, № 1, maddə 78, № 3, maddə 354) aşağıdakı məzmunda 4.35-1-ci bənd əlavə edilsin:

"4.35-1. COP29 Azərbaycan Əməliyyat Şirkətinin təsdiqedici sənədinə əsasən COP29 beynəlxalq tədbiri çərçivəsində ölkəyə gətirilən mallar.".

2. Bu Qərar 2024-cü il martın 1-dən tətbiq olunur və 2024-cü il dekabrın 1-dək qüvvədədir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

BAKU ENERGY WEEK

# BAKI ENERJİ HƏFTƏSİ

## Qlobal tərəfdaşlığın etibarlı platforması



# Azərbaycanı dünyaya tanıdan əməkdaşlıq platforması

### Bakı Enerji Həftəsi enerji sektorunda yeni əlaqələrin inkişafına xidmət edən tədbirlərlə əlamətdar oldu

*Əvvəli 1-ci səh.*

Təsadüfi deyil ki, bu tədbir çərçivəsində təşkil olunan sərgilər şirkətlərə öz məhsullarını nümayiş etdirmək üçün əla fürsət yaratdı. 600-dən çox nümayəndənin iştirak etdiyi Bakı Enerji Forumunda isə həm Azərbaycan, həm də Xəzər regionu üçün vacib olan enerji məsələləri gündəmdə oldu.

1994-cü ildən bəri hər il keçirilməklə ənənə halını alan bu tədbir enerji sənayesində çalışan şirkətləri və onların liderlərini bir araya gətirir. Artıq 30 ildir ki, bu tədbir enerji sahəsində aparıcı şirkətlərin təmsilçilərinin görüş yerinə çevrilib və burada gələcək əməkdaşlığa dair memorandumlar, eləcə də saziş və müqavilələr imzalanıb. Ən əsası isə bütün dünyanın diqqətini Azərbaycana, onun uğurlarına yönəldir.

Budəfəki sərgidə Azərbaycanla yanaşı, enerji sahəsində fəaliyyət göstərən şirkətləri ilə tanınan ABŞ, Rusiya, Çin, Səudiyyə Ərəbistanı, Almaniya, Avstraliya, Birləşmiş Ərəb Əmirlikləri, Böyük Britaniya, Çin, Əlcəzair, Finlandiya, Fransa, Hindistan, İsrail, İsveç, İtaliya, Latviya, Qazaxıstan, Qətər, Macarıstan, Monako, Niderland, Norveç, Türkiyə, Yaponiya kimi dövlətlərin şirkətləri iştirak edirdilər. Prezident İlham Əliyevin tədbirin açılış mərasimində iştirakı və çıxışı, o cümlədən müxtəlif dövlət başçılarının təbrik məktubları Bakı Enerji Həftəsinin yüksək, həm də qlobal statusunu təsdiq edir.

#### İlham ƏLİYEV: "Sözümüz imzamız qədər dəyərlidir"

Bakı Enerji Həftəsinin əsas hadisəsi Prezident İlham Əliyevin 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgilərinin rəsmi açılış mərasimindəki çıxışı oldu. 1994-cü ildə I Xəzər Neft və Qaz Sərgisinin keçirilməsindən və "Əsrin müqaviləsi"nin imzalanmasından sonra Azərbaycanın neft-qaz sənayesindəki uğurlarına diqqət çəkən Prezident İlham Əliyev bütün bunların iqtisadiyyatımıza bir nəfəs verdiyini, eyni zamanda vaxtilə təbii qazı idxal edən ölkəmizin indi onu ixrac etdiyini bildirdi. Eyni zamanda dövlət başçısı bir neçə ay bundan öncə keçirilmiş "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının toplantısında Azərbaycanın ümumavropa qaz təchizatçısı adlandırılmasının həqiqət olduğunu dedi. Bəli, bu gün 6-sı Avropa ölkəsi olmaqla, 8 ölkə Azərbaycandan təbii qaz alır. Bu il isə Azərbaycanın təbii qaz ixracı 24 milyard kubmetrdən artıq olacaq.

Əlbəttə ki, Azərbaycan hər bir sahədə olduğu kimi, energi təhlükəsizliyi ilə bağlı məsələlərdə də etibarlı tərəfdaş olduğunu sübut edib. Bu barədə danışan Prezident İlham Əliyev bəyan etdi ki, bizim sözümüz imzamız qədər dəyərlidir: "İdxaldan asılı olan ölkələr, əlbəttə ki, ən etibarlı və uzunmüddətli tərəfdaşlar və müqavilələr axtarır. Onlar Azərbaycanın simasında məhz bunu əldə edirlər. Bizim sözümüz imzamız qədər dəyərlidir. Son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub".

#### Azərbaycanda "yaşıl enerji"yə keçid sürətli və uğurludur

Artıq uzun müddətdir ki, Bakı Enerji Həftəsinin əsas mövzularından biri "yaşıl enerji"dir. Belə ki, ənənəvi enerji resursları sənayesini inkişaf etməkdə olan "yaşıl enerji" istiqamətləri ilə birləşdirən Bakı Enerji Həftəsi bu sahədə irəliləyişlərə və ən yaxşı təcrübələrə zəmin yaradır. Tədbir çərçivəsində təşkil olunan Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji sərgisində beynəlxalq və yerli şirkətlərin energetika və bərpaolunan enerji mənbələrinin inkişafı və istifadəsi sahəsindəki yeniliklər və bununla bağlı təkliflər gündəmdə olur. Budəfəki sərgidə günəş enerjisi, külək enerjisi, geotermal enerji, istilik energetikası, nüvə enerjisi, maşınqayırma və enerji avadanlıqları, elektrik nəqliyyat vasitələri və elektromobillər, enerji və resurslara qənaət edən texnologiyalar və digər sektorlar üzrə məhsul və xidmətlər, eləcə də yeni layihələr nümayiş edildi.

Azərbaycan neft-qaz sahəsində böyük uğurlar əldə etdiyi kimi, həm də bu sahədə irəliyə doğru baxan, yeni çağırışları reallaşdıran ölkədir. Bu baxımdan ölkəmizdə "yaşıl enerji" ilə bağlı çağırışların sürətlə reallaşması, başqa cür desək, bərpaolunan enerjiyə keçidin uğurlu olması bir daha Azərbaycanın mütərəqqi enerji siyasətindən xəbər verir. Bu məsələ "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də öz əksini tapıb. 2030-cu ilədək olan dövrdə "yaşıl artım" ölkəsinə çevrilmək sosial-iqtisadi inkişafa dair milli prioritetlərdən biri kimi müəyyənləşdirilib. Eləcə də işğaldan azad edilmiş ərazilərdə "yaşıl enerji" zonasının yaradılması ilə bağlı mühüm vəzifələr qarşıya qoyulub.

Sərgilərin rəsmi açılış mərasimində ölkəmizdə bu istiqamətdə görülən işlərə toxunan Prezident İlham Əliyev artıq ötən il "Masdar" şirkəti tərəfindən 230 meqavat gücündə günəş-elektrik stansiyasının istifadəyə verildiyini, hazırda bu sahədə iki layihənin işlənilməkdə olduğunu və Azərbaycanın bərpaolunan enerji potensialının 2 qiqavata yaxın olacağını bildirdi. Bura isə təkcə günəş və külək enerjisi daxildir. Bundan başqa, indiyədək işğaldan azad edilmiş ərazilərimizdə 270 meqavat həcmində hidroelektrik stansiyalar da istifadəyə verilib.

Bütövlükdə, Bakı Enerji Həftəsi maraqlı tədbirlərlə yadda qaldı. Keçirilmiş sərgilər və forum enerji sahəsində tərəfdaşlıq münasibətlərinin inkişafına töhfə verəcək, səmərəli işgüzar əlaqələrin qurulmasına gətirib çıxaracaq.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Bakı Enerji Həftəsi mövqelərimizi daha da gücləndirəcək

**"Bakı Enerji Həftəsinin qlobal əhəmiyyət kəsb etməsi bir daha təsdiqləndi. Bu tədbir beynəlxalq ictimaiyyətin müxtəlif komponentləri arasında körpü rolunu oynayır. Bakı Enerji Həftəsi dövlətlərarası əməkdaşlığı gücləndirir, ölkələrə qarşılıqlı fayda və inkişaf gətirir".**



Bu fikirləri Milli Məclisin deputatı Azər Badamov deyib. Deputat bildirib ki, Bakı Enerji Həftəsinin keçirilməsi ənənə halını alıb: "Bu tədbir Azərbaycanda ilk dəfə 1994-cü ildə keçirilib. Azərbaycanın dirçəldilməsi üçün xarici investisiyaların cəlb olunmasına ən çox ehtiyac duyulan vaxtda Bakıda ilk dəfə neft-qaz sərgisinin keçirilməsi mühüm hadisə idi. Təsadüfi deyil ki, 1994-cü ildə "Əsrin müqaviləsi" də məhz bu tədbirdən sonra imzalanıb. Nəticədə ölkə iqtisadiyyatına milyardlarla dollar həcmində sərmayə daxil olub".

Deputat qeyd edib ki, son illərdə keçirilən Bakı Enerji Həftəsi fərqli məzmunda baş tutur: "Otuz il əvvəl neft-qaz sektorunun dirçəldilməsinə hesablanmış Bakı Enerji Həftəsi bu gün özündə "yaşıl enerji" sektorunu da əhatə edir. Onillər əvvəl bu tədbirə az sayda ölkənin şirkəti qatılırdısa, hazırda 37 ölkədən 300-dək şirkət iştirak edir. Həmin şirkətlərin Bakı Enerji Həftəsində ən son texnologiyalarla hazırlanmış yenilikləri nümayiş etdirmələri həm neft-qaz sənayesinin inkişafında, həm də "yaşıl enerji" mənbələrinin formalaşdırılmasında əhəmiyyətli rol oynayır".

Azər Badamovun sözlərinə görə, Azərbaycanın "yaşıl gündəliyi" çox genişdir. Ölkəmiz COP29-a ev sahibi seçilənə qədər özünün "yaşıl gündəliyi"ni artıq müəyyənləşdirmişdi. Belə ki, işğaldan azad olunmuş ərazilərimiz "yaşıl zona" elan olunmuş, araşdırmalar sayəsində "yaşıl enerji" potensialımızın təxminən 200 qiqavat olması təsdiq edilmişdir. "Azərbaycan "yaşıl gündəliyi"ni inkişaf etdirməklə qlobal iqlim dəyişikliklərinə qarşı mübarizəyə də töhfə verir, istilik effekti yaradan qaz emissiyalarının azaldılması istiqamətində əməli addımlar atır. Bakı Enerji Həftəsi çərçivəsində isə 3 bərpaolunan enerji stansiyasının təməlləri atılıb. Bu stansiyaların istifadəyə verilməsi ilə "yaşıl enerji" potensialımız 1 qiqavat artacaq. Ümumiyyətlə, 2027-ci ilin sonuna qədər Azərbaycan 2 qiqavat "yaşıl enerji" istehsal etməyi planlaşdırıb. Məhz "yaşıl enerji" istehsalı qazın sərfiyyatına qənaət etməyimizə yol açır. 1 qiqavat "yaşıl enerji" istehsalı 0,5 milyard kubmetr təbii qaza qənaət etməyimizə imkan verəcəkdir. "Yaşıl enerji" sektorunun inkişafı sayəsində qənaət olunan qazı da Avropaya ixrac edə biləcəyik", - deyə müsahibimiz əlavə edib.

Bakı Enerji Həftəsi çərçivəsində vacib məsələlər ətrafında müzakirələr aparıldığını deyən deputat vurğulayıb ki, yaxın gələcəkdə proseslər daha da intensivləşdiriləcək və mühüm layihələrin reallaşdırılması istiqamətində ciddi addımlar atılacaq. Bakı Enerji Həftəsi həm də ölkəmizə yeni investisiya axınını sürətləndirəcək.

"Enerji sektorunda əməkdaşlıq etdiyimiz aparıcı şirkətlər sözümüzün imzamız qədər möhkəm olduğuna inanırlar. Çünki Azərbaycan imzasını atdığı bütün razılaşmaların icrasında məsuliyyətli və sadiqdir. Bu baxımdan Bakı Enerji Həftəsinin siyasi əhəmiyyəti də çox böyükdür. Sözügedən tədbir ölkəmizin siyasi mövqelərini gücləndirir və dostlarımızın sayını artırır", - deyə Azər Badamov yekunda bildirib.

***Nəzrin QAFARZADƏ,***
***"Azərbaycan"***

# Azərbaycan enerji üzrə müzakirə mərkəzidir

### Ənənəvi sahədə əldə edilən təcrübə "yaşıl enerji"yə ötürülür

**"Yaxın keçmişdə yalnız neft-qaz hasilatçısı kimi tanınan Azərbaycan hazırda enerji sahəsi üzrə müzakirə mərkəzinə çevrilib. Qlobal miqyasda müzakirə edilən çağırışlar artıq ölkəmizin paytaxtında elmi və siyasi müstəvidə nəzərdən keçirilir".**



Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin şöbə müdiri Nicat Hacızadə deyib. O qeyd edib ki, Azərbaycan son illər bərpaolunan enerji sahəsində bir sıra addımlar atıb. "Yaşıl enerji" infrastrukturunun yaradılması ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi institusional çərçivənin keyfiyyətinin artırılmasına xidmət edir. 2024-cü ilin Azərbaycanda "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsi də bu sahənin inkişafında səylərin nə dərəcədə ciddi və uzunmüddətli olduğunu bir daha sübut edir. "Prezident İlham Əliyevin "Bakı-Ekspo" Mərkəzində Bakı Enerji Həftəsi çərçivəsində keçirilən 29-cu Beynəlxalq Xəzər Neft və Qaz - "Caspian Oil&Gas" və 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji - "Caspian Power" sərgisində rəsmi çıxışına diqqət yetirdikdə Azərbaycanın "yaşıl enerji" dövrünə keçidinin mərhələlərini müşahidə etmək mümkündür. Enerji təhlükəsizliyinin milli təhlükəsizliyimizin tərkib hissəsi olduğunu vurğulayan dövlət başçısı Azərbaycanın idxaldan asılı olanlar üçün etibarlı və uzunmüddətli tərəfdaş kimi özünü beynəlxalq miqyasda sübut etdiyini vurğulayıb", - deyə o əlavə edib.

Ekspert bildirib ki, dünyada iqlim dəyişikliklərinə qarşı qlobal mübarizənin başlandığı bir zamanda Azərbaycan gəlirlərinin əksər hissəsi enerji sektorundan gələn ölkə kimi sözügedən sahədə aparıcı rol oynayır. Birləşmiş Ərəb Əmirliklərindən bir il sonra ölkəmizin cari ilin noyabrında COP29-a evsahibliyi etməsi Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizənin qovşağına çevrildiyinin bariz nümunəsidir. Neft-qaz resursları bir sıra ölkələrə problemlər yaşatsa da, Azərbaycanın həm makroiqtisadi, həm sosial, həm də demoqrafik inkişafında əvəzedilməz rol oynayıb. Neft gəlirləri vasitəsilə akkumulyasiya olan sərvətlər bu gün Azərbaycanın davamlı inkişafının lövbərindən biridir.

N.Hacızadə vurğulayıb ki, iqlim dəyişikliklərinin qlobal dünya qarşısında yaratdığı əsas çağırışlardan biri də inflyasiyadır: "Quraqlıq və su çatışmazlığı bir sıra hallarda ərzaq təhlükəsizliyinə gətirib çıxarmaqla bərabər, tələbin artması qarşılığında qlobal istehsalın da azalmasına səbəb ola bilər. Azərbaycan iqlim dəyişiklikləri ilə mübarizəni prioritet hesab etməklə bu çağırışı qabardır, növbəti çağırışları aktual saxlamağa çalışır".

Müsahibimizin sözlərinə görə, enerji təhlükəsizliyi kimi etibarlı tərəfdaş imici formalaşdıran Azərbaycan "yaşıl enerji" sahəsində də öz missiyasını gücləndirir. Yalnız günəş və külək enerjisi olmaqla, Azərbaycanın bərpaolunan enerji potensialı 2 qiqavata yaxın olacaq. Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan enerjiyə qoyulan əsaslı investisiyalar bu potensialın səviyyəsini bir qədər də artıracaq. Nəticə etibarilə Azərbaycan ənənəvi enerji sahəsində əldə etdiyi təcrübəni "yaşıl enerji"yə ötürməklə etibarlı tərəfdaş olduğunu bir daha sübut edəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# "Euronews"un saytında Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin icra etdiyi bərpaolunan enerji layihələrinə dair məqalə yayımlanıb

**"Euronews" telekenalının saytında Azərbaycanın və Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) ölkəmizdə ümumi gücü 1 qiqavat olan üç genişmiqyaslı günəş və külək enerjisi layihələrinin həyata keçirilməsi istiqamətində birgə əməkdaşlığından bəhs edən məqalə yayımlanıb.**

AZƏRTAC xəbər verir ki, məqalədə layihələrin təməlqoyma mərasiminin iyunun 4-də keçirilən Bakı Enerji Forumu çərçivəsində baş tutduğu bildirilib. Bildirilir ki, Prezident İlham Əliyev layihələrin əhəmiyyətini vurğulayaraq, BƏƏ-nin "Masdar" şirkətinin bərpaolunan enerji sahəsində Azərbaycanın strateji tərəfdaşı olduğunu xüsusi qeyd edib.

Yazıda bildirilir ki, layihələrə Biləsuvarda 445 MVt gücündə günəş-elektrik stansiyası, Neftçalada 315 MVt gücündə günəş-elektrik stansiyası, Abşeron-Qaradağda 240 MVt gücündə külək-elektrik stansiyası daxildir. Stansiyaların ümumi illik orta enerji istehsalı 2 milyard 3025 milyon kilovat-saat elektrik enerjisi təşkil edəcək ki, bu da illik 496 milyon kubmetr təbii qazın qənaətinə və 943 min tondan çox karbon qazı emissiyasının qarşısının alınmasına səbəb olacaq.

Məqalədə Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, "Masdar" şirkətinin rəhbəri və COP28-in prezidenti Sultan Əhməd Əl-Cabirin fikirləri də əks etdirilib: "Biz Azərbaycanla bərpaolunan enerji potensialının genişlənməsi sahəsində tərəfdaş olduğumuz üçün qürur duyuruq. Azərbaycanın enerjinin şaxələndirilməsinə nail olmaq, yeni sənayelər, yeni iş yerləri və davamlı iqtisadi inkişaf yaratmasını dəstəkləyirik".

Sultan Əhməd Əl-Cabir nizamlı və müstəqil enerji keçidini təmin etmək üçün belə tərəfdaşlıqların önəminə toxunub və qeyd edib ki, BƏƏ və Azərbaycan 2030-cu ilə qədər bərpaolunan enerji potensialının üç dəfə artırılmasını qarşısına məqsəd qoyub.

Məqalədə Prezident İlham Əliyevin "yaşıl keçid"lə bağlı fikirlərindən də sitat gətirilib: "Bu, həqiqətən göstərir ki, ölkə ənənəvi enerjidən əldə etdiyi gəlirləri hazırda bərpaolunan enerjiyə yönəldir. COP29-a evsahibliyi edəcək ölkə kimi vəzifəmiz "yaşıl keçid"in ilk cərgələrindən olan ölkələr sırasında olmaqdır".

Bildirilib ki, Bakı Enerji Həftəsi dünya enerji sektorunun ən əhəmiyyətli hadisələrindən biridir və 37 ölkədən 300-dən artıq şirkət enerji həftəsində iştirak edib. Tədbir çərçivəsində daha təmiz enerji həllərinə keçmək, süni intellektdə irəliləyişlər, eləcə də iqlimin müsbət davamlı inkişafının sürətləndirilməsinə kömək məqsədilə inkişaf etməkdə olan ölkələrdə iqtisadi artımın təmini ilə bağlı çağırışlar olub.

BAKU ENERGY WEEK

# BAKI ENERJİ HƏFTƏSİ

## Qlobal tərəfdaşlığın etibarlı platforması

# Ənənəvi enerjidən "yaşıl enerji"yə



**Azərbaycanın qlobal enerji təhlükəsizliyinə töhfəsi hər ötən il daha da artır. Enerji sektorunda da etibarlı tərəfdaş olan Azərbaycan bu sahədə davamlı inkişafa nail olmaq üçün mühüm tədbirlər həyata keçirir, yeni layihələr reallaşdırır. Ölkəmiz 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalanmasına nail olmaqla neft və qaz sahəsində göstərdiyi əzmini son illərdə "yaşıl enerji" sektorunda da uğurla nümayiş etdirir.**

Bu gün yeni mənbələrin istifadəyə verilməsi, xüsusilə "yaşıl enerji" sahəsində əməkdaşlığın gücləndirilməsi Azərbaycanın enerji siyasətinin əsas istiqamətlərini təşkil edir. Bu baxımdan iyunun 4-6-da keçirilən Bakı Enerji Həftəsi enerji siyasətinin əsas seqmentlərini özündə cəmləşdirməklə, "yaşıl enerji"yə keçidlə bağlı müzakirələrin keçirilməsində mühüm rol oynadı. Eyni zamanda bu tədbir Azərbaycanın iqlim dəyişikliyi və "yaşıl enerji" ilə bağlı müəyyən etdiyi hədəflərini beynəlxalq auditoriyaya təqdim etmək üçün böyük əhəmiyyət kəsb etdi.

Azərbaycanın neft-qaz ehtiyatları ilə zəngin ölkə olmasına baxmayaraq, "yaşıl enerji" sektorunun inkişafına xüsusi önəm verməsi beynəlxalq aləmdə yüksək qiymətləndirilir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu iclasının - COP29-un bu il məhz Bakıda keçirilməsinə dair yekdil qərarın qəbul edilməsi də bunun nəticəsidir. Bu mənada Bakı Enerji Həftəsini noyabrda baş tutacaq COP29-a verilən töhfə kimi də dəyərləndirmək olar.

"COP29-a evsahibliyi edəcək ölkə kimi yekdil qərarla seçilmək bizim üçün həqiqətən böyük şərəfdir. Biz bunu beynəlxalq ictimaiyyətin Azərbaycana və gördüyümüz işlərə, o cümlədən "yaşıl enerji" sahəsindəki fəaliyyətimizə hörmətin əlaməti hesab edirik". Prezident İlham Əliyevin "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində iştirakı zamanı səsləndirdiyi bu fikirlərdə də qeyd olunduğu kimi, bu tədbirə evsahibliyinin Azərbaycana həvalə olunması ölkəmizə göstərilən böyük hörmətin əlamətidir.

Azərbaycanın beynəlxalq ictimaiyyətin etibarını qazanaraq COP29-a ev sahibi seçilməsi həm də dövlətimizin dünya miqyasında güclü mövqelərə sahib olması ilə birbaşa bağlıdır. Prezident İlham Əliyev elə bir geosiyasi vəziyyət formalaşdırıb, ölkəmizə elə bir nüfuz qazandırıb ki, Azərbaycan bu gün ən mötəbər beynəlxalq tədbirlərə evsahibliyi edir. Dövlətimizin başçısının həyata keçirdiyi müstəqil siyasət, sərgilədiyi qətiyyətli və prinsipial mövqe bu nüfuzlu tədbirin məhz Bakıda keçirilməsi ilə bağlı yekdil qərarın qəbul edilməsinə səbəb olub.

Bəşəriyyətin xüsusilə qlobal istiləşmənin yaratdığı fəsadlarla bağlı yaranmış suallara cavab axtardığı bir vaxtda BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransında (COP) aparılan müzakirələr, qəbul edilən qərarlar xüsusi əhəmiyyət kəsb edir. Tərəflər Konfransının noyabrda Bakıda keçiriləcək 29-cu sessiyasında da bu sahədə vacib təklif və təşəbbüslərin irəli sürüləcəyi, platformanın uğurla nəticələnəcəyi gözlənilir.

COP29 kimi mühüm tədbirə evsahibliyi etmək həm də Azərbaycanın uzun illər ekoloji terrordan əziyyət çəkən bir ölkə olduğuna görə yaxşı fürsət kimi dəyərləndirilməlidir. Torpaqlarımızı 30 ildən artıq işğal altında saxlayan Ermənistanın vandallığı nəticəsində ərazilərimizdə ekoloji tarazlıq pozulmuş, Qarabağ və Şərqi Zəngəzurun havası, torpağı, su mənbələri çirkləndirilmiş, bitki və heyvanat aləmi məhv edilmişdi. Vətən müharibəsindəki qələbəmizdən dərhal sonra Prezident İlham Əliyev tərəfindən işğaldan azad edilmiş ərazilərimizin "yaşıl enerji" zonası elan edilməsi də bu baxımdan təsadüfi deyil. Bu, dövlətimizin ətraf mühitin mühafizəsinə ciddi önəm verdiyinin bariz nümunəsidir.

Bu baxımdan COP29 Azərbaycanın öz haqq səsini növbəti dəfə dünyaya çatdırması üçün həm də qlobal tribuna rolunu oynayacaq. Azərbaycana ilk dəfə səfər edəcək xarici qonaqlar ölkəmiz barədə reallıqlarla yerindəcə tanış olacaq, ermənilərin törətdikləri ekoloji fəlakətlərə şahidlik edəcəklər.

İqlim dəyişikliklərinə qarşı mübarizədə daim fəallıq nümayiş etdirmiş Azərbaycanın bu mötəbər tədbirə evsahibliyinin dünyaya örnək olacağı şübhə doğurmur. İştirakçı dövlətlərin "yaşıl dünya" naminə ölkəmizə toplaşaraq bu qlobal platformada həmrəylik nümayiş etdirmələri, taleyüklü problemə məhz Bakıda həll axtarmaları ölkəmizin beynəlxalq nüfuzunu daha da artıracaq. COP29 Azərbaycanın iqlim dəyişikliklərinin yaratdığı problemlərin həllinə də mühüm töhfə vermək imkanlarını nümayiş etdirəcək.

*Nəzrin QAFARZADƏ, "Azərbaycan"*

# Enerji ilə bağlı gələcək çağırışlar Bakıda müəyyən edilir

## Azərbaycanın enerji diplomatiyası yeni dünya düzənində vacib rol oynayır



**"Beynəlxalq müzakirə platformaları bu gün qlobal əməkdaşlıq səylərinin əvəzsiz elementlərindən birinə çevrilib. Danılmaz faktdır ki, Bakı dəyişən dünyanın müxtəlif strateji məsələləri üzrə aparıcı qüvvə olduğunu təsdiq edib".**

**Bu sözləri "Azərbaycan" qəzetinə açıqlamasında Sosial Tədqiqatlar Mərkəzinin departament müdiri Seymur Əliyev deyib. O bildirib ki, artıq 30 ildir davamlı olaraq keçirilən Bakı Enerji Həftəsi bu sektor ilə bağlı gələcək çağırışların müəyyən edildiyi, gündəliyin formalaşdırıldığı beynəlxalq platformadır.**

Departament müdiri hesab edir ki, Bakı Enerji Həftəsi - 2024-də aparılan müzakirələr istər sektorun gələcəyi, istərsə də qlobal qeyri-müəyyənliklər şəraitində yeni əməkdaşlıq vektorlarının formalaşdırılması baxımından önəmli çağırışlar və mesajların zənginliyi ilə seçilib: "Platforma çərçivəsində həyata keçirilən müzakirələrdən aydın oldu ki, qlobal siyasi-iqtisadi təlatümlər dövründə belə enerji sektoru davamlı iqtisadi və sosial inkişafın ən mühüm katalizatorlarından biri kimi dünyada öz strateji əhəmiyyətini qoruyub saxlayır".

S.Əliyev qeyd edib ki, məhz bu kontekstdən çıxış edərək dəyərləndirmələri müxtəlif cür qruplaşdırmaq olar. Bunlardan biri qlobal iqlim dəyişikliyi ilə bağlı problemlərin dərinləşdiyi və yeni dünya düzəninə keçid dövründə enerji daşıyıcılarının diversifikasiyası məsələsidir. Digəri isə enerji idxalından asılı olan ölkələrin strateji və etibarlı tərəfdaşlara tələbinin yüksəlməsi ilə bağlıdır. Bu mənada Azərbaycanın noyabr ayında COP29 tədbirinə evsahibliyi etməsi ölkəmizin beynəlxalq arenada strateji əhəmiyyətini artırır.

O, vurğulayıb ki, dövlət başçısı tərəfindən təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi hədəflərinin prioritet istiqamətlərdən biri kimi elan edilməsi diqqətçəkən önəmli məqamlardan biridir. Bakı Enerji Həftəsində müxtəlif panellərdə dövlət rəsmilərinin, mütəxəssislərin, biznes təmsilçiləri və müstəqil ekspertlərin səsləndirdiyi fikirlər ölkəmizin strateji vizyonunun doğru olduğunu göstərir.

Departament rəhbəri qeyd edib ki, digər məqam isə dəyişən enerji siyasəti ilə bağlıdır. "Məlum olduğu kimi, Rusiya-Ukrayna münaqişəsi fonunda enerji siyasətində mərkəzi faktorlar əhəmiyyətli dərəcədə dəyişir. Azərbaycanın enerji diplomatiyası yeni dünya düzəni ilə bağlı fərqli mövqelərdən çıxış edən tərəflərin çox nadir uzlaşdıqları məsələlərdən biri kimi dəyərləndirilməlidir.

ABŞ-nin Prezidenti Cozef Baydenin Prezident İlham Əliyevə ünvanladığı məktubdakı "Azərbaycan xüsusilə Avropada qlobal enerji təhlükəsizliyinin mühüm sütunu olaraq qalır. Xəzər qazı getdikcə çoxsaylı ölkələrə ixrac edilir və bu da Avropa ölkələrinə enerji mənbələrinin şaxələndirilməsinə, kömürdən imtinanın sürətləndirilməsinə yardım edir" fikirləri də bunu təsdiq edir", - deyə o əlavə edib.

S.Əliyev sonda qeyd edib ki, Azərbaycan xarici siyasətində müəyyənləşdirdiyi iqtisadi diplomatiya kursunu dayanıqlı şəkildə reallaşdırır.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*






# Beynəlxalq əlaqələri genişləndirmək üçün əlverişli platforma

*Keçirilməsi ənənəyə çevrilmiş Bakı Enerji Həftəsi hər dəfə bir çox uğurları ilə yadda qalır. Bu tədbirin özəyini təşkil edən, sayca 29-cu olan Beynəlxalq Xəzər Neft və Qaz Sərgisi və son illər onunla yanaşı keçirilən 12-ci Xəzər Beynəlxalq Energetika və Yaşıl Enerji Sərgisi bu dəfə Azərbaycanın enerji sektorunda bərpaolunan enerji mənbələrinin payının artırılması yönümündə görülən işlərə diqqət çəkdi, qarşıdakı proqram və planlarla çıxış etdi.*







Bütün bunlar müasir çağırışların respublikamızda sürətlə reallaşdığını göstərir və qlobal enerji bazarında mövqelərimizi möhkəmləndirir. Hər il bu tədbirin baş tutması, əhatə dairəsinin getdikcə genişlənməsi, iştirakçıların sayının artması əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən neft, qaz, enerji təhlükəsizliyi strategiyamızın təntənəsi deməkdir. Bu təntənənin daha bir davamı "Yaşıl dünya naminə həmrəylik ili"ndə keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasıdır (COP29). Builki sərgilərin stend və pavilyonlarında da məhz COP29 ərəfəsində olduğumuz özünü qabarıq göstərirdi. Bu görüntü Azərbaycanın dünyada neft-qaz ölkəsi kimi tanınmasına rəğmən "yaşıl iqtisadiyyat"ı inkişaf etdirdiyinin göstəricisi kimi diqqət çəkirdi.

"Bakı Ekspo" Mərkəzində olarkən bu deyilənləri aydın görə bildik. İştirakçı şirkətlər stendlərdə daha çox "yaşıl enerji"ni özündə əks etdirən uğurlarını sərgiləyirdi. Çünki sözügedən sərgilər alternativ və bərpaolunan enerji potensialı, o cümlədən "yaşıl enerji" layihələrinin təşviqi sahəsində əməkdaşlığın genişləndirilməsi, habelə enerji mənbələrinin şaxələndirilməsi istiqamətində müzakirələr üçün bir fürsət idi.

Məlumdur ki, Azərbaycanın uğurlu enerji siyasəti illərdir ölkəmizin hüdudlarından kənara çıxıb. Sərgini beynəlxalq əməkdaşlıq meydanı kimi dəyərləndirən iştirakçılarla söhbətimizdə bunu da aydın hiss etdik. Onlar belə mötəbər bir tədbirdə iştirak etdikləri üçün məmnun olduqlarını söyləyərək vurğuladılar ki, əməkdaşlığı genişləndirmək, yeni-yeni əlaqələr qurmaq gələcək uğurların qapısını açmağa kömək göstərəcək.

Bu imkandan istifadə edən şirkətlərdən biri də Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətidir. Şirkət bu il fevralın 29-da Cənubi Qafqaz regionunda ən böyük külək enerjisi layihəsi olan 240 MVt-lıq Xızı-Abşeron Külək-Elektrik Stansiyası layihəsi üzrə sənədə imza atıb. Daha üç ay sonra mayın 3-də imzaladığı 200 MVt Batareya Enerji Saxlama sazişi isə Cənubi Qafqaz regionunda ilk Batareya Enerji Saxlama layihəsidir. Həmçinin "ACWA Power" SOCAR ilə bu ilin aprelində "yaşıl gübrə"lərlə bağlı əməkdaşlıq sazişini təsdiqləyib.

Şirkətin müqavilələr və dövlətlə əlaqələr üzrə meneceri Süleyman Babayev əvvəl Bakı Enerji Forumunda iştirak etsələr də, sərgilərdə bu il ilk dəfədir yer alıqlarını söylədi: "Şirkətimiz dünya üzrə 85 milyard dollarlıq sərmayə sahibidir. Ona görə də bir sıra xarici ölkələrdə uğurla fəaliyyət göstəririk. Xızı-Abşeron külək enerjisi layihəsinin icrasına başladığımız gündən çox da uzun vaxt keçməyib. Artıq mühəndis işlərinin 17 faizi tamamlanıb. Layihə çərçivəsində hər birinin gücü 6,5 meqavat olan 37 külək turbini quraşdırılacaq. Bu stansiya 400 min ton karbon emissiyasının azaldılmasına imkan yaradacaq. Baş podratçı olan "Power China HOEC" şirkəti tərəfindən mobilizasiya işləri artıq tam başa çatdırılıb. İyul ayında stansiyanın tikintisi üçün tələb olunan turbinlərin birinci partiyası Ələtdə yerləşən Bakı Beynəlxalq Dəniz Ticarəti Limanına gətiriləcək. Stansiyanın 2025-ci ilin 3-cü rübünün sonlarında istismara verilməsi nəzərdə tutulub. Onu da qeyd edim ki, bu layihənin icrasında Energetika Nazirliyi, Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, KOBİA və "Azərenerji" bizə böyük dəstək verir".

2020-ci ildən Azərbaycanda fəaliyyət göstərən Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkətinin stendi ilə tanışlıq zamanı bildirildi ki, o, 40-dan çox ölkədə fəaliyyət göstərir və bu ölkələrə təmiz enerji məqsədlərinə nail olmaqda kömək edir. Şirkət Azərbaycanda ümumi gücü 10 qiqavatadək olan bərpaolunan enerji mənbələri layihələri üzrə müqavilələr imzalayıb.

"Masdar Azərbaycan"ın direktoru Murad Sadıxov söhbət zamanı dedi: "Bakı Enerji Həftəsi bizim üçün olduqca faydalı və dəyərli bir proqramdır. Biz 2022-ci ildən etibarən bu mühüm beynəlxalq tədbirdə iştirak edirik. Həmin il iyunun 4-də Şuşada Bakı Enerji Həftəsi çərçivəsində keçirilən "Sıfır tullantıya doğru yol: Qarabağ bölgəsində "yaşıl enerji"nin potensialı və imkanları" adlı xüsusi sessiya zamanı toplam olaraq 10 qiqavat gücündə iki müqavilə imzaladıq. İndi təməli qoyulan layihələr məhz Şuşada imzalanmış həmin müqavilələrin reallaşdırılmasının başlanılması deməkdir. Sərgiyə gəlincə deyə bilərəm ki, bu tədbir bizim üçün həm də çox böyük sosial xarakter daşıyır. Yəni "Masdar"ı təbliğ etmək, onu tanıtmaq baxımından əla fürsətdir. Sərginin gedişində çoxlu yeni şirkətlər və insanlarla tanışlıq imkanı qazanırıq. Məsələn, bu dəfə SOCAR-la əməkdaşlıq müqaviləsi imzaladıq. Artıq Azərbaycanda həyata keçirəcəyimiz bütün layihələr SOCAR-la əməkdaşlıq çərçivəsində reallaşdırılacaq. Bildiyiniz kimi, SOCAR "yaşıl layihə"ləri törəmə şirkəti olan SOCAR GREEN şirkəti vasitəsilə həyata keçirəcək. Bu da bizim üçün çox vacibdir. Çünki biz Azərbaycanın enerji lideri ilə işbirliyinə başlayırıq. Tədbirin açılış mərasimində Prezident İlham Əliyevin iştirakı ilə ümumi gücü 1 qiqavat olan üç böyük layihənin təməli qoyuldu. Həmin layihələrə Biləsuvarda 445 meqavatlıq, Neftçalanın Bankə qəsəbəsində 315 meqavatlıq günəş və Bakı-Şamaxı yolunun üstündə 240 meqavatlıq Abşeron-Qaradağ Külək-Elektrik stansiyaları daxildir.

Sərgi pavilyonlarını gəzərkən diqqətimizi çəkən məqamlardan biri də burada xeyli sayda ziyarətçinin olması idi. Sərgi ilə bağlı fikirlərini öyrəndiyimiz ziyarətçilər əsasən neft və qaz yataqlarının işlənməsi, quyuların qazılması, geofizika və geologiya, boruların çəkilməsi və boru kəmərinin təhlükəsizlik sistemlərinin təmir edilməsi, neft-qaz emalı və neft-kimya, karbohidrogenlərin daşınması, "yaşıl enerji" sahəsində tikinti-quraşdırma işləri ilə maraqlandıqlarını bildirdilər. Sumqayıtdan gələn Könül Hacıyeva sərgi ilə bağlı fikirlərini bizimlə bölüşdü: "Hər il təşkil olunan bu sərgilərə gəlməyi unutmuram. Satınalma və təchizatın idarəolunması üzrə mütəxəssisəm. Ona görə də bura mənim üçün çox maraqlıdır. Əsasən işimlə bağlı pavilyonlar diqqətimi cəlb edir. Hər dəfə gələndə şirkətlərin yenilikləri ilə tanış olur, bəziləri ilə əməkdaşlıq etmək niyyətimi bildirirəm. İndi də bir neçə şirkətlə tanış olub əlaqə yaratdıq. Qısa zamanda qarşılıqlı iş görmək məqsədilə gələcək planlarlımızı müzakirə edib əməkdaşlığa başlayacağıq".

İnnovasiyalarla maraqlanan gənc bir qız diqqətimizi cəlb etdi. 27 saylı məktəbin 10-cu sinif şagirdi Zəhra Qəhrəmanlı Bakıda keçirilən bu tip sərgilərə çox maraq göstərdiyini dilə gətirdi. Məqsədi "yaşıl enerji" sahəsində əldə olunan yenilikləri öyrənməkdir. "Bəlkə gələcək həyat yolumda bu bilgilər əlimdən tutdu", - deyə gülümsəyərək növbəti stendə tərəf addımladı...

*Züleyxa ƏLİYEVA, İlham BABAYEV (foto), "Azərbaycan"*

Milli maraqlar naminə əməkdaşlıq

# İnkişafa xidmət edən təşəbbüs

## Dövlət orqanları ilə partiyalar arasındakı dialoq siyasi sistemin təkmilləşməsinə mühüm töhfə verir

**Azərbaycanda ictimai-siyasi sabitliyin hökm sürməsi vətəndaş birliyinin və həmrəyliyinin təmin edilməsi, siyasi partiyaların və ictimai təşkilatların sərbəst fəaliyyətinə önəm verilməsi dövlətimizin başlıca uğurlarındandır. Tolerantlığa və multikultural ənənəsinə sadiq olan ölkəmizdə insanlara millətinə, dininə, əqidəsinə görə deyil, vətəndaş mövqeyinə görə qiymət verilir və ayrı-seçkilik tamamilə aradan qaldırılmışdır.**

Bu gün hər bir Azərbaycan vətəndaşı milliyyətindən asılı olmayaraq, ölkəmizin inkişafı və nüfuzu naminə eyni mövqedən çıxış edir, qələbələrimizdən sevinir, uğurlarımızdan qürurlanır. 44 günlük müharibə, 23 saatlıq antiterror tədbirləri göstərdi ki, Azərbaycan xalqı vahiddir və Vətəni müdafiə etməyə, düşməni susdurmağa qadirdir. Bu müharibədə əksər siyasi partiyaların, vətəndaş cəmiyyətlərinin torpaqlarımızın düşməndən azad edilməsi naminə birləşdiklərinin şahidi olduq.

Ulu Öndər Heydər Əliyev xatırladırdı ki, "Kim müxalifətdə durursa-dursun, ancaq Vətəninə, xalqına, mənəviyyatına, məsləyinə müxalifətdə durmasın". Dahiyanə deyilmiş bu kəlamda Vətən, torpaq məhəbbəti, xalq təəssübkeşliyi, mənəvi zənginlik, məsləyə, milli-mənəvi dəyərlərə sadiqlik var və bu, nəinki dünənimiz üçün vacib idi, bu günümüz və gələcəyimiz üçün hər vaxt, hər saat əhəmiyyətlidir, qiymətlidir. Çünki Vətənə, xalqa müxalifətdə olmaq, dövlətin uğurlarına kölgə salmaq, qara yaxmaq, insanların öz qanları hesabına əldə etdikləri qələbəni inkar etmək düşmənçilik, nankorluq, nadanlıq olar.

Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi bütün dövrlərdə ölkədə yaşayan bütün xalqların, azlıqların birliyinin təmin edilməsini, onlara eyni münasibət göstərilməsini, iqtidarı, müxalifəti, siyasi baxışları, dinləri müxtəlif olan insanların vətənin mənafeyi naminə birgə fəaliyyətə istiqamətləndirilməsini əsas vəzifə kimi qarşıya qoymuşdu. Dahi rəhbər tərəfindən əsası qoyulan və inkişaf etdirilən azərbaycançılıq ideologiyası məhz birliyimizə, həmrəyliyimizə, vətənin, xalqın xoşbəxt gələcəyi üçün yekdil mübarizəmizə xidmət edir.

Prezident İlham Əliyev öz fəaliyyətində Ulu Öndərin ölməz ideyalarına arxalanmaqla mövcud reallıqlara əsaslanır və xalqın birliyinin təməlini gündən-günə möhkəmləndirir, vətəndaş həmrəyliyini, mübarizliyini inkişafımızın, qələbəmizin uğuru kimi qiymətləndirir. Ölkəmizin rəhbəri bildirir ki, "Əsrlər boyu Azərbaycanda bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşamışlar. İctimai-siyasi quruluşundan asılı olmayaraq, heç vaxt Azərbaycanda milli, ya dini zəmində nəinki qarşıdurma, heç anlaşılmazlıq da olmamışdır. Bütün dövrlərdə xalqlar bir ailə kimi yaşamışlar".

Cənab İlham Əliyev bu ailənin başçısıdır və onun üzvlərinin mənafelərini qorumağın, təhlükəsizliyini təmin etməyin, həyatlarını mənalandırmağın, güzəranlarını yaxşılaşdırmağın nə qədər çətin olsa da, həm də o qədər şərəfli, məsuliyyətli olduğunu çoxşaxəli fəaliyyətində nümayiş etdirir.

Bu ailənin üzvlərinin fikirləri, baxışları müxtəlif ola bilər, ancaq hər bir kəs onun müqəddəsliyini qorumalı, taleyi barədə düşünməlidir.

Son illərin çətinlikləri, ağır müharibə günləri dövlətimizin və ailəmizin yekdilliyini sübut etdi, dünyaya göstərdi. Həm də aramızdakı naxələflərin, dağıdıcı müxalifətin, dövlətimizə və xalqımıza düşmən mövqedə duranların iç üzünü açıb, aydın göstərdi. Müharibə günlərində ölkədəki bütün siyasi partiyalar və vətəndaş cəmiyyətləri bir araya gəldikləri halda AXCP və Milli Şura, Müsavat partiyası bundan imtina etdilər. Xüsusilə AXCP dağıdıcı mövqe tutdu, nəinki həmrəylik nümayiş etdirdi, əksinə, qələbələrimizə kölgə salmağa çalışdı, ermənipərəst mövqe tutdu, öz saxta bəyanatları, çıxışları ilə xaricdə əleyhimizə təbliğat aparanların dəyirmanına su tökdü, haqqımızda yalan məlumatlar yaydı.

Cənab İlham Əliyev prezident seçildiyi ilk gündən siyasi partiyaların, vətəndaş cəmiyyətlərinin fəaliyyətinə, onların rolunun artırılmasına, bir məqsəd uğrunda mütəşəkkilliyin təmin edilməsinə böyük önəm verir. O, partiyalar arasında siyasi dialoqun qurulmasının, fikir mübadilələri aparılmasının, ölkənin inkişafı üçün müsbət işlərin dəyərləndirilməsinin, həm də nöqsanların qabardılmasının və bunun üçün təkliflər irəli sürülməsinin, məsələlərin operativ həllinin tərəfdarı olduğunu dəfələrlə bəyan etmiş və bu gün də istəklərini həyata keçirmək istiqamətində əsaslı tədbirlər görməkdədir.



Prezident Administrasiyasında Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbənin yaradılması və ölkə rəhbərinin tapşırıqları əsasında şöbənin çox mühüm tədbirlər həyata keçirməsi, siyasi partiya rəhbərləri, vətəndaş cəmiyyəti üzvləri, siyasətlə məşğul olan insanlarla vaxtaşırı görüşlərin təşkili, problemlərin aradan qaldırılmasında əldə olunan nəticələrin şərh edilməsi, siyasi dialoqun ildən-ilə genişləndirilməsi bunun parlaq nümunəsidir.

Yeni Azərbaycan Partiyasının 5 mart 2021-ci ildə keçirilən qurultayında partiyanın sədri, ölkə rəhbəri İlham Əliyev çıxışında bir daha bildirmişdir ki, "Siyasi partiyaların fəaliyyəti, demokratiyanın inkişafı, iqtisadi azadlıqların bərqərar olması, ölkəmizin güclənməsi qarşımızda duran vacib məsələlərdir.

Bu gün ölkəmizdə siyasi dialoq aparılır. Bu, çox təqdirəlayiqdir. Ölkəmizin gələcək siyasi sistemi üçün, siyasi sisteminin təkmilləşməsi üçün böyük əhəmiyyəti var".

Dövlət başçısının söylədiyi fikirlər, qarşıya qoyduğu vəzifələr dialoqun inkişafı, sağlamlaşdırılması, onun üçün münbit şəraitin yaradılması və imkanların genişləndirilməsi nəinki bu günümüz, eləcə də gələcəyimiz üçün çox faydalıdır. Bu, siyasi partiyalarla dövlət orqanları arasında konstruktiv əməkdaşlığa zəmin yaradır və əlaqələrin möhkəmləndirilməsinə xidmət edir.

Mayın 16-da Prezident Administrasiyası tərəfindən Milli Məclis Aparatının, Mərkəzi Seçki Komissiyasının, Hesablama Palatasının, Ədliyyə və Maliyyə nazirliklərinin, habelə 25 siyasi partiyanın nümayəndələrinin iştirakı ilə keçirilən görüş bu baxımdan xarakterikdir.

Dövlət qurumları ilə birlikdə keçirilən bu görüşdə siyasi partiyalar haqqında yeni qanunun tətbiqi ilə əlaqədar siyasi partiyaların bu prosesdə iştirakının səviyyəsinin gündəmə gətirilməsi, maliyyə hesabatının izahı, ölkədə və xaricdə baş verən hadisələrə yanaşmanın istiqaməti, uğurların təbliği və müəyyən problemlərin aradan qaldırılması sahəsində təşəbbüskarlığın artırılmasının diqqətdə olması tədbirə yeni bir dəyər verdi. Çünki bu görüş bilavasitə milli birliyin və həmrəyliyin təmin edilməsinə yönəldilmişdi və siyasi partiyalar tərəfindən reallıqlara qiymət verilməsi, problemləri qaldırmaq və həllinin yollarını göstərmək üçün əlverişli platforma oldu. Ölkədə mövcud olan bütün siyasi partiyalar görüşdə iştirak etsələr də, AXCP bu tədbirə nəinki qatıldı, hətta Əli Kərimli, başda Müsavat Partiyası olmaqla iştirakçıların çoxunu siyasi xəyanətdə günahlandırdı, onları satqın adlandırdı. Müsavat partiyasının həqiqi müxalifət mövqeyindən uzaqlaşdığını söyləyərkən Ə.Kərimli, Tofiq Yaqublu və digərləri görəsən nəyi nəzərdə tuturlar? Danışıqlara getmək, dialoq qurmaq, reallıqlara münasibət bildirmək, təkliflər vermək xəyanətdirmi?

Yox! Xəyanət, nadanlıq Azərbaycanın düşmənlərindən dərs almaq, onların tapşırıqlarını yerinə yetirmək, pul alıb dövlətin mənafelərini satmaq, mətbuatda, sosial şəbəkələrdə dövlətçilik maraqlarına zidd statuslar yazmaq, videolar paylaşmaq, yalan, şantaj kampaniyaları təşkil etmək, uğurlara kölgə salmaq, insanları ləkələməyə cəhd göstərməkdir. "AXCP-siz görüş nə deməkdir?" fikrində olan partiya funksionerləri bir şeyi başa düşmürlər ki, onlar ağalarının razılığı olmadan belə görüşlərə qatılmağa qadir deyillər və qatılsalar da, əksər siyası partiyaların nifrəti ilə qarşılaşa bilərlər. Çünki AXCP-nin xarici ölkələr və bəzi beynəlxalq fondlar qarşısında götürdüyü öhdəliklər bu görüşə qatılmağa imkan vermir. Antiazərbaycançı dairələrin ölkəmizə qarşı apardıqları məkrli, çirkin kampaniyalara dəstək verən, ölkəmizdə qarışıqlıq, qarşıdurma yaratmağa daim can atan, sabitliyi pozmağa cəhd edən AXCP-nin son günlərdə parlament seçkilərini hədəfə alması, qarayaxma kampaniyasının genişləndirilməsi Fransanın pulundan, orada oturan bədxahların əməllərindən qaynaqlanır və ölkə daxilindəki radikallar - Əli Kərimlilər tərəfindən davam etdirilir.

Məlumdur ki, xaricdə yaşayan antiazərbaycançı qüvvələrlə, dövlətimizə, millətimizə xəyanət edən qruplarla, bloqçularla Əli Kərimli sıx əlaqədədir və bunu hər bir vətəndaşımız yaxşı bilir. Ona görə də AXCP-nin, Əli Kərimlinin hansısa bir dialoqda iştirak edib-etməməsi insanlarımızı bir o qədər də düşündürüb narahat etmir. Vətəndaşları qürurlandıran qələbələrimiz, beynəlxalq aləmdə qazanılan uğurlarımız, gələcək inkişafımız, ərazilərimizin bərpası, qurulub-tikilməsi və insanların doğma yurdlarına qayıtması, sülh müqaviləsinin imzalanması üçün atılan addımlar, həyatlarının, yaşayışlarının yaxşılaşdırılmasıdır. İndiki vaxtda, Ermənistanla münasibətlərin yaxşılaşdırılmasına zəmin yarandığı, həm də elə bu ölkədə, eləcə də Gürcüstanda nümayişlərin, qarşıdurmaların baş alıb getdiyi bir dövrdə Cənubi Qafqaz regionunda gərginliyin səngiməsi fonunda həyata keçirilən hər bir tədbir, xüsusilə siyasi dialoq mühitinin formalaşdırılması və yaxşılaşdırılması böyük əhəmiyyət kəsb edir. Qonşu dövlətlər belə dialoqu xarici dövlətlərin - ABŞ-nin, Fransanın, bəzi beynəlxalq təşkilatların, fondların köməyinə arxalanaraq yardımçıların, kənar qüvvələrin dəstəyi ilə təşkil etdikləri halda Azərbaycan vasitəçi olmadan, öz iradəsinə əsaslanaraq təşkil edir və səmərəsini görür. Buna ölkədə yaranan ictimai-siyasi sabitlik, vətəndaş birliyi və həmrəyliyi, konstruktiv əməkdaşlığa göstərilən səylər və ilk növbədə Prezident İlham Əliyevin düşünülmüş, uzaqgörən siyasəti, xalqın öz rəhbərinə olan sonsuz inam və ehtiramı imkan verir, dövlət qurumlarına və siyasi partiyalara öz fəaliyyətlərini genişləndirmək üçün yollar açır.

Azərbaycan Prezidentinin sülh, əmin-amanlıq, demokratiya, əməkdaşlıq amalları, əməlləri artıq bütün dünyaya məlumdur. Ölkə rəhbərimiz verdiyi vədi, sözü əməlləri ilə yerinə yetirir və yetirməyə qadirdir. Bunu görülən işlər, həyata keçirilən tədbirlər sübut edir. Birlik, həmrəylik, siyasi dialoq, qarşılıqlı əməkdaşlıq bu əməllərin, tədbirlərin tərkib hissəsidir və bu meyarlara önəm verilməsi Azərbaycanın gələcək inkişafına, ictimai-siyasi sabitliyin bərpasına, vətəndaşların rahatlığına, sərbəstliyinə, yüksək rifahına hesablanmışdır ki, bu da qürurvericidir.

***Tahir RZAYEV,***
***Milli Məclisin Aqrar siyasət komitəsinin sədri***

## Dövlət Departamenti: "Azərbaycanla Ermənistan arasında birbaşa dialoq yekun sülh sazişinin əldə olunmasında açar rolunu oynayır"

**ABŞ Dövlət Departamentinin Qafqaz danışıqları üzrə baş müşaviri Lui Bono ABŞ-nin sülh prosesinə dəstəyini və davamlı və layiqli sülhə nail olmağın ən yaxşı yollarını müzakirə etmək üçün Yerevan və Bakıda səfərdə olub.**

Bu barədə AZƏRTAC-ın ABŞ bürosunun səfərin yekunları ilə bağlı sorğusuna cavab olaraq ABŞ Dövlət Departamentinin mətbuat xidmətindən bildirilib.

"Bununla belə, biz Ermənistan və Azərbaycanla davamlı olaraq işləyirik, bu danışıqların asanlaşdırılmasına kömək edirik. Hesab edirik ki, birbaşa dialoq yekun sülh sazişinin əldə olunmasında açar rolunu oynayır. Baş verən son irəliləyişlər bizi ruhlandırır və biz bu dinamikanı qoruyub saxlamaq istəyirik", - deyə açıqlamada qeyd olunub.

Bununla yanaşı, görüşlər qapalı keçdiyi üçün aparılan müzakirələrin detalları açıqlanmayıb.

Beynəlxalq icmal

## Türkiyə niyə BRİCS-i seçir?

**Türkiyənin xarici işlər naziri Hakan Fidan çinli həmkarı tərəfindən iyunun 3-5-də ÇXR-ə səfərə dəvət edilmişdir. Həmin səfərə dünya mətbuatında maraq böyük idi.**

Bu, Qərb və Şərq qütbləşməsinin gündən-günə gərginləşdiyi bir vaxtda Türkiyənin sərgiləyəcəyi mövqedən qaynaqlanırdı. Hamı qardaş ölkənin Çində açıqlayacağı mövqeyini səbirsizliklə gözləyirdi.

Türkiyənin BRİCS-ə üzv olmaq istəməsi barədə Hakan Fidanın verdiyi açıqlamaya ilk reaksiya şimal qonşumuzdan gəldi. Rusiya Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirdi ki, RF BRİCS-ə olan böyük maraqdan məmnundur, ancaq "təşkilat çətin ki, bütün üzv olmaq istəyənlərin maraqlarını təmin etsin". Rusiya rəsmisi Türkiyənin Qərb platformasındakı təşkilatlarda təmsil olunmasına da işarə etdi: "Bunun üçün, əslində, indi müxtəlif formatlar düşünülür". RF-də indiki şəraitdə Türkiyənin mövqeyinin nə qədər əhəmiyyətli olduğunu da yaxşı anlayırlar. Bilirlər ki, Türkiyənin BRİCS-ə üzv olması Qərb-Şərq qarşıdurmasında tərəzinin gözünün Şərqin xeyrinə əyilməsinə səbəb ola bilər. O üzdən H.Fidanın BRİCS-lə bağlı açıqlaması dünyada böyük əks-səda doğurub.

Bəs Qərb bloku BRİCS-lə bağlı niyə narahatdır? Çünki bu qurum sözün həqiqi mənasında Avropa İttifaqı kimi təşkilatlanarsa, Qərb üçün pis ola bilər. Yəni Qərbin dünya siyasətinə və iqtisadiyyatına 100 ilə yaxın bir dövr ərzində davam edən hökmranlığının sona çatmaq ehtimalı yaranar. Təkcə bu gün təşkilata üzv olan ölkələr dünya iqtisadiyyatında önəmli rol oynayırlar və eyni zamanda zəngin təbii sərvətlərə və böyük əhali sayına sahibdirlər. Hazırda bu təşkilatda Rusiya, Çin, Hindistan, Cənubi Afrika Respublikası, Braziliya birləşib. Üstəlik 30-a yaxın ölkə də bu təşkilatda müxtəlif formada təmsil olunmaq istəyir. Dünyada aparılan müxtəlif hesablamalar göstərir ki, 2028-ci ilə qədər BRİCS-ə daxil olan ölkələr qlobal ÜDM-in 35-40 faizinə sahib olacaq ki, bu da G7-nin payının 27,8 faizə düşməsinə gətirib çıxaracaq. Bununla da Qərbin iqtisadi və siyasi hegemonluğu bitəcək.

Onu da vurğulayaq ki, bu təşkilatın aparıcı üzvləri olan Rusiya dünyada ən çox mineral xammal ixrac edən ölkələrdən biridir. Braziliya dünya bazarında ən çox bahalaşan ərzaq məhsullarının ixracatçısıdır. Hindistan geridə qalmış ölkə təsiri bağışlasa da, dünyada intellektual məhsul ixracatçısı kimi tanınır. Çin, məlum olduğu kimi, ucuz əməklə dünyada ən böyük istehsalçı və ixracatçı nəhəngdir. Cənubi Afrika da təbii resurslarla zəngindir. Göründüyü kimi, BRİCS dünyanın nəhəng iqtisadi təşkilatına çevrilmək üçün böyük potensiala malikdir və Qərbi də qorxudan budur.

ABŞ-nin qorxulu röyası isə BRİCS-in vahid valyutaya keçmək istəməsidir. Məlum olduğu kimi, Amerika dünya iqtisadiyyatını dollarla nəzarətdə saxlayır. Əksər dövlətlərin valyuta ehtiyatı dollarladır və beynəlxalq ticarətdə əməliyyatlar ABŞ valyutası ilə aparılır. Hazırda BRİCS ölkələrinin əhalisi dünya əhalisinin yarısına qədərdir, əlavə ölkələr də təşkilata qoşulandan sonra bu say daha da artacaq. Belə halda ABŞ valyutası dünya bazarındakı dövriyyəsini yarıya qədər itirəcək. Bu isə dolların sürətlə dəyərsizləşməsinə, həmçinin ABŞ-nin özündə iqtisadi tənəzzülün, siyasi və sosial problemlərin yaşanmasına səbəb olacaq. Təbii ki, bu, ehtimaldır, amma reallıqdan bir o qədər uzaq da deyil.

ABŞ-də bəlanın haradan gəlməsini yaxşı bilirlər. O üzdən hər vəchlə Çinin iqtisadi yüksəlişini durdurmaq istəyir və bunun üçün müxtəlif bəhanələrlə Çin iqtisadiyyatına məhdudiyyətlər və sanksiyalar tətbiq edirlər. Amma dünyanın nüfuzlu ekspertləri və analitik qurumları ABŞ tərəfindən Çinin durdurulmasının mümkünsüz olduğu qənaətindədirlər.

Qayıdaq Hakan Fidanın Çindəki açıqlamasına. Sözsüz ki, Qərb Türkiyənin BRİCS-ə daxil olmaq istəyinə səssiz qalmayacaq. Qardaş ölkəyə qarşı həm hədələr, həm də yalançı və şirnikləndirici vədlərin sayı çoxalacaq. Lakin hamıya məlumdur ki, Rəcəb Tayyib Ərdoğanla təzyiq dili ilə danışmaq əbəsdir, o, qətiyyətli addım atan liderdir. Türkiyə həm də türk dünyasının lider ölkəsidir. Türk dövlətləri isə həm əlverişli coğrafi regionda yerləşir, həm də zəngin təbii sərvətlərə sahibdirlər.

Bəs Türkiyənin belə bir qərar qəbul etməsinə səbəb nədir? Məlumdur ki, qardaş ölkə uzun illər Avropa İttifaqı üzvlüyünə namizəd olsa da, birliyə qəbul edilmir. Bunun üçün min bir bəhanə uydururlar. Ancaq əsas səbəb Türkiyənin iqtisadi gücünün artmasından, əhalisinin sayından olan qorxudur. Qərbə isə güclü Türkiyə deyil, sözəbaxan, zəif Türkiyə lazımdır. Odur ki, Türkiyə daha Avropa İttifaqının qapısında dayanıb gözləmək istəmir, xüsusən də alternativ seçim varsa.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Beynəlxalq təşkilatlar mina terrorunun aradan qaldırılmasında Azərbaycanla həmrəylik nümayiş etdirməlidirlər

**Böyük zəfərlə başa çatan İkinci Qarabağ müharibəsindən bizi 4 ilə yaxın zaman məsafəsi ayırmasına baxmayaraq, Ermənistan ordusunun işğal dövründə, ondan sonrakı vaxtlarda basdırdığı minalar doğma yurdlarına qayıtmış vətəndaşlarımız üçün hələ də təhlükə mənbəyi olaraq qalır. Təəssüflər olsun ki, minalar işğaldan azad olunmuş ərazilərdə can almaqda davam edir.**

Ermənistanın məqsədyönlü siyasəti nəticəsində Azərbaycanın adı dünyada minalar və partlamamış hərbi sursatlarla ən çox çirklənmiş ölkələr arasında çəkilir. Ermənilər müxtəlif dövrlərdə ərazilərimizdə təxminən 1,5 milyondan artıq mina basdırıb. Ölkə vətəndaşlarının həyatı üçün olduqca böyük təhlükə yaradan bu məsələ Prezident İlham Əliyevin Zəngilan şəhərində keçirilən "Minaların ətraf mühitə təsirinin azaldılması - Təhlükəsiz və yaşıl gələcək üçün resursların səfərbər olunması" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində də xüsusi olaraq yer alıb.

Dövlət başçımızın müraciətində xüsusi olaraq qeyd olunur ki, Azərbaycan 30 ilə yaxın davam edən münaqişə və torpaqlarının Ermənistan tərəfindən işğalı nəticəsində ərazilərinin minalarla çirklənməsi problemindən əziyyət çəkir və dünyada minalarla ən çox çirklənmiş ölkələr sırasındadır: "Ölkə ərazisinin təxminən 12 faizi ilkin qiymətləndirmələrə görə, 1,5 milyon mina və naməlum sayda partlamamış hərbi sursatlarla çirkləndirilib. Müharibənin 2020-ci ildə başa çatmasından bu günə qədər əksəriyyəti mülki olan 361 vətəndaşımız mina qurbanı olmuş, onlardan 68-i həlak olmuş, 293-ü isə ağır yaralanmışdır. Ümumilikdə Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünün başladığı dövrdən indiyədək 3400-dən çox vətəndaşımız minalardan zərər çəkmişdir, onlardan 358-ni uşaqlar, 38-ni isə qadınlar təşkil edir. Mina qurbanlarının sayının gündən-günə artmasının əsas səbəbləri sırasında Ermənistanın Azərbaycan ərazisində basdırdığı minaların dəqiq xəritələrini təqdim etməkdən imtina etməsi, keçmiş təmas xəttinin arxasında yerləşən yollara, qəbiristanlıqlara, mülki təyinatlı digər obyektlərə tələ xarakterli minalar yerləşdirməsidir".

İşğaldan azad edilmiş ərazilərə gedən insanların həyatı hər an təhlükə qarşısındadır. Azərbaycan dövləti vətəndaşlarının minaya düşməməsi üçün bütün lazımi tədbirləri görür. İşğaldan azad olunmuş ərazilərə gedən yollarda nəzarət postları qoyulub. Vətəndaşların bu ərazilərə səfər etməsinin təhlükəli olduğu ilə bağlı geniş maarifləndirmə işləri aparılır. Ancaq insanlar doğma yurdlarını, evlərini görmək üçün işğaldan azad olunmuş bölgələrə bəzən alternativ yollarla səfər edirlər. Bu zaman baş verən mina partlayışı nəticəsində dinc sakinlər xəsarət alır və ya həlak olur. Təəssüf ki, beynəlxalq ictimaiyyət ölümlə nəticələnən hadisələrə qarşı susqunluq nümayiş etdirir.

Mülki təyinatlı ərazilərin kütləvi şəkildə minalanması beynəlxalq hüquq normalarının ciddi şəkildə pozulması ilə yanaşı, həm də insanlıq əleyhinə törədilən cinayətdir. Ona görə də müvafiq beynəlxalq təşkilatlar, bütövlükdə dünya ictimaiyyəti Azərbaycanın çağırışlarına adekvat cavab verməli və bütünlüklə dəqiq mina xəritələrinin ölkəmizə təhvil verilməsi üçün rəsmi İrəvana ciddi təzyiq göstərilməlidir. Mina qurbanlarının davamlı olmasının əsas səbəbi isə Ermənistanın üzərinə götürdüyü öhdəliyə zidd olaraq dəqiq mina xəritələrini ölkəmizə verməməsidir. Düzdür, müharibə başa çatandan sonra Ermənistan mina xəritələrinin bir hissəsini Azərbaycan tərəfinə təhvil vermişdi. Lakin araşdırmalar nəticəsində məlum olmuşdu ki, erməni tərəfinin təqdim etdiyi xəritələrin cəmi 25 faizi düzgündür.

Azərbaycan mina probleminə beynəlxalq ictimaiyyətin diqqətinin cəlb olunmasına xüsusi önəm verir. Çünki ölkə ərazisinin 12 faizi minalarla və partlamamış sürsatlarla çirklənib. Bu, kənd təsərrüfatı üçün yararlı torpaq fondunun 28 faizi deməkdir.

Hələlik isə Ermənistanın otuz illik işğal dövründə torpaqlarımızda basdırdığı minalar insanların həyatına və sağlamlığına təhlükə yaratmaqda davam edir. Aidiyyəti qurum və təşkilatlar tərəfindən bu məsələ ilə bağlı Ermənistana çağırış və təzyiqlər edilməli, bu cinayətlərin qarşısı qısa zamanda alınmalıdır. O da nəzərə alınmalıdır ki, partlamamış hərbi sursat, o cümlədən minalar və digər partlayıcı qalıqlar bu ərazilərdə torpağı və suyu çirkləndirir, onların daxilindəki kimyəvi maddələr və metallar ətraf mühitə sızaraq, bitki və heyvanat aləminin həyatı üçün təhlükə yaradır. Həmçinin partlayışlar bitki örtüyünü zədələyə və biomüxtəlifliyin itirilməsinə səbəb ola bilər. Dünya birliyi, beynəlxalq təşkilatlar bu problemin, mina terrorunun aradan qaldırılmasında Azərbaycanla həmrəylik nümayiş etdirməli və ölkəmizə güclü dəstək verməlidirlər. Günahsız insanların ölümünə bais olan Ermənistan nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən ciddi cəzalandırılmalıdır. Cinayətkar cəzalandırılmasa, minalar və partlamamış sursatlar vətəndaşlarımızın həyatı üçün təhlükə olaraq qalacaq.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

# Maohi Nui müstəqillik uğrunda mübarizədə qətiyyətlidir

## Fransa bu ölkəni müstəmləkə altında saxlamaq üçün beynəlxalq hüququn prinsiplərini kobud şəkildə tapdalayır

**Fransanın müstəmləkə altında saxladığı dənizaşırı ərazilərdə yerli xalqların milli azadlıq mübarizəsi güclənməkdədir. Onlar Parisin zülmündən xilas olmaq, müstəmləkədən qurtulmaq, müstəqillik əldə etmək üçün qətiyyətlə mücadilə edirlər. Müstəmləkə altında inləyən və müstəqillik arzusunda olan belə ölkələrdən biri də Fransadan minlərlə kilometr uzaqda - Sakit okeanın cənubunda yerləşən Fransız Polineziyasıdır.**

Əslində, bu ölkənin yerli dildə adı Maohi Nuidir (Fransız Polineziyası). Amma Fransa ölkənin adını öz istədiyi kimi dəyişib. Bu faktın özü də göstərir ki, Fransa burada yaşayan yerli əhalini dilindən, soykökündən, mədəniyyətindən uzaqlaşdırmaq siyasəti yürüdür. Təbii qaz, kömür kimi sərvətlərini çapıbtaladığı, insanlarını kölə kimi işlətdiyi bu ölkəni rəsmi Paris ömürlük müstəmləkəsində saxlamaq üçün bütün beynəlxalq hüquqları ayaqlar altına atır.

Ancaq Maohi Nui xalqı artıq Fransanın müstəmləkə zülmünə dözmək niyyətində deyil və bu istəyini öz etirazları ilə də nümayiş etdirir.

### Haqq mübarizəsinə dəstək

Bəzi siyasi mərkəzlərin, eləcə də Fransanın Ermənistana göstərdiyi hərtərəfli dəstəyə baxmayaraq, Azərbaycanın öz ərazisində separatizmin kökünü birdəfəlik kəsməsi, suverenliyini tam təmin etməsi, müstəmləkə zülmündən əziyyət çəkən xalqlar üçün də bir ümid, istinad mənbəyi oldu desək, yanılmarıq. Müstəqillik uğrunda mübarizə aparan Maohi Nui xalqının öz səsini Bakı Təşəbbüs Qrupu vasitəsilə dünyaya çatdırması da bunu göstərir.

Xatırladaq ki, bu yaxınlarda Fransız Polineziyasının "Tavini Huiraatira" partiyasının rəhbər heyəti və nümayəndələri Azərbaycanda səfərdə oldular.

Milli Məclisdə "Fransız Polineziyasının Dekolonizasiya Hüququ: Çağırışlar və Perspektivlər" mövzusuna həsr edilmiş konfransda çıxış edən Fransız Polineziyası nümayəndə heyətinin rəhbəri, "Tavini Huiraatira" Partiyasının Baş katibi Viktor Mamatuaiahutapu xalqının və təmsil etdiyi partiyanın öz məqsədlərinə çatmaq üçün göstərdiyi səylərdən bəhs edərək, Fransanın BMT qətnamələrinə məhəl qoymadığını, nüvə sınaqlarını davam etdirmək istədiyini diqqətə çatdırdı. V.Mamatuaiahutapunun siyasi baxımdan gənc xalq olduqlarını və ədalətin bərpası üçün Azərbaycanın dəstəyinə ehtiyac duyduqlarını vurğulaması da bir daha göstərdi ki, ölkəmiz dünyada haqqı, ədaləti dəstəkləyən siyasət yürütməsi ilə müstəmləkədən əziyyət çəkən xalqlar üçün də mühüm inam yeri olub.

Qeyd edək ki, sözügedən partiyanın nümayəndələri Bakı Təşəbbüs Qrupunun (BTQ) müvafiq komitələrində təmsil olunur, qrupun dünyanın müxtəlif ölkələrində təşkil etdiyi bütün tədbirlərdə fəal iştirak edirlər. Partiya ilə BTQ arasında əməkdaşlıq haqqında memorandum da imzalanıb.




### Parisin çirkin ssenarisi

Polineziya parlamentində mütləq üstünlüyə sahib olan "Tavini Huiraatira" partiyası 1977-ci ildə yaradılıb. Bu partiyanın əsas məqsədi Fransız Polineziyasının müstəqilliyinin əldə edilməsidir.

2013-cü ildə Polineziyanın yenidən BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısına salınması məhz "Tavini Huiraatira" partiyasının nümayəndələrinin apardığı yorulmaz iş nəticəsində mümkün olub.

Xatırladaq ki, Polineziya 1946-cı ildə BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısına salınsa da, Fransanın təzyiqi nəticəsində 1947-ci ildə oradan çıxarılmışdı. Fransa bu gün də bu istiqamətdə fəaliyyət göstərir. Güclü sosial bazaya malik partiyanın bu gün Fransız Polineziyasının həm icraedici, həm də qanunvericilik hakimiyyətində üstünlüyə malik olması Fransa dövlətini ciddi şəkildə narahat edir. Fransız Polineziyasının müstəmləkə altındakı digər ərazilərdən fərqi ondadır ki, Fransa yerli əhalinin assimilyasiyasına nail ola bilməyib.

Lakin Fransanın bu çirkin siyasətini Yeni Kaledoniyanın timsalında əyani görürük. Yeni Kaledoniyada müstəqillik və azadlıq istəyən xalqa bunun üçün heç cür imkan verməyən, onların referendum keçirməsinə belə maneələr törədən Fransa uzun illərdir ki, minlərlə miqrantı qanunsuz yolla Yeni Kaledoniyaya yerləşdirərək yerli xalq olan kanakları assimilyasiya edir və bu yolla adanı müstəmləkəsi altında saxlamağa çalışır. Azadlıq istəyən kanakları azlığa çevirmək üçün Fransa Yeni Kaledoniya Konqresinin və xalqının iradəsinə zidd olaraq, bu ölkənin seçki qanunvericiliyini dəyişmək qərarına gəlib. Fransa hökuməti miqrantlara səs hüququ verməklə ölkənin əsarətdə saxlanılmasına dair referendumda üstünlük qazanmağa çalışır, buna etiraz edən kanakların səsini qanla boğur.

Paris eyni çirkin ssenarini Fransız Polineziyasında da həyata keçirmək üçün müxtəlif yollara əl atır.

Göründüyü kimi, Fransa beynəlxalq qanunları heçə sayaraq Maohi Nui xalqının hüquqlarını tapdalayır, adadakı kolonial siyasətini davam etdirir ki, bu da onun müstəmləkəçi tarixindən əl çəkmək istəmədiyini ortaya qoyur.

Ancaq yerli əhalinin azadlıq istəyində israrlı olması və getdikcə artan dəstək Fransız Polineziyasının müstəqillik mübarizəsində qalib gələcəyinə böyük ümidlər yaradır.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*

# Fransanın müstəmləkə siyasətinə qarşı etirazlar səngimir

**Emmanuel Makron hökuməti son illər ard-arda verdiyi yanlış qərarlarla, qərəzli yol tutması ilə Fransaya ağır zərbələr vurur. Bu ölkə artıq nəinki bütün dünyada, Avropanın özündə də söz sahibi olmaq şansını itirir. Hökumətin uğursuz xarici siyasəti Fransanı getdikcə daha da nüfuzdan salır, girdaba sürükləyir.**

Fransanın müstəmləkəçilik siyasəti aparması son on ilin məsələsi deyil. Bu dövlət əsrlərdir ki, bəzi ölkələrin sərvətlərini talayır. Həmin ölkələrin yerli əhalisinin haqq səsini boğmaq, mübarizə əzmini qırmaq üçün onlara qarşı amansızlıq göstərib. Fransa hökuməti müstəmləkəsinə çevirdiyi ölkələrin vətəndaşlarını hüquqlarından, öz milli-mənəvi dəyərlərinə sahiblənmək, yaşatmaq haqlarından məhrum etmək üçün ən dəhşətli tədbirlərə əl atıb, qətllər, qırğınlar, soyqırımları törətməkdən çəkinməyib. Fransa hələ də sərhədlərindən minlərlə kilometr uzaqlarda, Cənubi və Mərkəzi Amerika, Afrika, Asiya və Okeaniyada 13 ərazini öz nəzarətində saxlayır.

Bütün dünyanın gözü qarşısında, XX əsrin axırlarında Azərbaycanın vətəndaşlarına qarşı qırğınlar, soyqırımları törədən, Qarabağ və Şərqi Zəngəzur ərazilərini qəsb edən və otuz ilə yaxın işğal altında saxlayan təcavüzkar Ermənistanı dəstəkləyənlər, əslində, özlərinin əsl simalarını göstərirdilər. Həmin illərdə Fransa da ATƏT-in Minsk qrupunun tərkibində Azərbaycan və Ermənistan arasında vasitəçilik missiyasını yerinə yetirmək adı ilə ədalətin bərpasına, eləcə də sülhə əngəl törədirdi. 2020-ci ilin payızında baş verən Vətən müharibəsində Azərbaycan Ermənistanın işğalı altında qalan ərazilərini öz gücü ilə azad edəndə də rəsmi Paris növbəti dəfə məsələyə ikili standartlarla yanaşdı.

Azərbaycanın Vətən müharibəsindən sonra da öz haqq yolu ilə qətiyyətlə addımlamasından, işğaldan azad etdiyi torpaqlarında tikinti-quruculuq işləri aparmasından, 2023-cü ilin sentyabrında lokal xarakterli antiterror tədbirləri nəticəsində Qarabağ bölgəsində qalaraq təxribatlar, terror əməllərini davam etdirən Ermənistan silahlı qüvvələrinin tör-töküntülərini və separatçıları məğlubiyyətə uğratmasından, ölkəmizin öz ərazilərində suverenliyini tam bərpa etməsindən Emmanuel Makron hökuməti əməlli-başlı rəncidə oldu. Gündən-günə güclənən, Cənubi Qafqaz regionunun lider dövlətinə çevrilən, dünyada nüfuzu daha da yüksələn Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının real göründüyü bir zamanda rəsmi Paris, necə deyərlər, suyu bulandırmağa səy göstərdi. Ermənistanı müharibəyə təhrik etmək üçün silah-sursat verdi, revanşistləri həvəsləndirdi. Bununla Cənubi Qafqazı yenidən münaqişə ocağına çevirə, regionda öz məqsədlərini həyata keçirə biləcəyini düşündü.

Ancaq bu gün Emmanuel Makron hökumətinin qarşılaşdığı reallıqlar fərqlidir. Fransa nəinki Cənubi Qafqaza müdaxilə edə bilmir, hətta müstəmləkəsi altında saxladığı ölkələrdə hökmranlığını itirir. Rəsmi Paris uzun illər idi ki, həmin ölkələrin xalqlarının fəryad səslərini qulaqardına vururdu. Bu gün isə həmin xalqlar yalnız haray salmır, fəryad etmirlər, eyni zamanda Fransanın müstəmləkə zəncirindən qurtulmaq, öz haqlarının bərpası uğrunda qətiyyətli mübarizə aparırlar.

Fransanın müstəmləkəçilik siyasətindən cana doymuş kanak xalqı da etiraz səsini dünyaya eşitdirməyə çalışır. Belə ki, Sakit okeanda yerləşən və Fransanın nəzarəti altında olan Yeni Kaledoniyanın yerli sakinləri öz hüquqlarının müdafiəsi, özünüidarəetmə və təbii sərvətlərin fransız şirkətləri ilə birlikdə beynəlxalq korporasiyalar tərəfindən istismarına son qoyulmasını qəti şəkildə tələb edirlər. Fransanın əsrlərdir Yeni Kaledoniyada apardığı müstəmləkə siyasətini davam etdirməyə çalışan Emmanuel Makron hakimiyyəti isə kanakların haqlı tələblərini yerinə yetirməkdən boyun qaçırır və kəskin tədbirlərlə bu mübarizəyə son qoymağa çalışır. Rəsmi Parisin Yeni Kaledoniyaya qoşun göndərməsi vəziyyətin daha da kəskinləşməsi ilə nəticələndi. Yüzlərlə etirazçı həbs edildi. Toqquşmalarda ölənlər və xəsarət alanlar oldu. Beləliklə, Fransanın özündən 16 min kilometr aralıda, Sakit okeanda yerləşən Yeni Kaledoniyanı XXI əsrdə də öz təsiri altında saxlamaq cəhdləri yeni faciələrə səbəb oldu.

Fransanın müstəmləkə siyasətinə etiraz edən, öz hüquqlarının bərpası uğrunda mübarizəyə qalxan yalnız kanak xalqı deyil. Fransanın dənizaşırı əraziləri hesab edilən ölkələrdə son illər rəsmi Parisə qarşı etirazlar yüksəlməkdədir. Sözügedən ölkələrin yerli xalqları Fransanın müstəmləkəsi altında əzab-əziyyət içində yaşamaqdan beziblər. Onlar da ölkələrinə sahib çıxmaq, müqəddəratlarını özləri həll etmək, dövlət müstəqilliklərinə nail olmaq məqsədilə mübarizə aparırlar.

Fransadan təqribən 17 min kilometr uzaqda - Sakit okeanın cənubundakı 5 arxipelaqdan ibarət Fransız Polineziyasında da yerli xalq Fransanın müstəmləkəçiliyinin sona çatması, müstəqil olmaq arzusundadır. Qeyd edək ki, Polineziya hələ 1946-cı ildə BMT-nin dekolonizasiya edilməli olan ərazilər siyahısına salınsa da, Fransanın təzyiqi nəticəsində 1947-ci ildə siyahıdan çıxarılıb. Yenə də Fransa bu istiqamətdə fəaliyyət göstərməkdədir. Polineziyanın həm icraedici, həm də qanunvericilik hakimiyyətində üstünlüyə malik olmasından rəsmi Paris narahatdır. Ona görə ki, müstəmləkəsi altında saxladığı digər ərazilərdən fərqli olaraq, Fransa Polineziyada yerli əhalinin assimilyasiyasına nail ola bilməyib. Bu səbəbdən də Yeni Kaledoniyada etnik icmalar arasında tətbiq etdiyi "parçala və hökm sür" siyasətini bu ölkədə gerçəkləşdirməyə müvəffəq ola bilmir. Rəsmi Paris alternativ yollar seçir, dini icmalara təsir göstərməyə çalışır. Əhalisi əsasən protestantlar və katoliklər olan Polineziyada birincilər çoxluq təşkil edir və onlar müstəqillik tərəfdarıdırlar. Emmanuel Makron hökuməti Polineziyanın adalardan ibarət olmasından sui-istifadə edərək katoliklərin çoxluq təşkil etdiyi ərazilərdə rəhbər şəxsləri müxtəlif yollarla öz tərəfinə çəkməyə cəhd edir. Məqsədinə çatmaq üçün hər cür çirkin vasitəyə əl atırlar.

Lakin Fransanın kolonial siyasətinin qurbanı olan bölgələrin xalqları heç bir hiylə, təzyiq, təhdidlə mübarizələrini dayandırmırlar. Müstəmləkə altında yaşayan xalqların qətiyyətli mübarizələri ümid verir ki, Fransa Yeni Kaledoniya, Polineziyadan və başqa yerlərdən geri çəkilmək məcburiyyətində qalacaq. Ədalət öz yerini tapacaq.

*Zöhrə FƏRƏCOVA, "Azərbaycan"*

# Avropa Parlamentinə seçkilərə start verildi

## Sağ populistlərin artan reytinqini nəzərə alsaq, seçici fəallığı həlledici rol oynaya bilər

**İyunun 6-dan 9-dək Avropa İttifaqı ölkələrinin 350 milyon vətəndaşı Avropa Parlamentinin yeni tərkibini birbaşa seçə biləcək. Proqnozlara görə, sağçı populistlər, avroskeptiklər və millətçilər mövqelərini gücləndirə bilərlər, lakin səs çoxluğu qazanmayacaqlar.**

Avropa Parlamentinin Sədri Roberta Metsola son bir neçə ayı Avropa İttifaqına üzv olan 27 ölkənin hamısına səfərlərdə keçirib. Bələdiyyə binalarında, universitetlərdə və məktəblərdə "Səsindən istifadə et" şüarı ilə keçirilən çoxsaylı müzakirələrdə Avropa Xalq Partiyasının xristian demokrat üzvü gənc seçiciləri beş ildən bir keçirilən seçkilərlə maraqlandırmağa çalışıb. Roberta Metsola Danimarkadakı gənclərə müraciətində deyib: "Sizin təsəvvürünüzdə Avropa Parlamenti 700 deputat kürsüsündən ibarətdir və bu yerlər səs verib-verməməyinizdən asılı olmayaraq paylanacaq. Amma indi sizin seçiminiz var, vəziyyəti dəyişə bilərsiniz, bu yerləri kimin alıb-almayacağına təsir edə bilərsiniz".

Əslində, Aİ-nin 350 milyon seçicisini inandırmaq asan deyil. 2019-cu ildə keçirilən son Avropa Parlamenti seçkilərində seçici fəallığı cəmi 50 faiz civarında olub. Cari ilin yazında keçirilən ictimai rəy sorğusunun nəticələri göstərir ki, bu dəfəki seçkilərə insanların marağı 60 faizdir. Buna uyğun olaraq seçici fəallığı arta bilər. Bu, bir çox siyasi qüvvənin artıq "Aİ üçün taleyüklü seçki" və ya "Aİ yolunun seçimi" kimi elan etdiyi cari səsvermə üçün xüsusilə vacibdir. Statistikaya görə, adətən siyasi qüvvələr spektrində mərkəzi təmsil edən partiyalar yüksək seçici fəallığından faydalanırlar. Bir çox Aİ ölkəsində sağ populistlərin artan reytinqini nəzərə alsaq, seçici fəallığı həlledici rol oynaya bilər.

Ekspertlərin qeyd etdiyi kimi, Rusiyanın Ukraynaya qarşı müharibəsi fonunda bir çox Aİ ölkəsində seçki kampaniyası zamanı təhlükəsizlik və müdafiə ilə bağlı müzakirələr üstünlük təşkil edib. Bununla belə, rəy sorğularına görə, orta hesabla Aİ-yə üzv olan 27 ölkədə ən mühüm səsvermə məsələləri iqtisadi və sosial problemlərlə bağlıdır. Eyni zamanda əksər Aİ ölkələrində miqrasiya siyasəti seçicilər arasında həlledici rol oynamır.

Bir çox ölkədə Aİ-yə şübhə ilə yanaşan sağçı mühafizəkarlara və sağçı ekstremistlərə dəstəyin gözlənilən artması seçki kampaniyalarının iştirakçılarını narahat edir. Məsələn, Almaniyanın Federal Kansleri Olaf Şolts seçkiqabağı videomüraciətində bildirib: "Bəzi populistlər Almaniyanı Avropa İttifaqından çıxmağa çağırır, digərləri isə Putinin Rusiyasını və ya Si Cinpinin Çinini Avropa üçün nümunə hesab edirlər. Bəziləri isə hətta Aİ-ni dağıtmaq istəyir ki, bu, özünü məhv edən dəlilikdir! Avropa və Avropa İttifaqı bizim rifahımızı və gələcəyimizi təmin edir".

Qeyd olunur ki, Fransa, İtaliya, Niderland, Belçika, Avstriya və Macarıstanda seçicilər arasında populyarlıq baxımından ifrat sağçı partiyalar birinci yerdədir. Polşa, Almaniya və İsveçdə sağ partiyalar ən azı ikinci və ya üçüncü qüvvəyə çevrilə bilər. Bir neçə regional şöbəsi sağçı ekstremist kimi tanınan Almaniya üçün "Alternativ" partiyası təxminən 15 faiz dəstəklə olkənin iki hakim partiyası olan SDP və "Yaşıllar" ilə eyni populyarlıq səviyyəsindədir. Almaniyada müxalif Xristian Demokratları 30 faiz səslə liderdir.

Bu arada seçkilərin nəticələrinə əsasən, sağçı partiyalar üçün Avropa Parlamentində yerlərin sayının əhəmiyyətli dərəcədə artacağı və 21-25 faiz arasında olacağı gözlənilir. Lakin bu, parlament çoxluğu üçün kifayət etməyəcək.

Xatırladaq ki, seçkilər ənənəvi olaraq dörd gün ərzində keçirilir. İyunun 6-da Niderlandda start götürən proses yaxın iki gün ərzində İrlandiya, Latviya, Malta, Slovakiya və Çexiyada davam edəcək. Avropa İttifaqına üzv olan ölkələrin əksəriyyətində isə səsvermə 9 iyun bazar günü keçiriləcək.

Onuncu Avropa Parlamentində yerlərin bölgüsü ilə bağlı məlumat həmin gün Mərkəzi Avropa vaxtı ilə saat 23:00-da elan olunacaq.

*Rizvan CƏFƏROV, "Azərbaycan"*

# Revanşistlərin keşiş planı iflasa uğrayır

**Hayastanda müxalif qüvvələrin Nikol Paşinyan iqtidarına qarşı fəaliyyəti genişlənsə də, keçmiş hərbi xunta yenidən önə çıxmağa cəhd etsə də, Xocalı soyqırımını törədənlərin və son savaşda məğlub olan müharibə canilərinin Paşinyanı hakimiyyətdən devirmək planları yenə də işə yaramadı.**



Etirazlar aprelin 19-da İrəvan və Bakının Tavuşdan delimitasiyaya başlamağa razılaşdığı məlum olduqdan sonra alovlanıb.

Revanşist qüvvələrin, habelə xarici dairələrin ssenarisi əsasında təşkil olunan etiraz aksiyalarının "lider"i rolunu oynayan, mayın 9-da Tavuşdan İrəvana yürüş keçirən Erməni Apostol Kilsəsinin Tavuş yeparxiyasının rəhbəri, arxiyepiskop Baqrat Qalstanyan baş naziri istefaya çağırıb. İstefa tələbi cavabsız qaldıqdan sonra Qalstanyan itaətsizlik aktlarının başladığını elan edib.

Hayastanın "Past" nəşri yazıb ki, reallıq hissini qoruyub saxlayan insanlar aydın dərk edirlər və özlərinə hesab verirlər ki, Ermənistanı məhv etmiş Paşinyanı hakimiyyətdən uzaqlaşdırmaq nəinki asan olmayacaq, həmçinin bundan sonra daha mürəkkəb və çətin olacaq. Qeyd edilib ki, ötən gün "Vətən naminə Tavus" hərəkatının lideri arxiyepiskop Baqrat Qalstanyan gələcəkdə nə olacağı barədə bəzi fikirləri açıqlayıb, "keçid hökuməti"nin funksiyaları ilə bağlı ideyaların əsas tezislərini təqdim edib: "Beləliklə, keçid hökumətinin 3 əsas funksiyası olacaq: Bütün səviyyələrdə uzlaşma gündəmini həyata keçirəcək barışıq hökuməti. Xarici dünya ilə münasibətləri tənzimləmək və vəziyyəti qiymətləndirmək, ölkənin bütün bu geosiyasi vəziyyətdə öz kursunu qoruyub saxlamasına nail olmağa çalışmaq. Müəyyən ediləcək müddətdə növbədənkənar seçkilər hazırlamaq.

Müvəqqəti hökumət isə ədalət prinsipini pozmamaq üçün həmin seçkilərdə iştirak etməyəcək. Hər şey olduqca sadədir, başadüşüləndir, lakin bu tezislərin hər birini və onların ayrı-ayrı komponentlərini, belə demək mümkündürsə, mötərizələri açmaq lazımdır".

Bu arada Nikol Paşinyan və arvadı Anna Akopyanın davranışları Hayastanda daha çox qıcıq yaratmağa başlayıb. Təkcə müxalifət tərəfdarları deyil, hətta Paşinyanın ən yaxın adamları, partiya üzvləri də narazılıqlarını dilə gətirməyə başlayıblar. Qeyd olunur ki, ölkədə mövcud gərginlik fonunda Nikol Paşinyan öz adamlarına xalq arasında çox dolanmamağı, qıcıq yaratmamağı tapşırıb. Paşinyan və ailəsi isə bu göstərişə özləri məhəl qoymurlar. Xüsusən Anna Akopyanın tez-tez xalq arasında görünməsi böyük narazılıq yaradır. Çünki Anna Akopyanın onlarca mühafizəçinin əhatəsində olması xalqla bu cür yaxınlığın süni olmasını göstərir, həmçinin cəmiyyətdə ikrah hissi doğurur. İkrah hissi doğuran daha bir məqam isə Akopyanın geyimidir.

Paşinyanın arvadının son səfəri zamanı çəkdirdiyi selfi kəskin narazılıqla qarşılanıb. Paşinyanın tərəfdarları olan "Vətəndaş sazişi" üzvləri belə Akopyanın açıq-saçıq geyimdəki selfisindən hiddətləniblər.

Erməni siyasi analitik Hakop Badalyan isə deyib ki, Paşinyan və arvadı bir tərəfdən velosiped sürmək və ya küçədə qayğısız gəzmək kimi təbliğat fəndləri ilə tərəfdarlarına sakitlik nümayiş etdirmək istəyirlər, digər tərəfdən isə narahat ola bilərlər, lakin bu yolla narahat olan tərəfdarlarını sakitləşdirmək istəyirlər.

Onun sözlərinə görə, bu gün Hayastanın və siyasi rəhbərliyin resursları o qədər məhduddur ki, onlar təbliğat üsullarına əl atırlar: "2018-ci ildən sonra mövcud imkanlardan sosial-siyasi problemlərin həlli üçün istifadə edilməli idi, əvəzində fəaliyyətdə olan hakimiyyət keçmiş-indiki qısamüddətli məsələlərlə məşğul oldu. Ermənistanda daxili siyasi hadisələrin əsas generatoru xarici qüvvələrdir, Böyük Britaniyanın marağı daha böyükdür".

Görünən odur ki, Hayastanda daxili siyasi vəziyyət tədricən mürəkkəbləşməyə doğru gedir. Bununla da ölkə sonu görünməyən daxili siyasi böhrana qədəm qoyacaq.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Moldovada DOST modeli əsasında ilk mərkəzin açılışına hazırlıq işləri görülür

**Beynəlxalq Əmək Konfransının 112-ci sessiyasında (Cenevrə) iştirak edən Azərbaycan nümayəndə heyətinin rəhbəri, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev sessiya çərçivəsində Türkiyənin əmək və sosial müdafiə naziri Vedat İşıkhanla görüşüb.**



Görüşdə iki nazirlik arasında əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üzrə Birgə Daimi Komissiyanın bu il mayın 30-da Bakıda keçirilən 11-ci iclasının əlaqələrin daha da genişlənməsində önəmi qeyd edilib. İclasın yekunu olaraq imzalanmış protokola əlavə olunan 2024-2025-ci illər üzrə tədbirlər planı əsasında görüləcək birgə işlərdən bəhs olunub.

Sessiya çərçivəsində Moldovanın əmək və sosial müdafiə naziri Aleksey Buzu ilə keçirilən görüşdə S.Babayev moldovalı həmkarını Beynəlxalq Əmək Konfransının builki sessiyasının prezidenti seçilməsi münasibətilə təbrik edib.

Görüşdə sosial sahədə ikitərəfli əlaqələrin genişləndirilməsi üçün məqsədyönlü işlərin görüldüyü qeyd edilib. Bildirilib ki, Azərbaycanın DOST və sosial sahədə elektron xidmətlərlə bağlı təcrübələrini tətbiq etməkdə maraqlı olan ölkələrdən biri də Moldovadır.

Bu sahədə aparılan fəal təcrübə mübadilələrinin önəmi vurğulanıb. Həmin ölkədə DOST modelinin tətbiqi ilə bağlı artıq ciddi addımların atıldığı, sosial xidmətlərin elektronlaşdırılması işlərinin davam etdiyi bildirilib. Moldovada DOST modeli əsasında ilk mərkəzin açılması üçün hazırlıq işlərinin aparıldığı qeyd edilib.

S.Babayevlə İsveçrə Konfederasiyasının dövlət katibi, İqtisadi Məsələlər üzrə Dövlət Katibliyinin Əmək Direktorluğunun rəhbəri Boris Zürcherin görüşündə iki ölkə arasında əmək və məşğulluq sahəsində əməkdaşlığın genişləndirilməsi, fəal təcrübə mübadilələrinin aparılması üçün böyük potensial olduğu bildirilib.

Azərbaycanda aparılan sosial islahatların uğurları, DOST konsepsiyası və dövlət sosial xidmətlərinin rəqəmsallaşdırılması istiqamətində əldə olunan nailiyyətlər barədə məlumat verilib. Əmək və sosial müdafiə sahəsində əməkdaşlıq üçün müqavilə-hüquq bazasının yaradılması məsələlərinə dair fikir mübadiləsi aparılıb.

## 35 pillə yüksəliş

### Dünya Bankı Azərbaycanda qadın sahibkarlığının inkişafı üçün yaradılan imkanları yüksək qiymətləndirir

**Azərbaycanın iqtisadi sahədə qazandığı uğurlar dünyada da maraqla izlənilir. Bunu nüfuzlu beynəlxalq təşkilatlar tərəfindən verilən yüksək qiymətlər də təsdiq edir.**

Beynəlxalq qurumlar belə yüksək nailiyyətləri ölkədə aparılan islahatlarla əlaqələndirirlər. O səbəbdən Azərbaycanın dünyada ən çox islahat aparan ölkə kimi dəyərləndirilməsi təsadüf deyil. Təsadüfi olmayan həmçinin Beynəlxalq Valyuta Fondunun (BVF) Azərbaycanı xarici investisiyalar üçün ən əlverişli ölkə kimi "Top-7"yə daxil etməsi və "Açıq Büdcə İndeksi - 2023" hesabatında ölkəmizin mövqeyinin 2021-ci ilin reytinq göstəricisi (57 bal) ilə müqayisədə 10 bal yüksəldiyinin elan edilməsidir.

Bu günlər Dünya Bankının ölkəmizlə bağlı daha bir reytinqi məlum olub. Bankın açıqlamasında Azərbaycan Qadın, Biznes və Hüquq reytinqinə görə, son bir ildə 35 pillə irəliləyərək 190 ölkə arasında ötənildəki 104-cü pillədən 69-cu pilləyə yüksəlib. Elə bu yüksəliş də təsadüfi sayılmamalıdır. Çünki ölkəmizin özəl sektorunda qadınların rolunun və çəkisinin intensiv şəkildə artdığı göz önündədir. Xanımların sahibkarlıq fəaliyyətini artırmaq, onların hüquqlarının qorunması və layiqli əməyinin təmin olunması, müasir dövrün və əmək bazarının tələblərindən irəli gələn istiqamətlər üzrə maarifləndirici layihələrin həyata keçirilməsi Azərbaycanda bu sahədə atılan addımlardan sadəcə bir neçəsidir.

Qadınların hüquqlarının qorunması onların iqtisadi müstəqilliyi ilə birbaşa bağlıdır. Bu səbəbdən qadın sahibkarlığının inkişafı böyük əhəmiyyət kəsb edir. Qadınlar arasında sahibkarlığın artması cəmiyyətin bütövlükdə inkişafına müsbət təsir göstərən amildir.

Azərbaycanda qadın sahibkarlığının inkişafı üçün hər cür şərait yaradılıb: əlverişli hüquqi baza mövcuddur, dövlət tərəfindən sahibkarlıqla məşğul olan qadınlara diqqətlə yanaşılır, onların iqtisadi potensiallarının artırılması, hüquqi, texniki və maliyyə yardımlarının göstərilməsi, güzəştli kreditlərin verilməsi istiqamətində mühüm layihələr həyata keçirilir. Odur ki, təkcə son iki ildə Azərbaycanda sahibkar qadınların sayı 2 dəfə artıb. Ölkənin sosial-iqtisadi həyatında fəal iştirak edən




Azərbaycan qadınlarının məşğul əhalinin ümumi sayındakı xüsusi çəkisi isə ilkin məlumatlara əsasən 48,2 faizdir.

Məlum olduğu kimi, Azərbaycanda məşğul əhalinin önəmli bir hissəsi regionlarda yaşayır. Buna görə də bölgədə yaşayan qadınların məşğulluğunun təmin edilməsi xüsusi əhəmiyyət daşıyır. Kənd təsərrüfatında icra edilən hər bir layihə təşəbbüskar ruhlu qadınları maarifləndirməklə kənd təsərrüfatında qadın sahibkarlığını maksimum dərəcədə gücləndirmək məqsədi daşıyır.

Kənd Təsərrüfatı Nazirliyinin müvafiq qurumları müxtəlif layihə çərçivəsində regionlardan olan qadın fermerlərlə mütəmadi görüşlər keçirir. Bu görüşlərdə kənd təsərrüfatı məhsulları istehsalının hər mərhələsində qadın fermerlərin bilik və bacarıqlarını artırmaq, davamlı əkinçilik fəaliyyətini təmin etmək və keyfiyyətli məhsul almaq üçün bağçılıqdan heyvandarlığa, meyvəçilikdən istixanaya, arıçılıqdan ipəkçiliyə qədər bir çox kənd təsərrüfatı mövzusunda müxtəlif metodikalar tətbiq edilərək təlimlər verilir. Paralel olaraq qadın fermerlərin və gənc qızların sosial həyatını müasir həyat səviyyəsinə çatdırmaq və onları sosial-iqtisadi baxımdan inkişaf etdirmək üçün müxtəlif sosial məsələlər üzrə (ailə resursları və idarəetmə, qidalanma, uşaq inkişafı və təhsil, əl işləri kimi) təlim fəaliyyətləri həyata keçirilir. Dövlət dəstəyi sayəsində çalışan qadınlar öz imkanlarını fürsətə çevirərək şəxsi bizneslərini qururlar. Və bu zaman onların istehsal etdikləri məhsulları sataraq gəlir əldə etmələri üçün də dəstək verilir.

Milli Məclisin deputatı Vüqar Bayramov hesabata istinadən bildirib ki, Azərbaycan Mərkəzi və Şərqi Avropada bu sahədə 9 islahat həyata keçirən 5 ölkədən biridir: "Bütövlükdə isə dünyada 18 ölkə hesabat ilində islahatlara imza ata bilib. Qeyd edək ki, hesabatda ölkəmiz mümkün 100 baldan 85 bal toplayıb. Qardaş Türkiyə və Özbəkistan 82,5, Qırğızıstan 76,9, Qazaxıstan 75,6 və Rusiya 73,1 bal ilə qiymətləndirilib. 100 faizlik nəticəni isə 14 ölkə nümayiş etdirib. Onlardan Kanada istisna olunmaqla, digər 13-ü Avropanı təmsil edir".

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Naxçıvanda yeni Data Mərkəzin təməli qoyulacaq

**Türkiyə ilə sərhəddən, yəni Sədərəkdən Ordubada qədər Naxçıvan şəhəri və Şahbuz da əhatə olunmaqla fiber-optik magistral işlərinin I mərhələsi yekunlaşıb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Naxçıvan Muxtar Respublikasının rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini - nazir vəzifəsini icra edən Rahid Ələkbərli Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin təşkilatçılığı ilə keçirilən "Dövlət Qurumlarının IT rəhbərlərinin IV Zirvə Toplantısı"nda çıxışı zamanı bildirib.

"Artıq inşaat işlərinin satın alınması işləri başa çatıb. Bu, kifayət qədər ciddi layihədir. Hazırda mövcud infrastruktura alternativ infrastrukturun tikintisi nəzərdə tutulur. Söhbət 16 terabit saniyə tutumu daşıya biləcək infrastrukturdan gedir", - deyə o qeyd edib.

R.Ələkbərli qeyd edib ki, digər önəmli məsələ Data Mərkəzin tikintisi layihəsidir: "Bu, bizim təxirəsalınmaz layihələrimizdəndir. Layihə dövlət proqramı çərçivəsində həyata keçirilir. Artıq satınalma işlərinin bir hissəsi həyata keçirilib. Layihələndirmə işləri yekunlaşıb, artıq sənədləri ekspertizaya təqdim etmişik. Tezliklə Data Mərkəzin təməlqoyma mərasimi keçiriləcək".

## ƏƏSMN-in layihəsi Böyük Britaniyada keçirilən müsabiqənin qalibi olub

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Proaktiv sosial ödənişlər mexanizmi" layihəsi daha bir beynəlxalq mükafata layiq görülüb.**

Layihə Böyük Britaniyada keçirilən "Qlobal Biznes Texnologiyaları" müsabiqəsində texnologiya üzrə ekspertlərdən ibarət müstəqil münsiflər heyəti tərəfindən yüksək qiymətləndirilib.

Beləliklə, "Proaktiv sosial ödənişlər mexanizmi" layihəsi müsabiqənin "Dövlət sektorunda texnologiyaların ən yaxşı tətbiqi" kateqoriyası üzrə qalibi seçilib və "Qlobal Biznes Texnologiyaları 2024" mükafatına layiq görülüb.

Müsabiqədə Azərbaycanla yanaşı, Böyük Britaniya, İspaniya, Sinqapur, ABŞ, Ukrayna və bir sıra digər ölkələrin İKT sahəsi üzrə fəaliyyət göstərən qurumları iştirak edib.

## "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin sayı 151-ə çatıb

**Xidmət sektoru üzrə mobil tətbiq və onlayn platformalar yaratmış daha 6 KOB subyekti mənfəət və ya gəlir vergisindən azad edilib.**

Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) tərəfindən daha 6 mikro və kiçik sahibkarlıq subyektinə "Startap" şəhadətnaməsi verilib. Bununla da "Startap" şəhadətnaməsi almış KOB subyektlərinin sayı 151-ə çatıb.

"Startap" şəhadətnamələri "Money-Tunnel" MMC-nin maliyyə təşkilatları ilə müştəriləri əlaqələndirən mobil tətbiqi, Rüfət Gülmalızadənin interaktiv videotəlim və kommunikasiya platforması, "Yax" MMC-nin taksi sifarişi üçün mobil tətbiqi, "Jİ Studio" MMC-nin süni intellekt əsasında veb-səhifələrin dizaynı və hazırlanması üçün platforma, Niyaz İsmayılovun interaktiv mükafatlandırıcı onlayn yarış platforması, "Ainuverse" MMC-nin videoməzmun üzərindən "ağıllı axtarış" platforması layihələri üçün təqdim edilib.

"Startap" şəhadətnaməsi KOB subyektlərini şəhadətnaməni aldıqları tarixdən etibarən innovasiya fəaliyyətindən əldə etdikləri gəlirlər üzrə mənfəət və ya gəlir vergisindən 3 il müddətinə azad edir.

## Azərbaycan nefti ucuzlaşmaqda davam edir

**"Azeri Light" markalı neftin bir barelinin qiyməti 0,9 dollar və ya 0,14 faiz ucuzlaşaraq 78,35 dollar olub.**

AZƏRTAC-ın məlumatında qeyd olunur ki, "Azeri Light" neftinin ən aşağı qiyməti 2020-ci il aprelin 21-də (15,81 ABŞ dolları), maksimal qiyməti isə 2008-ci ilin iyulunda (149,66 ABŞ dolları) qeydə alınıb.

## Azərbaycan sübut edir ki...



### "Qara qızıl" diyarı "yaşıl enerji" ölkəsinə çevriləcək

**Bir neçə aydan sonra Azərbaycan öz tarixinin önəmli hadisələrindən birinin - "Əsrin müqaviləsi"nin imzalanmasının 30 illiyini qeyd edəcək. Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının tammiqyaslı işlənməsi üzrə Hasilatın Pay Bölgüsü Sazişi sonradan məhz belə adlandırıldı və zaman göstərdi ki, bu, hətta əsrlərə hesablanmış bir müqavilədir. Bu saziş Azərbaycanın müəllifi Ulu Öndər Heydər Əliyev olan yeni neft strategiyasının təməli və ölkənin transformasiyasında dönüş nöqtəsi oldu.**

"Bura çox riskli bir ölkə idi, investorlar həmişə siyasi çətinliklərə və geosiyasətə qarşı həssasdırlar. Lakin onlar hökumətə və xalqa etibar etdilər... SOCAR və yaradılmış konsorsium arasında çox etibarlı əməkdaşlıq var idi. Bu, məhz belə başladı və üç il müddətində "Çıraq" platformasından ilk neft hasil olundu. Bu, neft sahəsinin tarixində çox əlamətdar və rekord bir hadisə idi. Müqavilənin imzalanmasından hasilata qədər cəmi üç il vaxt ötdü və sonra Qara dəniz limanlarına gedən iki boru xətti istismara verildi. 1999-cu ildə onların hər ikisi artıq işlək idi. Sonra çox çətin relyef şəraitində və region ölkələrinin və şirkətlərinin güclü əməkdaşlığı ilə uzunluğu 1700 kilometrdən artıq olan Bakıdan Ceyhana gedən əsas neft ixrac boru kəməri ərsəyə gəldi. Bu, bizim iqtisadiyyatımıza sanki bir nəfəs verdi və bizim iqtisadiyyatımızın necə inkişaf etməsinə nəzər salsanız, onun enerji siyasətimizlə koordinasiyasını görərsiniz. Sonra Azərbaycan özünü artıq etibarlı tərəfdaş kimi sübut etdi və iqtisadiyyatımızın müxtəlif sahələrinə və əlbəttə ki, enerji sektoruna əlavə investisiyalar yatırıldı". Öz işini təzəcə sona çatdırmış Bakı Enerji Həftəsində Prezident İlham Əliyev həmin dövrü belə xatırladı.

Azərbaycan Prezidentinin sözü imzası qədər dəyərlidir. Odur ki, son 30 il ərzində imzalanmış bütün müqavilələr tam şəkildə icra olunub. Onların hamısı Milli Məclis tərəfindən ratifikasiya edilib və qanun şəklində imzalanıb. Orada bir söz belə dəyişilməyib.

Belə müqavilələrdən biri də "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinə aid idi. O "Şahdəniz"in ki Azərbaycanda qaz qıtlığına son qoydu. Əgər ondan əvvəl biz təbii qazı idxal edirdiksə, indi artıq 8 ölkəyə mavi yanacaq ixrac edirik və getdikcə ixracımızın həm həcmi artır, həm də coğrafiyası genişlənir. Bu il ölkəmizdən ümumilikdə 24 milyard kubmetrdən çox qaz ixrac ediləcəyi gözlənilir. Bir neçə ay bundan əvvəl keçirilmiş "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının toplantısında Avropa Komissiyası Azərbaycanı bir daha ümumavropa qaz təchizatçısı adlandırdı.

Bu gün dünya Azərbaycanın həm də bərpaolunan enerji sahəsində növbəti sürətli inkişafının şahididir. Qazanılan nailiyyətlər ölkəmizin və beynəlxalq tərəfdaşlarımızın qazıntı yanacağından bərpaolunan enerji resurslarına transformasiyasını nümayiş etdirir. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) evsahibliyi etdiyimizin mühüm səbəblərindən biri də budur.

Lakin bəzi dairələr hələ bu qərar veriləndən bəri bir məsələdən narahatlıqlarını bildirirlər. Deyirlər ki, nə üçün COP28-in də, COP29-un da, COP30-un da ev sahibi neft ölkəsi (müvafiq olaraq Birləşmiş Ərəb Əmirlikləri, Azərbaycan, Braziliya) olmalıdır. Üstəlik də, yanacaq enerjisi ilə zəngin olan ölkələri ətraf mühiti çirkləndirməkdə günahlandırırlar. Prezident İlham Əliyev bu dairələrə hələ bir neçə ay əvvəl Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxış edərkən tutarlı cavab vermişdi. Bakı Enerji Həftəsinin açılış mərasimindəki çıxışında dövlətimizin başçısı bu məsələyə bir daha toxundu: "Dəfələrlə dediyim kimi, neft və qaz ehtiyatlarına sahib olduğumuza görə bizi heç kəs günahlandıra bilməz. Bunu bizə Allah yetirib. Bizim işimizə bu ehtiyatların mövcudluğu əsasında deyil, onlardan hansı şəkildə istifadə etdiyimizə görə qiymət verilməlidir. Biz bu sərvəti müxtəlif vasitələrlə cəmiyyətə yönəltmişik, biz inklüziv cəmiyyət qura bilmişik, biz yoxsulluğu 50 faizdən 5 faizə endirə bilmişik, biz xarici borcumuzu təxminən 100 faizdən 7,7 faizə endirməyə müvəffəq olmuşuq.Yəni bizə qiymət verilən zaman bütün bu amillər nəzərə alınmalıdır. Bununla yanaşı, COP-a evsahibliyi etmək kimi məsuliyyətli vəzifəni üzərimizə götürərkən biz bunun həm üstünlüklərini, həm də müəyyən çətinliklərini tam şəkildə dərk edirik. Ancaq biz bu məsələyə sadiqik".

Bu məsələdə bizi dəstəkləyənlər də az deyil. Bunlardan biri Neft İxrac edən Ölkələr Təşkilatı - OPEC-dir. OPEC-in Baş katibi Haysam Əl-Qays Prezident İlham Əliyevin fikirlərini çox yüksək dəyərləndirdiyini bəyan edir. Prezidentimizin sözlərini təkrar səsləndirərək bildirir ki, bu qiymətli nemətlər, resurslar həqiqətən də Allah tərəfindən bizə verilmiş hədiyyədir, nemətdir. Bunlar insanlıq üçün böyük fayda gətirir. Bunu unutmamalıyıq.

Bakı Enerji Həftəsinin açılışında çıxış edərkən Haysam Əl-Qays fikirlərini geniş açıqlayaraq demişdir: "Neft və ondan hazırlanan məhsullar maşınların, gəmilərin, təyyarələrin, - bizi Bakıya gətirən təyyarələrdir, - onların işləməsini təmin edir, evlərin isidilməsində böyük rol oynayır. Eyni zamanda neft plastik məhsulların, əczaçılıq məhsullarının, hətta tibbi təchizatların hazırlanmasında böyük rol oynayır. Belə ki, biz çox vaxt bunları ciddi qəbul etmirik. Bu, hələ uzun siyahıda olanların bəziləridir. Bütün bunlar neftin bizim gündəlik həyatımızda rolunu göstərməkdədir. Bu, əlbəttə ki, enerji təhlükəsizliyi baxımından həyati əhəmiyyət daşıyır. Neft həyati əhəmiyyət daşıyır və enerji azlığını aradan qaldırmağa kömək edir və düşünürəm ki, dayanıqlı inkişaf üçün gələcəkdə də həyati əhəmiyyətini saxlayacaq. Bütün tərəflərin, bunu mən xüsusilə vurğulamaq istəyirəm ki, bütün insanların ehtiyaclarını qarşılamağa kömək edəcək. Bu məsələlər hər zaman aktual olmuşdur".

OPEC-in Baş katibinin fikrincə, hər bir ölkəyə imkan verilməlidir ki, milli şərtləri nəzərə alaraq öz yolunu, trayektoriyasını seçə bilsin və bu zaman bərabərlik və ümumi məsuliyyətləri nəzərə alaraq bunu həyata keçirsin. Bütün bunları əlbəttə ki, nəzərə almaq çox vacibdir. Bu trayektoriyadır, yoldur. Milyardlarla insanın fərqli şəraiti, ayrı-ayrı xalqların fərqli şəraitləri, kontekstləri nəzərə alınmalıdır. Çünki milyardlarla insan hələ də enerji çatışmazlığından əziyyət çəkir: "Gələcək enerji trayektoriyasında bu məsələlər nəzərə alınmalıdır və onun əhəmiyyəti vurğulanmalıdır. Bütün insanlar, bütün enerjilər, bütün texnoloji yanaşmalar burada ehtiva olunmalıdır. OPEC-də biz bu yanaşmanı tam dəstəkləyirik. Neft sahəsinə investisiya yatırmaqla yanaşı, bizim ölkələrimiz, o cümlədən Birləşmiş Ərəb Əmirlikləri və tərəfdaş ölkələrimiz, həmçinin Azərbaycan qaz sahəsinə, bərpaolunan enerji sahəsinə və bildiyimiz kimi, karbon emissiyalarının azaldılması texnologiyalarına investisiya yatırırlar. Həmçinin biz Azərbaycanın ambisiyalı planını alqışlayırıq, bu sahədə təşəbbüsləri ni yüksək dəyərləndiririk".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Məktublar: problemlər, rəylər, təkliflər...



● MİNNƏTDARLIQ

## Tezliklə su sarıdan korluğumuz olmayacaq

**Bərdə rayonunun Xanərəb kəndində yaşayıram. Kəndlinin ruzisi torpaqdan çıxar. İslahat zamanı ailəmizə düşən pay torpağı əsas gəlir mənbəyimizə çevrilib. Onu qayğı ilə əkib becərir, taxıl, pambıq, yem bitkiləri yetişdiririk. Halal zəhmətimizlə firavan dolanırıq.**



Amma istifadə etdiyimiz subartezian quyusu bir neçə il əvvəl yararsız hala düşüb. Üz tutmadığımız dövlət qurumu qalmadı. Çoxsaylı müraciətlər etsək də, üzləşdiyimiz problem həll olunmur, əkinləri suvarmaq üçün su qıtlığından korluq çəkirik.

Son ümid yeri olaraq Prezident İlham Əliyevə müraciət etdik. Çox keçmədi ki, şad xəbər aldıq. Dövlət başçısının qayğısı sayəsində istifadə etdiyimiz 16 nömrəli subartezian quyusunun bərpasına qərar verildi. Artıq yaxın günlərdə təmir-bərpa işlərinə başlanacaq. Bununla da neçə ailənin su problemi həll olunacaq.

Hörmətli redaksiya, hər bir Azərbaycan vətəndaşının Prezidenti olan, bundan hər kəsə yetərincə pay düşən dövlətimizin qüdrətli başçısına sonsuz minnətdarlığımızı bildiririk!

*İlqar QULİYEV,*
*Bərdə rayonunun Xanərəb kənd sakini*

● XATİRƏ

## Dünənin sabaha yadigarları

**Yaşadığımız Qusar rayonu təbiəti ilə həmişə fərqlənib. Təmiz dağ havası, meşələrin ətri və sərin bulaq suyu qusarlılar üçün əvəzolunmaz bir nemətdir.**



Bir neçə ildir ki, təqaüdə çıxmışam. Qusarda yaz başlayanda həmişə rayon rəhbərliyi şənbə günləri iməciliklər keçirir və bu ənənə hazırkı dövrə kimi davam etməkdədir. Mən 10 il əvvəl mənzil-istismar sahəsində çalışırdım. Həmin illərdə biz iməciliklərdə iştirak edərdik. Rayon mərkəzində, kənd yollarında, körpülərin ətrafında minlərlə ağac əkmişik. O zamanlar onlar kiçicik fidanlar idi. Hazırda əzəmətli ağaclara çevriliblər.

Vaxtilə Qusarçayın rayona giriş körpüsünün ətrafında əkilən ağaclar bu gün böyüyüb və kölgəlikləri ilə ətrafa gözəllik verir. Nəvəmlə bu günlərdə oradan keçirdik. Dayanıb həmin ağacları seyr etdik. Təbiətin yaz dövrü gözəlliyi ilə oradan keçən hər kəsi valeh etməkdədir. Mən isə ikiqat duyğulandım. Çünki ətrafa bəzək olan bu ağacları illər öncə əkənlərdən biri mən olmuşam. Məncə, hər kəs əliylə əkdiyi kiçik fidanın əzəmətli budaqlarını görəndə ona öz balası kimi baxır.

Bir də əkilən hər ağac qorunmalı, ona qulluq göstərilməlidir. Bu ağaclar təkcə gözəllik deyil, həm də sağlamlıq mənbəyidir.

*Dilarə ŞIXVERDİYEVA,*
*Qusar*

● ANIM

## Xüsusi təyinatlıların əfsanəsi

**"Dostlar, həqiqətən bəzi şeylər var ki, bizim əlimizdə deyil. Amma mən sidqi-ürəklə deyirəm. Hər zaman, hər an xalqım üçün, torpağım üçün, Vətənim üçün canımdan, qanımdan keçməyə hazıram. Həmişə özümə arzu etmişəm ki, Vətənim üçün şəhid olum, tabutum Azərbaycan Respublikasının üçrəngli ay-ulduzlu bayrağına bükülüb dəfn olunmağa aparılsın".**

Bu sözləri 24 mart 1981-ci ildə Astara rayonunun Əzərüd kəndində dünyaya göz açan xüsusi təyinatlıların əfsanəsi, Aprel döyüşlərində qana susamış ermənilərə qan qusduran, bu gün adı dillərdən düşməyən Pəncəli Teymurov 2013-cü ildə öz toy günündə bildirmişdi. Qəhrəman Vətən sevdalısı üç il sonra - ömrünün 35-ci baharında arzusuna çatdı. Şanlı zəfərimizin başlanğıcı olan Aprel döyüşlərinin üçüncü günündə son damla qanına qədər vuruşaraq qəhrəmancasına əbədiyyət adlı dünyasına qovuşdu. Ölümsüz həyatı ilə milyonların qəlbinə köç edən Astaranın igid oğlu dövlət tərəfindən "İgidliyə görə", "Vətən uğrunda" və digər medallara layiq görüldü.

Vətənin müqəddəsliyinə tapınan, qəlbən onun torpağına, daşına bağlanan



Pəncəli 1992-ci ildə baş vermiş Xocalı soyqırımının kadrlarını izləyəndə hərbçi olmağa və yurduna dadanmış yağıdan qisas almağa söz vermişdi. Orta məktəbi başa vurub ürəyində Vətənə məhəbbət, düşmənə nifrət 1999-cu ildə ordu sıralarına yola düşdü. Xidmət zamanı kəşfiyyatçı peşəsinə yiyələndi və hərbi hissənin ən mahir kəşfiyyatçısı oldu. Mübarizə meydanında düşmənə qalib gəlmək üçün son dərəcə mərd, cəsur, ağıllı gənc verilən bütün tapşırıqları layiqincə yerinə yetirdi, ən çətin təlimlərdə belə fərqləndi. Məhz bunlara görə əsgərlərin, zabitlərin sevimlisinə çevrildi.

Pəncəlinin əsgərlik həyatı başa çatsa da, düşməndən alacağı qisas anı hələ qalırdı. Odur ki, hərbi xidməti başa vurduqdan sonra könüllü olaraq xidmətini yenicə yaradılan Azərbaycan Xüsusi Təyinatlı Qüvvələrinin kəşfiyyatçı-diversant taborunda davam etdirməyə qərar verdi. O gündən düşmənə nifrəti günbəgün alovlanırdı. Xocalı faciəsi zamanı azərbaycanlıları öldürən erməni hərbçi general rütbəsi almağa gedərkən Pəncəli Teymurov onu izlədi və əlverişli məqam düşən kimi o dünyaya göndərdi. Bundan sonra erməni ordusunda böyük çaxnaşma yarandı. 2015-ci ildə kəşfiyyat qrupu ilə Kəlbəcərə keçən Pəncəli 4 erməni zabitin və 20 əsgərin olduğu "Ural" markalı maşını partladaraq onların hamısını məhv etdi. Bir dəfə erməni hərbçiləri Pəncəlini tutmaq üçün pusquya salırlar, o isə 21 gündən sora pusqudan çıxaraq növbəti dəfə düşmənin canına vəlvələ salmışdı.

17 il Azərbaycan Ordusunda xidmət etmiş Pəncəli Teymurov öz doğma Vətənini göz bəbəyi kimi qorumuş, 2016-cı ilin Aprel döyüşlərində isə sonuncu borcunu şərəflə verərək şəhidlik zirvəsinə ucalmışdır.

*Zəfər ORUCOĞLU*

● Fotofakt



**Şəkildə gördüyünüz bu görüntülər Biləcəri qəsəbəsi, Füzuli küçəsinin 1-ci döngəsində fotomüxbirimizin obyektivinə bir neçə ay öncə tuş gəlib. İllərdən bəri dəyişməz qalan bu "mənzərə"yə bu günədək əncam çəkən tapılmayıb.**

Yüzlərlə sakin problemin həlli üçün döymədikləri qapının qalmadığını deyirlər. Küçənin yaşlı sakinləri yayda toz-torpaqdan, qışda isə palçıq dərdindən küçəyə çıxa bilmədiklərindən gileylənirlər. Məktəblilər, azyaşlı uşaqlar isə küçə və döngələrinin nə zamansa təmir olunacağını böyük ümidlə gözlədiklərini deyirlər...

Maraqlıdır, doğrudanmı Biləcəri qəsəbə bələdiyyəsinin, qəsəbə nümayəndəsinin, Binəqədi Rayon İcra Hakimiyyətinin və başqa əlaqədar təşkilatların dəfələrlə olunan müraciətlərə baxmayaraq bu görüntülərdən xəbərləri yoxdur, yoxsa sadəcə olaraq gözlərini yumurlar?! Hər halda inanmaq istərdik ki, sakinlərin qocalmış arzuları yaxın zamanlarda çin olacaq.

*Fotolar İlham BABAYEVİNDİR*

● RAZILIQ

## Müraciətim cavabsız qalmadı

**Oğlum Yusif Qurbanov Vətən müharibəsi zamanı Murovdağ, Cəbrayıl və Füzuli istiqamətlərində gedən döyüşlərdə qəhrəmancasına vuruşub. Göstərdiyi igidliyə görə Prezident İlham Əliyevin sərəncamlarına əsasən, o, "Döyüşdə fərqlənməyə görə", "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə" və "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif edilib.**



Lakin oğlum 2022-ci il sentyabrın 12-də Ermənistan Silahlı Qüvvələri tərəfindən törədilən genişmiqyaslı təxribatın qarşısının alınması zamanı şəhid oldu. Ölümündən sonra dövlət başçısı onu "Vətən uğrunda" medalı və III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif etdi.

Digər şəhid anaları kimi mən də fəxr edirəm ki, oğlum Azərbaycanın bütövlüyü uğrunda canını qurban verdi. Bir şəhid anası kimi dövlətimiz məni unutmur. Tez-tez yad edərək problemlərimin həllində mənə köməklik göstərir. Elə bu yaxınlarda yaşadığım ünvanda yol infrastrukturunun qaydaya salınması ilə bağlı rayon icra hakimiyyətinə etdiyim müraciət də qısa müddətdə öz həllini tapdı. 54 saylı yol-istismar idarəsinin işçiləri gələrək küçəmizi cari təmir etdi.

Hörmətli redaksiya! Şəhid ailələrinə diqqət və qayğı ilə yanaşan dövlət başçımıza və rayon icra hakimiyyətinə ailəmiz adından minnətdarlıq edirəm.

*Səfa QURBANOVA,*
*Goranboy rayonunun Şəfəq kənd sakini*

● GİLEY

## Torpaq sahələrimiz susuz qalıb

**Son illər Şəmkirdə aqrar sahə sürətlə inkişaf edir. Dövlət dəstəyindən bəhrələnən təsərrüfat sahibləri gecəni-gündüzə qataraq çalışırlar ki, bol məhsul istehsal etsinlər.**




Uzun illərdir fermer təsərrüfatım var. Mənə məxsus torpaq sahələrində mal-qara üçün hər il yonca əkib ehtiyacımı ödəyirdim. Bundan başqa, çoxlu tut ağaclarım da var idi. Barama saxlayanlar yazda gəlib ağacların yarpaqlarını toplayır, ipəkqurdlarının yemlənməsini təmin edirdilər. İndi bütün bunlar demək olar ki, yoxdur. Susuzluqdan tut ağacları, otlaq sahəm tamamilə məhv olub. 40 hektara yaxın əkin sahəm pis günə qalıb. Əraziyə baxanda səhranı xatırladır. Etdiyimiz müraciətlər də cavabsız qalıb.

Hörmətli redaksiya! Xahiş edirəm bu işdə mənə və kənd sakinlərinə kömək göstərib, səsimizi yuxarılara çatdırasınız.

*Malik MƏMMƏDOV,*
*Şəmkir rayonunun Könüllü kənd sakini*



● MƏMNUNLUQ

## Körpələrimizdən arxayınıq

**Hər bir valideyn ağır iş günündən sonra nə qədər yorğun olursa-olsun, uşaq bağçasından qayıdan körpəsinin baxışlarına diqqət yetirir, təbəssümlü çöhrəsini görəndə sevinir.**



Övladları əmin əllərə etibar edilən nümunəvi tərbiyə müəssisələrindən biri də Sumqayıt şəhər Hacı Zeynalabdin qəsəbəsində yerləşən 60 saylı "Qərənfil" körpələr evi-uşaq bağçasıdır.

Böyüklərin xasiyyəti müxtəlif olduğu kimi, uşaqların da dünyaya baxışı müxtəlifdir. Biri sakit əyləşib oynayır, biri tərbiyəçinin ətəyindən yapışıb ondan əl çəkmir, digəri isə asfalt üzərində şəkil çəkir. Bu bağçada təmizlik və səliqə-sahman hökm sürür. Maraq doğuran bütün guşələr diqqəti cəlb edir.

"Qərənfil" 150 yerlikdir.1984-cü ildə öz qapılarını fidanların üzünə açıb. Bir müddət 12 qrup fəaliyyət göstərib. Burada vaxtilə məcburi köçkünlər yerləşdiyi üçün qrupların sayı 8 olub. Hazırda 148 uşaqla 1 baş tərbiyəçi, 12 tərbiyəçi və 2 musiqi müəllimi məşğul olur. Onlar işlərini məsuliyyətlə, vicdanla, sevə-sevə yerinə yetirirlər. Bağçada fəaliyyət planına uyğun olaraq, tədbirlər həyata keçirilir, monitor vasitəsilə uşaqlarla aparılan tərbiyə prosesi izlənilir. Qidalanma da yüksək səviyyədədir. Yeməklərin hazırlanmasında uşaqların istəyi də nəzərə alınır.

"Qərənfil"də vaxtilə bağçada tərbiyə almış Şuşa fatehi, atıcı-əsgər Telman Abışovun anası Şərifə xanım, iki qazinin ömür-gün yoldaşları, bir qazi anası, digər hərbçilərin ailə üzvləri çalışırlar.

Bəli, bu təlim-tərbiyə müəssisəsində işlər günün tələbləri səviyyəsində qurulub, valideynlərlə sıx əlaqə yaradılıb. Valideynlər vaxtaşırı qruplarda olur, uşaqlarla iş prosesinə qoşulur, tərbiyəçilərlə birgə mövzuya uyğun vəsaitlər hazırlayırlar. Aybəniz, Həsən, İnci, Aliyə, Əli, Ayan, Xədicə və başqa balaların şirin-şəkər çöhrələri isə elə bağçanın simasıdır.

*İlhamə MƏHƏMMƏDQIZI,*
*Hacı Zeynalabdin Tağıyev qəsəbəsi*

● PROBLEM

## "Azəriqaz" qaz əvəzinə vəd verir

**Kəndimiz Tovuzun səfalı guşələrindən birində yerləşir. Əhali əsasən heyvandarlıq və əkinçiliklə məşğul olur. Kənd sakinlərinin yaşayış tərzi yüksəldikcə köhnə evlər gözəl və yaraşıqlı evlərlə əvəz olunmuşdur.**

Əvvəllər mövcud olan problemlər də indi tamamilə aradan qaldırılmışdır. Lakin kəndin mavi yanacaqla təminatı hələ də problem olaraq qalır. Bununla bağlı döymədiyimiz qapı qalmayıb. "Azəriqaz" hər dəfə bizə vəd verir. Lakin məsələ öz həllini tapmır.

Kəndimiz rayonun dağlıq ərazisində yerləşdiyindən qış burada sərt keçir. İnsanlar soyuq aylarda evlərini isitmək üçün çətinliklərlə üzləşirlər. Nəticədə kəndi tərk etməli olurlar. Bu qış da belə oldu. Kənd sakinləri evlərini tərk etdilər. Hətta havalar isinsə də, onların çoxu kəndə geri qayıtmadı. Hazırda bu böyüklükdə kənddə cəmi 11 ailə qalıb. Kənd məktəbində 9 şagird təhsil alır. Belə getsə, kənd tamamilə boşalacaq.

Hörmətli redaksiya! Xahiş edirik kəndimizin mavi yanacaq probleminin həllində bizə köməklik göstərəsiniz.

*Abbas ƏLƏSGƏROV,*
*Tovuz rayonunun*
*Baqqallı kənd sakini*



● İSTƏK

## Kəndimizdəki məktəbin təmirə ehtiyacı var

**Son illər yaşadığımız kənddə aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri, eləcə də infrastrukturun yenilənməsi sakinlərin həyat şəraitinə müsbət təsir göstərmişdir. İndi demək olar ki, kənddə elə bir problem qalmamışdır.**



Bircə kənd məktəbinin təmirindən başqa. Məktəb 48 ildir ki, fəaliyyət göstərir. Bu müddət ərzində bir dəfə də olsun təmir edilməyən təhsil ocağı tamamilə qəzalı vəziyyətə düşmüşdür. Dəfələrlə aidiyyəti qurumlara müraciət etsək də, nəticəsi olmayıb. Elə bir vəziyyət yaranmışdır ki, artıq uşaqlarımızı məktəbə aparmaqdan çəkinirik.

Hörmətli redaksiya! Bəlkə siz bizə köməklik edəsiniz. Əlaqədar təşkilatların nəzərinə çatdırasınız ki, gələcəyin qurucuları olan məktəblilər qorxu içərisində deyil, müasir tələblərə cavab verən məktəbdə təhsil alsınlar.

*Elnarə MƏMMƏDOVA,*
*Tovuz rayonunun Bayramlı kənd sakini*

